# Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları

№ 1(13)
2026

**BAKI DÖVLƏT UNİVERSİTETİ**
**TARİX FAKÜLTƏSİ**

№1(13) 2026

ISSN: 2708-3934 (Print)
ISSN: 2708-3942 (Online)

# Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları

## Studies of the Turkic World Young Researchers Association

## *Mustafa Kamal Atatürk - 145*

# 1 (13)

**Bakı - 2026**

*Baş redaktor:* Sevinc Ruintən / Sevinj Ruintan
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

*Redaktor müavini:* Səidə Quliyeva / Saida Quliyeva
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

*Məsul katib*: Ülfər Məmmədli / Ulfar Mammadli
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

*Redaksiya heyəti:*

Arzu Məmmədova /Arzu Mammadova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Aytən Abbasova-Quliyeva / Aytan Abbasova-Guliyeva
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Aytən Nəsibova / Aytan Nasibova
*Saratov Dövlət Hüquq Akademiyası, Rusiya / Saratov Sate Law Academy, Russia*
Cavid Əlisgəndərli / Javid Alisgandarli
*Türk Dünyası gənc tədqiqatçılar dərnəyi / Turkic World Young Researchers Association Azerbaijan*
Elvira Lətifova / Elvira Latifova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Fatma Betül Aydemir Baş / Fatma Betul Aydemir Bash
*Eskişehir Osmanqazi Universiteti, Türkiyə / Eskishehir Osmangazi University, Turkiye*
Fəridə Allahverdiyeva / Farida Allahverdiyeva
*Türk Dünyası gənc tədqiqatçılar dərnəyi / Turkic World Young Researchers Association Azerbaijan*
İqbal Ağayev / Igbal Agayev
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Kader Özlem / Kader Ozlem
*Uludağ Universiteti, Bursa, Türkiyə / Uludag University, Bursa, Turkiye*
Kəmalə Nəcəfova / Kamala Najafova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Kəmalə Ruintən / Kamala Ruintan
*Bakı Slavyan Universiteti / Baku Svavic University*
Lalə Əliyeva / Lala Aliyeva
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Murat Jane / Murat Jane
*İstanbul Aydın Universiteti, Türkiyə / İstanbul Aydın University, Turkiye*
Oğuz Kağan Bayrakdar / Oguz Kagan Bayrakdar
*Ankara Hacı Bayram Vəli Universiteti, Türkiyə / Ankara Haci Bayram Veli University, Turkiye*
Rövşən Hətəmov / Rovshan Hatamov
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Sevinc Qasımova / Sevinj Qasımova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Talqat Moldabay / Talqat Moldabay
*L.N.Qumilyov adına Avrasiya Milli Universiteti, Qazaxıstan /*
*L.N. Gumilyov Eurasian National University, Kazakhstan*
Vladimir Redçenko / Vladimir Redchenko
*N.Q.Çernışevski adına Saratov Dövlət Universiteti, Rusiya /*
*Saratov State University, Russia*
Zərifə Nəzirli / Zarifa Nazirli
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

Türk Dünyası Gənc Tədqiqatçılar Dərnəyinin Araşdırmaları, 2017
*Redaksiya ilə əlaqə:* txt_kaf@bsu.edu.az
*Jurnalın web-səhifəsi:* https://history.bdu.info.az/turk-dunyasi-genc-tedqiqatcilar-derneyi-nin-arasdirmalari

## MÜNDƏRİCAT / CONTENTS


| | | |
|---|---|---|
| Afaq Alıyeva | *Fənlərarası inteqrasiya – təhsilimizin əsas prinsiplərindən biri kimi* | 5-12 |
| Afag Binatova | *The unique relationship between the United States and the Great Britain: current circumstances and forthcoming opportunities* | 13-17 |
| Arzu Tahirzadə | *44 günlük Vətən müharibəsi mövzusunun tədrisində xarici KİV materiallarından istifadənin yolları* | 18-22 |
| Ayişə Aslanova | *Tarixi biliklərin inkişaf etdirilməsində əyani və texniki vasitələrdən istifadənin imkanları : audiovizual vasitələr* | 23-28 |
| Əfruz Novruzlu | *XXI əsrdə gender əsaslı zorakılıq* | 29-33 |
| Gülsinar Aydınova | *Azərbaycan tarixi dərslərində layihə əsaslı öyrənmənin tətbiqi və şagird müstəqil işinin inkişafı* | 34-40 |
| Günay Ömərova | *Azərbaycan tarixinin tədrisində kooperativ öyrənmə üsulundan istifadənin məntiqi təfəkkürə təsiri* | 41-46 |
| Məhəmməd Səlim | *Bir millətin qəhrəmanı: Mustafa Kamal Atatürk* | 47-53 |
| Nərmin Həsənova | *Müasir dövrdə Azərbaycan-Türkiyə münasibətləri iqtisadi müstəvidə* | 54-59 |
| Pənah Xanlayev, Vüsal Hüseynov | *Osmanlının çoxmədəniyyətli birgəyaşayış təcrübəsi – Pax Ottomana* | 60-68 |
| Rəmzi Səfərli | *Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti və beynəlxalq aləmdə rolu* | 69-77 |
| Süleyman Rəhimli | *Ali təhsil sistemində tarixin tədrisində müəllimin kommunikativ bacarıqlarının əhəmiyyəti* | 78-84 |

## *Türk dünyasının 2026 mədəniyyət paytaxtı*
## – Əndican, Özbəkistan



## *Türk dünyasının 2026 Turizm paytaxtı*
## – Ankara, Türkiyə






*Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları*
*Studies of the Turkic World Young Researchers Association*
*№1(13) 2026, 5-12*

**UOT 371.3**

**AFAQ ALIYEVA**
*Bakı Dövlət Universitetinin magistrantı*
**afaqaliyeva888@gmail.com**

# FƏNLƏRARASI İNTEQRASİYA – TƏHSİLİMİZİN ƏSAS PRİNSİPLƏRİNDƏN BİRİ KİMİ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Mətanət Məmmədova

*Məqalədə ümummilli lider Heydər Əliyev və onun layiqli davamçısı Prezident İlham Əliyevin təhsil sahəsindəki uğurlarından bəhs edilir. Milli Kurikulum islahatı və onun əsas prinsipi olan inteqrasiyanın aktuallığı haqqında məlumat verilir. Daha sonra inteqrasiya anlayışı, onun tarixi və nəzəri əsasları, görkəmli pedaqoqların fikirləri, təhsil sahəsində inteqrasiyanın geniş şəkildə istifadəsi, müəllimlərin inteqrasiya ilə işləmək imkanı, inteqrasiyanın növləri, xüsusilə də fənlərarası inteqrasiya haqqında geniş məlumatlar öz əksini tapmışdır. Fənlərarası inteqrasiyaya aid müxtəlif fənlər üzrə nümunələr verilmişdir. Ümumi olaraq, məqalədə təhsil inteqrasiya və onun rolundan bəhs olunmuşdur.*

*Açar sözlər:* XXI əsr, təhsildə inteqrasiya, fənlərarası inteqrasiya, əlaqə, inteqrativ kurikulum.

***Giriş.*** XXI əsr bəşər tarixində ən sürətli dəyişikliklərin baş verdiyi və texnologiyaların inkişaf etdiyi dövrdür. Yeni yüzillikdə kompüter texnologiyaları, robot texnikası, süni intellekt (AI), biotexnologiya və kosmos tədqiqatları sürətlə inkişaf edir. Elm və texnikanın inkişaf etməsi, internet və süni intellektin geniş şəkildə tətbiqi bir çox sahələrdə öz müsbət təsirini göstərmişdir. Belə sahələrdən biri də təhsil sistemidir. Müasir dövrdə təhsil bəşəriyyətin sosial, iqtisadi və mədəni inkişafının əsas amillərindən biri hesab olunur. Qloballaşma, texniki tərəqqi və informasiya bolluğu şəraitində təhsil sistemi yeni tələblərə uyğun şəkildə tənzimlənir. Milli təhsilimizin inkişafı, Avropa standartlarına inteqrasiyası məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin Vətən qarşısında misilsiz xidmətlərindən biri də milli təhsil sisteminin qurucusu olmasıdır. İstər ötən əsrin 70-80-ci illərində, istərsə də müstəqillik dövründə ümummilli lider xalqımızın təkcə bugününü deyil, həm də gələcəyini düşünərək bu sahənin inkişafına xüsusi diqqət və qayğı göstərib. Xüsusən də, Azərbaycanın dövlət müstəqilliyini bərpa etdikdən sonrakı illərdə milli təhsilimizi Qərb standartları səviyyəsinə yüksəltmək, milli-mənəvi dəyərlərə həssas münasibət böyük tarixi şəxsiyyətin yürütdüyü siyasətin prioritet istiqamətini təşkil edib. Ümummilli Lider Heydər Əliyev qeyd edirdi: ***"Təhsil sistemində islahatların məqsədi ondan ibarətdir ki, Azərbaycanın təhsil sistemi dünya təhsil sisteminin standartları ilə uyğunlaşsın"*** [13, s.6]. Heydər Əliyev müstəqil Azərbaycan milli təhsilinin quruculuğu sahəsindəki islahatların həqiqi memarı idi.

Ümummilli Liderin siyasi kursunu uğurla davam etdirən Prezidentimiz İlham Əliyev də digər sahələrlə yanaşı milli təhsilimizin inkişafı və onun beynəlxalq aləmə inteqrasiyasını daha da sürətləndirmək istiqamətində olduqca mühüm tədbirlər həyata keçirmişdir.

"Təhsil haqqında" Qanunun qəbul edilməsi, təhsil sistemində əsaslı islahatların daha sürətlə davam etdirilməsi, ən mütərəqqi texnologiyaların tətbiqi, müəllimlərin pedaqoji biliyinin, təcrübəsinin yüksəldilməsi və bu sahənin dünya səviyyəsinə yüksəldilməsinə imkan vermişdir. Prezidentimiz İlham Əliyevin ən böyük uğurlarından biri Kurikulum islahatının təhsil sektorunun inkişaf layihəsində tətbiq edilməsi olmuşdur [6, s.10-29].

"Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" sənədində təhsilin əsaslı şəkildə yenilənməsi istiqamətində bir sıra prinsiplər öz əksini tapmışdır. Qeyd edilən prinsiplərdən demək olar ki, ən başlıcası təhsilin inteqrasiyasıdır.

Fənlərin tədrisində əlaqələrin yaradılması aparıcı anlayış, qanun və qanunauyğunluqların dəqiqləşdirilməsinə istiqamət verir, dərslərin maraqlı, cəlbedici olmasına imkan yaradır, şagirdləri təkrarlardan, vaxt itkisindən xilas edir, onların beynindəki pərakəndə elementləri bütövləşdirir, tamlaşdırır, obyekt və hadisənin hərtərəfli dərk olunmasını təmin edir. Beləliklə, təlimin keyfiyyətini yüksəldir. Məhz buna görə belə bir problemin həllinə həsr olunmuş tədqiqat işinin aparılmasına böyük ehtiyac hiss olunur.

Təhsildə inteqrasiya hal-hazırda aktual mövzulardan biridir. Məqalə də məhz bu mövzuya həsr olunmuşdur. Belə ki, məqalədə inteqrasiyanın təhsildə tətbiqi, onun növləri, xüsusilə də, fənlərarası inteqrasiyanın təhsil sahəsindəki özünəməxsus rolundan bəhs olunacaqdır.

***Əsas hissə.*** "Təhsildə inteqrasiya" dünyanın təhsil məkanında çox geniş şəkildə istifadə edilən anlayışdır. Belə bir sual ortaya çıxır: İnteqrasiya nədir və niyə bu qədər önəmlidir? İnsanların təbii olaraq öyrənmək istədikləri bu anlayış qloballaşmanın meydana qoyduğu vacib tələblərdən biridir. Eyni zamanda, müasir təhsil sisteminin özünəməxsus keyfiyyət göstəricilərindən biri kimi diqqəti cəlb edir. Bu anlayışın mahiyyətini anlamaq üçün ilk növbədə, onun mənasını bilmək mühüm əhəmiyyət daşıyır. "İnteqrasiya" latın dilində "integer" sözündən götürülmüş, mənası "bütöv, bütövləşmə, kiçik hissələrin birləşərək tam şəkil alması" deməkdir. Belə ki, inteqrasiya termini hər hansı məzmuni mövzunu başa düşmək üçün fənlərin bir-biri ilə əlaqələndirilməsində müstəsna rola malikdir.

İlkin araşdırmalar göstərir ki, "inteqrasiya" termini XX əsrin sonlarından etibarən geniş şəkildə istifadə olunmağa başlanmışdır. Buna baxmayaraq təhsildə inteqrasiya ideyasının tarixinin lap qədimlərə dayandığını söyləmək olar. Hələ XIII əsrdə yaşamış dahi filosof Nəsrəddin Tusi "Əxlaqi-Nasiri" əsərində yazırdı: *"Şagird hansı fənni öyrənmək, o sahədə ixtisas sahibi olmaq istəyirsə, o fənlə əlaqəsi olan bütün elmlər və sənətlərlə tanış olmağa həvəs göstərməlidir"* [16, s.172]. Sonrakı dövrlərdə klassik pedaqoqların əsərlərində də bu anlayış öz əksini tapmışdır. XVI əsrin böyük pedaqoqu Y.A.Komenski fənlərin inteqrasiyasının mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq "Böyük didaktika" əsərində inteqrasiya ilə bağlı maraqlı qeydlər aparmışdır. Y.A.Komenski *"Qarşılıqlı əlaqədə olan hər şey bu cür əlaqədə də öyrənilməlidir"* deyərək onun üstünlüklərini açmışdır. Doğrudan da, predmet və hadisələrin üzvi əlaqədə öyrədilməsi onun məzmununun dərk edilməsinə imkan yaradır [10, s.155]. A.Disterveqin dediyi sitat *"on fənni birtərəfli öyrənməkdənsə, bir fənni ontərəfli öyrənmək daha yaxşıdır"* onun təhsil fəlsəfəsinin əsas prinsiplərindən biridir. Bu fikirlə, o, şagirdlərin bütün fənləri üzdən öyrənməyini təbliğ edən köhnə təhsil metodlarına qarşı çıxış edərək, dərin bilik əldə etməyin vacibliyini vurğulamışdır [15]. İnteqrasiyanın nəzəri bir ideya səviyyəsində olduğu XIX əsrin ortalarında alman filosofu İ.Herbart tarix və coğrafiya fənlərinin birgə tədrisini məqsədə uyğun hesab edirdi. O yazırdı: *"Tarix və coğrafiya bizim anlamımızda bir çevrə içərisində yerləşir, coğrafiya ərazidir, tarix isə vaxt"*. XX əsrin əvvəllərindən başlayaraq Amerika Birləşmiş Ştatlarında və Qərbi Avropa ölkələrində "inteqrativ kurikulum" anlayışı geniş təhsil sisteminin həlledici komponentlərindən birinə çevrilmişdir [9, s.26-27] İnteqrativ kurikulumla bağlı C.Dyuinin fikirləri də çox mühüm əhəmiyyət kəsb edir: "İnteqrativ kurikulum təhsil yanaşması olub, şagirdləri həyatı boyu öyrənməyə hazırlayır" [9, s.24].

Artıq XX əsrin 50-60-cı illərində M.N.Skatkin, E.İ.Monoszon, Ş.İ.Qanelin, S.E.Drapkina fənlərarası inteqrasiyanın vacib olduğunu öz əsərlərində qeyd edirdilər. Tarix fənni fənlərarası və fənlərüstü inteqrasiyanın daha rahat şəkildə reallaşdırılmasına imkan açan dərslərdən biridir ki, dərsin tədrisində bütün elm sahələri tarixi prosesin tərkibi kimi öyrənilir [4, s.366].

Müasir dövrdə inteqrasiya qlobal dünyanın təhsil sistemində olduqca böyük rol oynayır. Ona görə də, informasiyaların genişləndiyi bir dövrdə bilikləri əlaqələndirmək ən səmərəli strategiyalardan biri kimi hesab olunur. İnteqrasiya müxtəlif məlumatların qarışıq şəkildə nəzərdən keçirilməsinə, kompleks öyrənilməsinə kömək edir.

Demək olar ki, bütün elm sahələrində, o cümlədən pedaqogika və metodikada inteqrasiya termini önəmli yer tutmuşdur. Yeni təhsil quruculuğunda "təhsilin inteqrasiyası" anlayışından yaradıcı şəkildə istifadə edilir. İnteqrasiyanın məktəbdə tətbiqi şagirdin daha dərin biliklər əldə etməsinə imkan yaradır. Buna şagirdlərin yaş xüsusiyyətləri və qavrama səviyyələri kömək edir. Belə ki, inteqrasiya təhsil sistemində şagirdlərin təfəkkürünün inkişaf etməsində, onların dünyagörüşünün formalaşdırılmasında

müstəsna rola malikdir. İnteqrasiyanın təlimdə tətbiq olunması nəticəsində şagirdlər öyrəndikləri biliklər arasında qarşılıqlı əlaqəni daha yaxşı başa düşür və gələcək fəaliyyətlərində istifadə edə bilirlər [2].

Hər hansı bir hadisəni, prosesi, obyekti tam təsəvvür etmək üçün ona müxtəlif aspektlərdən yanaşılması tələb olunur. Fənlər arasında əlaqə yaradıldıqda obyekti və ya hadisəni şagirdlər dərindən dərk edir, mahiyyətini anlayırlar. Buna görə də təhsildə, xüsusilə ibtidai təhsildə əsas vəzifə və prinsip fənlərin inteqrasiyası olmalıdır.

Qeyd etmək lazımdır ki, görkəmli metodist alimlərimiz V.Qurbanov, N.Cəfərova, R.Əşrəfov, F.Yusifov, Y.Aslanov, Z.Veysova Azərbaycan təhsil sistemində inteqrasiyanın əsasən üç növündən geniş şəkildə istifadə olunduğunu qeyd etmişdirlər:

*Fəndaxili inteqrasiyada* müvafiq fənnin mövzuları arasında əlaqə yaradılır. Mövzular bir-birləri ilə əlaqələndirilərək tədris olunur. Bu zaman şagirdlər mövzular arasındakı bənzərlikləri daha yaxşı başa düşürlər. Fəndaxili inteqrasiyanın üfüqi və şaquli olmaqla 2 əsas forması var. *Üfüqi inteqrasiya* dedikdə fənn üzrə məzmun xətləri əlaqələndirərək onlara uyğun olan məzmun standartlarının müəyyən tədris vahidlərində ifadə olunmasını təmin edir. *Şaquli inteqrasiya* isə sinifdən sinfə tədricən genişlənən məzmun xətləri arasındakı əlaqənin qorunmasını təmin edir.

İnteqrasiyanın digər növü olan *fənlərarası inteqrasiya* müxtəlif fənlərə məxsus oxşar mövzuların birgə tədris edilməsidir. Məsələn Azərbaycan tarixində Qaraqoyunlu dövlətinin hökmdarı Cahanşahın siyasi fəaliyyəti, Ədəbiyyat fənnində isə onun elmi yaradıcılığı öyrənilir.

*Fənnüstü inteqrasiya* tədris prosesində öyrədilən biliklərin real həyatla əlaqələndirilməsidir. Bu inteqrasiya növünün əsas mahiyyəti ondan ibarətdir ki, təhsilalanlar tədris prosesində qazandıqları məlumatları real həyatda sınaqdan keçirirlər və təcrübə qazanırlar [8, s.105-106].

Araşdırmalara əsasən qeyd etmək lazımdır ki, inteqrasiyanın təhsil prosesində tətbiqi bilik və bacarıqların şagirdlər tərəfindən daha asan mənimsənilməsi, dərslərin maraqlı və məzmunlu qurulması, şagirdlərdə tədqiqatçılıq bacarıqlarının formalaşması üçün vacib şərtlərdən biridir. İnteqrasiyanın əsas növlərindən biri olan fənlərarası inteqrasiyaya inteqrativ təlimin təşkili zamanı xüsusi əhəmiyyət verilir. Fənlərarası inteqrasiya fənn kurikulumlarının müxtəlif aspektlərini əlaqələndirməklə geniş sahələrin öyrənilməsinə kömək edir [11, s.109-119].

Fənlərarası əlaqə ümumi xarakterə malik olub, bütün tədris fənlərinə, hər bir mövzunun praktik öyrənilməsinə, təlim prosesinin bütün komponentlərinə xüsusi tələblər verir, şagirdlər üçün problem, sual, tapşırığın formalaşdırılmasına, ayrı-ayrı fənlərdə (bizim tədqiqatda riyaziyyat və həyat bilgisi, riyaziyyat və ana dili və s.) bilik və bacarıqların tətbiqinə yönəldilir.

İnteqrasiyanın bu növü şagirdlərin təbiət, cəmiyyət və insanlar haqqında qarşılıqlı əlaqələr şəraitində qurulmuş biliklərə yiyələnməsini stimullaşdırır. İnteqrasiya nəticəsində tədris materialının yığcamlığı təmin edilir, təkrara yer verilmir, şagirdlər artıq yüklənmir və tədris vaxtına qənaət edilir. Onlar az vaxt içərisində çox, həm də bir-biri ilə üzvi əlaqədə formalaşmış biliklər əldə edirlər. Bu məqsədlə uşaqları inteqrativ biliklər əldə etməyə hazırlayan fənlərarası əlaqəyə geniş yer verilməlidir.

Fənlərarası əlaqə şagirdlərdə hər bir fənnin mahiyyətini, onların paralel öyrənilməsinin səbəbini və bu fənlərin öyrənilməsinin insanın gələcək həyatında rolunu aşkarlayır. Şagirdlərdə dünyagörüşü yaratmaq, onların fəaliyyətini və müstəqilliyini inkişaf etdirmək, sistemli və yaradıcı təfəkkür formalaşdırmaq üçün fənlərarası əlaqə mühüm əhəmiyyət kəsb edir.

Dərs prosesində təhsilverən: – tədris edəcəyi mövzuların fənlərarası əlaqəsini müəyyənləşdirməlidir [11, s.48-50]. Fənlərarası əlaqənin daha effektiv təmin olunması fənn müəllimindən də çox asılıdır. Belə ki, müəllim ayrı-ayrı fənlər üzrə həmin fənnin proqramına yaxşı bələd olmalı, fənlərarası əlaqədən istifadə etməyin üsul və vasitələrini, onun metodikasını daha dərindən tam şəkildə bilməlidirlər. Müəllim fənlərarası əlaqəni yaradarkən şagirdlərin fərdi və yaş xüsusiyyətlərini, onların mövcud bilik, bacarıq və vərdişlərinin səviyyəsini, onların fiziki, fizioloji və psixoloji xüsusiyyətlərini mütləq nəzərə alınmalıdır.

Fənlərarası kurikulumu planlaşdırmaq üçün müəllim aşağıdakı addımları atmalıdır:

1. İlk növbədə alt standartlar seçilir;

2. Daha sonra alt standartlara uyğun məzmun təyin edilir;
3. Həmin standartalara bu mövzunun köməyi ilə nail olmaq imkanlarını məhz hansı fənlər vasitəsilə gerçəkləşdirmək mümkün olduğu müəyyənləşdirilir;
4. Nəticəyə çatmaq üçün nəyi bilmək və nəyi bacarmaq lazım olduğu müəyyənləşdirir.

Fənlərarası əlaqə zamanı tədris olunan hər bir fənn şagirdlər tərəfindən daha yaxşı mənimsənilir, burada bir neçə fənn üzrə bilik, bacarıq, vərdişlər təkrarlanır və sonda nəticə olaraq biliyin şagirdlər tərəfindən sistemli mənimsənilməsi tam təmin edilir. Fənlərarası əlaqədən düzgün və ardıcıl istifadə edilməsi tədrisin səviyyəsini daha da yüksəldir və inkişaf etdirir. Eyni zamanda şagirdlərin məntiqi təfəkkürü inkişaf edir, dünyagörüşləri artır. Buna görə də təhsil ayrı-ayrı fənlərin öyrədilməsi kimi deyil, XXI əsrin tələb etdiyi həyati bacarıqlardır.

Fənlərarası əlaqə vasitəsilə 3 vəzifə həyata keçirilir: təhsil, tərbiyə və inkişafetdirici vəzifələr. Lakin ona müxtəlif aspektdən yanaşdıqda daha çox vəzifəni: fəlsəfi, psixoloji, didaktik, metodik və s. yerinə yetirdiyi məlum olur. Ona görə də fənlərarası əlaqə pedaqoq, psixoloq və metodistlərin başlıca obyekti olaraq qalır.

Bu inteqrasiya səviyyəsi bir neçə fənnin əhatə etdiyi ortaq anlayış, bilik və bacarıqların sintezi olmaqla, bir fənnə aid biliklərin və metodların digər bir fənnin öyrənilməsində istifadəsini nəzərdə tutur. Fənlərarası inteqrasiya təlim materiallarının digər fənlərin imkanları hesabına məzmun etibarilə genişlənməsinə, məsələlərin dərindən təhlil edilməsinə və ümumiləşdirilməsinə xidmət edir. Bu proses eyni mövzu ilə bağlı bilik və bacarıqların fərqli fənlər vasitəsilə daha da təkmilləşdirilməsini təmin edərək təlim prosesinin keyfiyyətinin artırılmasına şərait yaradır [11, s.109-119].

Fənlərarası inteqrasiyanın tətbiq olunduğu dərslərdə müəyyən bir mövzu əsas götürülərək bu mövzunun işıqlandıra biləcəyi bilik və bacarıqlar müvafiq sahələrdən götürülür və birləşdirilir. Burada əsas məqsəd dərsin mövzusunu təşkil edən konsepsiyanı araşdırmaqla birlikdə bu müddətdə iştirak edən digər fənlərin də mövzu ilə əlaqəli bilik və bacarıqlarını öyrənmək də zəruridir. Başqa sözlə, fənlərarası inteqrasiya sayəsində tədris prosesi həm müəyyən fənlərin bilik və bacarıqlarını öyrənməyə imkan verir, həm də onları bir araya gətirməklə istifadə etməyə kömək edir. Fənlərarası inteqrasiya 45 dəqiqə ərzində Azərbaycan dili, Ədəbiyyat, Tarix, Coğrafiya, Biologiya kimi fənlərin hamısı haqqında danışmaq deyil. Bu bir dərs üçün süni əlaqəndirmədən başqa bir şey olmaz. Həqiqi mənada fənlərarası inteqrasiya tədrisin tamamilə konsepsiya və ya problemlər ətrafında birləşməsi və bu konsepsiya və ya problemin işlənməsində müxtəlif sahələrdəki məlumatların, biliklərin effektiv şəkildə birləşdirilməsidir.

Fənlərarası inteqrasiya bir neçə fənnin əhatə etdiyi ortaq bilik və bacarıqların sintezi olmaqla, bir fənnə aid anlayışların və metodların digər bir fənnin tədrisində istifadəsini nəzərdə tutur. Bu inteqrasiya müxtəlif fənlər arasında məntiqi əlaqələrin qurulmasına xidmət edir. Bu proses eyni bir bacarığın ayrı-ayrı fənlər vasitəsilə daha da təkmilləşdirilməsini təmin etməklə təlim prosesinin səmərəliliyinin artırılmasına şərait yaradır.

Qeyd etmək lazımdır ki, fənlərarası inteqrasiya müasir dərsin tələblərinə cavab verən innovativ pedaqoji texnologiyalardan biridir. İnteqrasiya olunmuş dərs şagirdə hadisənin mənzərəsini daha dolğun görməyə imkan verir. Bu halda həm əlaqəli obyektlər, həm də müxtəlif dövrləri təmsil edən hadisələr inteqrasiya olunur. Eyni müvəffəqiyyətlə fizikanı kimya ilə, tarixi riyaziyyatla, rus dilini isə informatika ilə birləşdirmək mümkündür.

Fənlərarası əlaqə sadəcə olaraq şagirdlərin biliklərinin artmasına deyil, həm də onların maraq və meyllərinin ödənilməsinə xidmət edir, hadisələrdən düzgün baş açaraq faydalanmaq üçün şərait yaradır. Fənlərarası əlaqələr digər fənlərdən biliklərin istifadəsini tələb edən müəyyən bir fraqment şəklində dərsə daxil edilə bilər. Fənlərarası bilik və bacarıqlar bir neçə fənnin məzmunu ilə bağlı meydana çıxır və real həyati situasiyalar üçün faydalı olur. Bu tip bacarıqlar şagirdlərdən mürəkkəb fəaliyyətlərin yerinə yetirilməsini tələb edir. Belə bacarıqlara tədqiqatçılıq, tənqidi yanaşma, səmərəli ünsiyyət, problemin həlli, inteqrasiyaların idarə edilməsi və s. nümunə göstərmək olar [11, s.109-119].

Fənlərarası inteqrasiyadan daha yaxşı fayda əldə etmək üçün müəllimlər öz fənləri ilə inteqrasiya oluna biləcək digər fənlərin müvafiq materiallarını təhlil etməli, onlardan necə istifadə edə bilməyin metodikasını bilməlidir. Fənlərarası inteqrasiya nümunələri tədrisin keyfiyyət göstəricilərinin yüksəl-

dilməsinə, eyni zamanda şagirdlərin həyati, idrakı və koqnitiv bacarıqlarının inkişafına müsbət təsir edir [1, s.57].

Bir sıra metodistlərimiz fənlərarası inteqrasiya ilə bağlı maraqlı fikirlər qeyd etmişdirlər. Akad. M.M.Mehdizadə fənlərarası inteqrasiyanı didaktik prinsip hesab edərək şagirdlərdə əsaslı elmi anlayışların formalaşmasında mühüm rolundan bəhs etmişdir [12, s.21-25]. O, fənlərarası inteqrasiyanın fəlsəfi və psixoloji əsaslarını vacib hesab edir. S.Xəlilovun fikrincə də, fənlərarası inteqrasiya təlim prinsipi hesab olunur və o, təhsil üçün önəmlidir [15, s.219-221].

Fənlərarası inteqrasiyanın əsas mahiyyəti ondan ibarətdir ki, şagirdlərə hərtərəfli düşüncə tərzi qazandırır. Şagirdlərin tənqidi, yaradıcı düşünmə və qərarvermə prosesində müxtəlif sahələrdəki bilikləri əlaqələndirmə bacarığı çox böyük əhəmiyyətə malikdir. Bugünkü təhsil sahəsində qarşılaşdığımız ən mühüm problemlərdən bəziləri məktəbdə öyrənilən biliklərin gündəlik həyatda tətbiq olunmaması, biliklərin yenilənməməsi, öyrənmə və araşdırma bacarıqlarının inkişaf etməməsidir. Fənlərarası inteqrasiyada əsas məqsəd müəyyən bir fənnə aid biliklərin şagirdlərə ötürülməsindən əlavə, müxtəlif fənlərin biliklərinin müəyyən bir məqsəd altında istifadəsidir. Şagird özünü müəyyən bir fənnə aid düşünmə tərzi ilə məhdud hiss etməyəcək, əksinə, digər fənlərə aid qazandığı biliklərini öz məqsədinə çatmaqda və ya qarşılaşdığı problemlərin həllində bir vasitə kimi qəbul edəcəkdir. Bu cür düşünmə tərzi öz üzərində daim işləyən, öyrəndiyi bilikləri tətbiq etməyi bacaran və qərar verə bilən şəxsləri yetişdirmək yolunda atılacaq əhəmiyyətli bir addımdır.

Lakin fənlərarası inteqrasiyanın dərslərdə tətbiq olunmasında bəzi problemlər üzə çıxa bilər. Müəllimlər tədris etdiyi fənni digər fənlərlə əlaqələndirmə yönündə təşviq edilmədikləri üçün şagirdlərə yalnız öz dərsləri haqqında biliklər verirlər və bu dərsdə öyrənilən bilik-bacarıqların digər dərslərdə necə istifadə olunduğu, yaxud necə əlaqələndirildiyi üzərində durmurlar. Bunun da nəticəsində, məktəblərimizdə ayrı-ayrı bilik və bacarıqları olan şagird qrupları formalaşır. Misal olaraq, bəzi şagirdlərin humanitar fənlərə daha meyilli, bəzi şagirdlərin isə texniki fənlərə daha meyilli olduğu söylənilir. Öyrənilmiş bilik və bacarıqların bir arada toplanması yönündə hər hansı bir dərs olmadıqda şagirdlər öyrənmənin ən vacib mərhələsində qazanmış olduqları bilik və bacarıqların əlaqələndirilməsi və tətbiq edilməsində tək qalırlar. Bu da onlarda hərtərəfli düşüncə tərzinin inkişafına mənfi təsir göstərir. Hərtərəfli düşünmə bacarığına sahib şagirdlər və həmin şagirdlərin maraq və tələbatının nəzərə alınması cəhətindən də böyük əhəmiyyətə malikdir.

Nümunə olaraq, məktəbdə Tarix fənnin tədris olunan digər fənlərlə inteqrasiyasına aid bəzi nümunələrə nəzər yetirək:

*Tarix və Coğrafiya* – bu iki fənn bir-biri ilə sıx əlaqəlidir. Coğrafiya tarixi hadisələrin baş verdiyi məkanı və təbii şəraiti izah edir. Məsələn, dövlətlərin yaranması, müharibələrin səbəbləri və xalqların miqrasiyası çox vaxt təbii-coğrafi amillərlə bağlıdır. Şagird coğrafi xəritə üzərində hadisələri izləməklə tarixi prosesləri daha dərindən anlaya bilir.

*Tarix və Biologiya* – Biologiya insanın bioloji təkamülünü (məsələn, Homo sapiens-in yaranması, antropologiya, genetika) öyrənir. Tarix isə bu təkamüldən sonra formalaşan insan cəmiyyətlərinin inkişafını, mədəniyyətini və fəaliyyətini araşdırır [3].

*Tarix və Kimya* - Tarix və kimya arasındakı əlaqə qədim dövrlərdən mövcuddur. İnsan ilk dəfə oddan istifadə etməklə kimyəvi prosesləri müşahidə etmiş, metal və gil kimi maddələri emal etməklə sivilizasiyanın inkişafına təkan vermişdir. Daş, bürünc və dəmir dövrləri həm tarixi, həm də kimyəvi inkişaf mərhələlərinin göstəricisidir. Bu dövrlərdə metallurgiyanın yaranması kimyanın ilkin təcrübə forması sayılır. Bu inteqrasiya sayəsində şagirdlər anlayır ki, hər bir kimyəvi kəşf yalnız laboratoriya nəticəsi deyil, həm də insanlığın tarixi inkişafına təsir edən mühüm hadisədir.

*Tarix və Riyaziyyat* – Riyaziyyat tarixi proseslərin dərin təhlilində mühüm rol oynayır. Tarixdə baş verən hadisələr çox zaman rəqəmlər, illər, statistika və ölçülərlə ifadə olunur. Məsələn, dövlətlərin yaranma və süqut illəri, əhali sayı, iqtisadi göstəricilər, döyüşlərin davametmə müddəti və nəticələri - hamısı riyazi məlumatlara əsaslanır.

*Tarix və Ədəbiyyat* – Ədəbiyyat tarixi hadisələri bədii formada əks etdirir və o dövrün insanlarının düşüncə tərzini göstərir. Məsələn, Nizaminin "İsgəndərnamə"si və ya Füzulinin əsərləri öz dövrünün ictimai-mədəni mənzərəsini əks etdirir. Tarix dərslərində bədii nümunələrin istifadəsi şagirdlərin milli kimliyini və emosional bağlılığını gücləndirir.

*Tarix və Musiqi* – Tarix və musiqi bir-biri ilə sıx bağlıdır. Tarixi proseslər musiqinin inkişafına birbaşa təsir göstərmiş, eyni zamanda musiqi də dövrlərin mənəvi simasını formalaşdırmışdır. Məsələn, Qədim Mesopotamiya və Misirdə musiqi dini ritualların ayrılmaz hissəsi idi. Orta əsrlərdə isə Avropada kilsə musiqisi və Azərbaycan ərazisində muğam sənəti formalaşmağa başlamışdı. Bu dövrlərdə musiqi həm mənəvi, həm də ictimai həyatın mühüm elementi sayılırdı.

*Tarix və Azərbaycan dili*– Tarixdə baş verən hadisələrin, dövlət quruluşlarının və mədəni proseslərin öyrənilməsi zamanı şagirdlər çoxlu yeni termin və anlayışlarla tanış olurlar. Bu anlayışların düzgün izahı və mənimsənilməsi Azərbaycan dilinin köməyi ilə mümkündür. Həmçinin qədim yazılı abidələrin dil xüsusiyyətləri tarixlə bağlı bilikləri daha da dərinləşdirir.

*Tarix və Təsviri incəsənət*– Tarixi dövrləri öyrənərkən həmin dövrün memarlığı, rəssamlığı, musiqisi və geyim mədəniyyəti hadisələrin mahiyyətini anlamağa kömək edir. Məsələn, Qız Qalası, Şirvanşahlar Sarayı kimi nümunələr tarixi faktları vizual şəkildə təqdim edir və dərsi daha canlı edir.

***Nəticə.*** Fənlərarası inteqrasiya müasir təhsil sistemində əsas yeniliklərdən biri kimi çıxış edir və təlim prosesinin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Fənlərarası inteqrasiya müasir təhsil sisteminin əsas prinsiplərindən biri kimi şagirdlərdə biliklərin sistemli və əlaqəli şəkildə formalaşmasına xidmət edir. Bu yanaşma fənlərin bir-birini tamamlamasına, öyrənilən məlumatların praktik həyatda tətbiqinə və şagirdlərin funksional savadlılıq səviyyəsinin yüksəlməsinə imkan yaradır. İnteqrativ tədris prosesi şagirdlərdə tənqidi düşünmə, problem həll etmə və yaradıcı yanaşma bacarıqlarını inkişaf etdirir. Beləliklə, fənlərarası inteqrasiya təlimin səmərəliliyini artırmaqla yanaşı, XXI əsr tələblərinə cavab verən müasir, düşünən və bacarıqlı şəxsiyyətlərin formalaşmasında mühüm rol oynayır.

Bu yanaşma şagirdlərə fənlər arasında əlaqə qurma, hadisələrə kompleks və sistemli şəkildə yanaşma bacarığı qazandırır. Ənənəvi tədris üsullarında biliklər ayrı-ayrı fənlər çərçivəsində təqdim olunduğundan, şagirdlər çox vaxt öyrəndiklərini real həyatda tətbiq etməkdə çətinlik çəkirdilər. Lakin inteqrativ təlim sayəsində müxtəlif fənlər arasında məzmun, məqsəd və fəaliyyət baxımından əlaqə yaradılır və nəticədə şagirdlər əldə etdikləri bilikləri daha dərindən mənimsəyir, onları gündəlik həyatda tətbiq etməyə başlayırlar.

Fənlərarası inteqrasiya təhsildə funksional savadlılığın inkişafına da birbaşa təsir göstərir. Şagirdlər yalnız nəzəri bilikləri deyil, həm də onların praktik tətbiq yollarını öyrənirlər. Məsələn, tarix dərslərində coğrafiya, ədəbiyyat, riyaziyyat və incəsənətlə əlaqələndirilmiş mövzular şagirdlərdə analitik düşüncə, məntiqi nəticə çıxarma və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir. Bu isə müasir təhsil standartlarının əsas məqsədi olan "bilik, bacarıq və münasibətlərin birliyi" prinsipinə uyğun gəlir.

Eyni zamanda, fənlərarası inteqrasiya müəllimlərin qarşısında da yeni vəzifələr qoyur. Müəllimlər tədris prosesini planlaşdırarkən müxtəlif fənlərin məqsəd və məzmununu uyğunlaşdırmalı, ümumi bacarıqların formalaşmasına yönəlməlidirlər. Bu, pedaqoqlardan daha çevik, yaradıcı və innovativ yanaşma tələb edir. Beləliklə, inteqrativ tədris təkcə şagirdlər üçün deyil, müəllimlərin peşəkar inkişafı üçün də vacib istiqamətdir.

Fənlərarası əlaqə tədrisin elmi səviyyəsini yüksəldir, vahid elmi sistemin dərk edilməsini asanlaşdırır, şagirdlərin məntiqi təfəkkürünü və elmi dünyagörüşünü inkişaf etdirir, tədris materiallarının şüurlu mənimsənilməsi və möhkəm yadda qalmasına imkan yaradır. Bir sözlə, təlim prosesinin səmərəliliyini, biliklərin keyfiyyətini yüksəldir, obyekt və hadisələr arasındakı məntiqi əlaqələrin dərk olunmasına kömək göstərir.

Yekun olaraq qeyd etmək lazımdır ki, fənlərarası inteqrasiya müasir təhsil sisteminin ayrılmaz hissəsinə çevrilmişdir. O, təlimin məzmununu zənginləşdirir, şagirdlərdə kompleks düşünmə, əməkdaşlıq və yaradıcılıq kimi XXI əsr bacarıqlarını formalaşdırır. Bu yanaşma sayəsində məktəb yalnız bilik verən yer deyil, həm də düşünən, tədqiqat aparan və öz fikrini əsaslandırmağı bacaran şəxsiyyət-

lərin yetişdiyi bir məkana çevrilir. Buna görə də fənlərarası inteqrasiyanın geniş tətbiqi təhsilimizin əsas tələbi və inkişaf istiqaməti kimi strateji əhəmiyyət daşıyır.

## ƏDƏBİYYAT

1. Ağaməmmədov N. Ümumtəhsil məktəblərində coğrafiyanın fizika ilə inteqrativ tədrisinə müasir yanaşmalar // Azərbaycan məktəbi, 2024, №1 (706), s.55-62. - https://as-journal.edu.az/umumt%C6%8Fhsil-m%C6%8Fkt%C6%8Fbl%C6%8Frind%C6%8F-cografiyanin-fizika-il%C6%8F-inteqrativ-t%C6%8Fdrisin%C6%8F-muasir-yanasmalar [14.12.2025].
2. Binnətova Ş. Riyaziyyat təlimi prosesində fənlərarası əlaqələrin reallaşdırılması. Bakı, ADPU, 2014, 28 s.
3. Əhmədova S. Müasir təlimdə fənlərarası inteqrasiyanın rolu / "Azərbaycan müəllimi", 08 oktyabr 2023. - https://www.old.muallim.edu.az/news.php?id=26626 [14.12.2025].
4. Əmirov M. Ümumtəhsil məktəblərində tarixin fəal-interaktiv təlimi metodikası (ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti). Bakı: ADPU-nun nəşriyyatı, 2014, 707 s.
5. Həsənov M., Ağayev Ş., Məmmədova V., Fərzəliyeva Y. Fənlərin inteqrasiyası. Bakı, "MM-S" müəssisəsi, 2013, 64 s.
6. Hüseynova L. Azərbaycan Respublikasının təhsil sisteminin formalaşdırılması (1991-2011) // Akademik Tarih ve Düşünce Dergisi, Yıl: 2023, Cilt: 10, Sayı: 4, s.1028-1037.
7. Xəlilov S. Fənlərarası əlaqənin məzmununa müxtəlif elmi yanaşmalar // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu – Elmi əsərlər, Bakı, 2008, №4, s.219-221.
8. Qurbanova V. İnteqrasiya haqqında məlumat və texnologiyanın təlim prosesinə inteqrasiyası // Humanitar və ictimai elmlər, №1(13), 2024, s.105-111.
9. Kərimova F., Əhmədova M. İnteqrativ kurikulum: mahiyyəti və nümunələr. Bakı, Adiloğlu, 2005, 234 s.
10. Komenski Y.A. Böyük Didaktika. Tərtib edən: prof. F.A.Rüstəmov. Bakı, "Elm və Təhsil", 2012, 388 s.
11. Mehdiyeva N. Yeni fənn kurikulumları ilə inteqrasiya. Kurikulumların hazırlanması və tətbiqi məsələləri. Bakı, "Kövsər", 2008, s.109-119.
12. Mehdiyeva S. Orta məktəblərdə biologiyanın tədrisində inteqrasiya və onun mahiyyəti // Pedaqoji Universitet xəbərləri, 2014, № 2, s.21-25.
13. Nurəliyev Ş. Heydər Əliyev milli təhsil sisteminin qurucusudur / "Xalq qəzeti", 10 dekabr 2011, s.6. - https://www.anl.az/down/meqale/xalqqazeti/2011/dekabr/218745.htm [14.12.2025].
14. Pirverdiyeva G. Təlimdə fənlərarası inteqrasiyanın tətbiqi xüsusiyyətləri // "Peşə təhsili və insan kapitalı" jurnalı, Bakı, 2020, cild 3, №3, s.48-50.
15. Seyidov Ə. Pedaqogika tarixi. Bakı, "Maarif", 1968, s.64.
16. Nəsrəddin Tusi. Əxlaqi-Nasiri. Bakı, "Lider" nəşriyyatı, 2005, 280 s.

**AFAQ ALIYEVA**
*Master's student of Baku State University*

## INTERDISCIPLINARY INTEGRATION – A FUNDAMENTAL REQUIREMENT OF OUR EDUCATION SYSTEM

The article discusses the achievements of the national leader Heydar Aliyev and his worthy successor, President Ilham Aliyev, in the field of education. Information is provided about the relevance of the National Curriculum Reform and its main principle of integration. Then, the concept of integration, its historical and theoretical foundations, the views of prominent educators, the widespread use of integration in the field of education, the ability of teachers to work with integration, types of integ-

ration, especially interdisciplinary integration, are reflected. Examples of interdisciplinary integration in various subjects are given. In general, the article discusses educational integration and its role.

*Keywords:* 21st century, integration in education, interdisciplinary integration, connection, integrative curriculum.

*Daxil olma tarixi*: 14.12.2025-ci il.
*Çapa imzalanma tarixi*: 30.01.2026-cı il.

**UOT 94**

**AFAG BINATOVA**
*Baku State University*
*2nd year master student majoring in American Regional Studies*
**afagbinatova@bsu.edu.az**

# THE UNIQUE RELATIONSHIP BETWEEN THE UNITED STATES AND THE GREAT BRITAIN: CURRENT CIRCUMSTANCES AND FORTHCOMING OPPORTUNITIES

*Scientific supervisor*:
PhD on hisroty Aytan Abbasova-Guliyeva

*In light of the current political, economic, and civilizational transformations in the United States and the Great Britain, this article examines the present and potential future of their relationship. Under the circumstances of the United States' new leadership and the Great Britain's exit from the European Union, the research focuses on the military-political cooperation between the two nations. The article comes to the conclusion that the political elites of both nations agree on the significance of a unique relationship. In order to project influence in strategic parts of the world, the United States requires British military and intelligence capabilities in addition to diplomacy, despite skepticism from individual American politicians and speculation about Britain's power decline. In order to maintain its position as one of the major world powers, the British establishment also does not question the necessity of maintaining military capabilities and complementarity with the US military. According to the research, there is no indication that the two nations' underlying civilizational closeness, which is founded on similar values, concerns, and attraction, is waning. This closeness can be seen across a range of factors, analyzed in the article. The relationship between two countries is a fundamental plank of the economic wellbeing of both. It is also vital to their enduring influence and the maintenance of the rules-based order in an increasingly uncertain world.*

*Keywords:* The Great Britain, the United States, global influence, NATO.

***Introduction.*** Strong ties between the United States and the Great Britain are essential for both countries in light of the political changes in both countries. Its significance goes well beyond them; as prominent members of the UN Security Council, NATO, and other international organizations, the two nations are essential to upholding the rules-based international order. The desire of the British elite to maintain their nation's influence on the global stage following the fall of the empire and the US interest in a powerful military ally that possesses territories across the globe have both contributed to the unique relationship between the Great Britain and the USA, which has lasted for more than 70 years. The world is less stable now than it has been for many decades, and the main power dynamics are more unstable. The liberal world order, which was established at the end of World War II with the help of the United States and the Great Britain, is facing increasing challenges [1]. Concerns concerning the future of the global order and the Great Britain-USA relationship within it are raised by the shift of the center of gravity to Asia. For the Great Britain, Brexit presents both opportunities and difficulties. It implies that it might look to deepen diplomatic and economic ties with the United States of America even as it works to establish itself as a global Britain.

One of the most popular political historical research topics that many academics are interested in is the examination of the unique relationship between the Great Britain and the United States of America. The literature that is currently available, however, focuses primarily on a thorough examination of the development of the "special relationship" and the history of bilateral cooperation. The

problems with the current Great Britain-USA relationship and its prospects for the future are not well studied.

The study aims to determine the current status and trends in the evolution of the relationship between the Great Britain and the United States of America. It also examines the potential ramifications of Brexit and the election of a new president of the United States. The realistic and neorealist paradigms are the primary lenses through which the Great Britain-USA relationship is viewed. Despite the fact that their national interests do not always align, these nations maintain close allied relations in order to maximize their security [2]. The "case study" method, the logical intuitive method, and the method of critical analysis of documents were all employed during the research.

The term “special relationship” which refers to a network of personal contacts, shared interests, and similar ideologies, is thought to have originated in the Great Britain. It is believed that only through a close alliance with the US can the Great Britain maintain the status of a great power with global interests. This idea helped the nation adapt to the loss of imperial greatness, maintain diplomatic influence on the world stage, and put her ability to think strategically on a global scale into practice. The durability of the bilateral relations is due to inertia, which is embodied in the institutionalization of cooperation at various levels as well as cultural and civilizational values. Sustaining special relations is a tool of British diplomacy, not an end in itself.

The US and the Great Britain have a close security relationship (conventional, nuclear, and intelligence) that is founded on a common sense of threat and shared values. It is a result of historical circumstances brought about by comparable underlying strategic presumptions about the proper operation of national security policy. Military interoperability between the US and the Great Britain is largely responsible for the success of the bilateral relationship [3]. The foundation of the unique Anglo-American relationship will continue to be military cooperation, including intelligence and nuclear technology, for a very long time. The complementarity of the US and Great Britain armed forces is currently highlighted. Four pillars of special relations are identified by contemporary American experts: the elites' shared belief in the shared destiny of the English-speaking peoples, their willingness to fight alongside one another.

The Great Britain consents to give American objectives top priority due to its reliance on US technical capabilities in the field of SIGINT. Brexit shouldn't have an impact on the intelligence relationship between the Great Britain and the United States. It might, however, erode British intelligence ties with its counterintelligence partners in Europe. One of the most successful domestic intelligence organizations in the world is MI5. Even though MI5 is an essential US ally, a significant portion of its worth to the US comes from the intelligence it obtains from important EU allies regarding potential terrorist plots. British access to shared European intelligence may make this feasible. Therefore, maintaining and, if feasible, improving MI5's intelligence sharing protocols with EU members must be the top priority in Britain's Brexit negotiations with the EU. Strong ties between the Great Britain and EU intelligence would be advantageous for both the Great Britain and, to a greater extent, EU member.

Brexit, for its part, will drastically diminish Britain's power in the EU. In the past, British priorities in the EU have largely mirrored those of the United States. In comparison to what would have happened otherwise, British influence has kept the EU less closed off, less regulated, more receptive to free trade, and more inclined to back the US in enforcing economic sanctions against Russia. Future US administrations will be deprived of British influence in Brussels as a result of Brexit [4]. The Great Britain's standing in NATO is directly impacted by its bilateral relationship with the United States. NATO continues to be an institutional manifestation of the transatlantic relationship even after the Great Britain left the European Union.

The alliance guarantees the advancement of the national interests of the United States and the Great Britain, including the United States' presence in Europe, its ability to project military might outside of the North Atlantic region, and its military personnel.

According to the Great Britain Chancellor of the Exchequer's Spending Review (2020), which was presented to Parliament on November 25, 2020, defense becomes a key component of the government's goals to protect the Great Britain's interests and values and increase its influence internationally. Thus, an additional £24 billion is allocated to defense. According to this settlement, the defense budget will increase by 1.8% annually on average between 2019–20 and 2024–2025. As a result, the Great Britain is now the largest European defense spender in NATO and the second largest in the Alliance, demonstrating the Great Britain's dedication to its allies. In the meantime, the Great Britain Intelligence Community will receive an additional £173 million in funding in 2021-2022 as a result of the Spending Review 2020. This represents an average annual real-terms increase of 5.4% since 2019-20. Additionally, it includes capital investments totaling more than £1.3billion from 2021-2022 to 2024-2025. According to British parliamentary reports, the alliance with the US is doing well.

The question of how the dynamics of bilateral relations will be impacted by the election of the new US government leadership is still pertinent today. Because the new US president is an Irishman, Biden made it clear that his red line of special relationship with Britain passes through the island of Ireland. According to him, London's adherence to the 1998 Good Friday Agreement, which put an end to decades of conflict in Northern Ireland, would be a prerequisite for any future trade agreement between the United States and Britain. The division between the Republic of Ireland, a member of the European Union, and Northern Ireland, a part of the Great Britain, was eliminated by the US-brokered agreement. However, the Irish border has emerged as a significant obstacle in the Brexit talks. Fears of a return to the hard border and new hostilities have arisen since Johnson's government recently withdrew from an agreement with the EU to respect the treaty and the open border.

Biden brought up the matter of advantages from keeping them. Even though it is still the only superpower, the US needs allies who can fill certain military “niches” [5]. The two nations' armed forces complement each other very well. In order to project American military might throughout the world, the United States maintains bases in the Great Britain and the British Overseas Territories. Additionally, the Great Britain offers diplomatic support for US initiatives abroad, giving US actions credibility in the eyes of the public, which is influenced by both nations' diplomats and media. Similar to the US, the Great Britain supports NATO's dominance in the European security framework in an effort to prevent rivalry between the alliance and the EU. Because the Great Britain is a member of the UN Security Council and other international organizations, nations can work together on a variety of issues, including the non-proliferation of weapons of mass destruction.

The United States may benefit from the Great Britain's continued influence in the Commonwealth and former colonies. In order to influence American public opinion on foreign policy matters and persuade Americans that they are not acting independently, British assistance is required. Other US allies lack the intelligence resources and experience that the Great Britain possesses [6]. Finally, but just as importantly, the Great Britain has global interests rather than just regional ones. As a result, it is able to independently analyze security and foreign policy matters, which is also of interest to the US. According to experts, for instance, the Great Britain could assist the US in attempting to “integrate” China into the international system based on the rule of law Conclusions, which would require it to follow its own set of rules. First and foremost, the Great Britain gains from keeping a unique relationship with the United States because collaboration with the US is still a successful PR strategy.

Third, the Great Britain's status as a nuclear power depends on cooperation with the US; the US provides the Great Britain with a substantial amount of electronic intelligence data. Simultaneously, the Great Britain's global ambition and opportunity have been maintained through the use of the “special relationship”.

The British government was able to save budgetary funds for defense by mainly relying on the strength of the US military, mutually beneficial scientific and technical cooperation, and the political clout of its foreign ally [6]. In the end, this turned out to be one of the elements that allowed the nation to succeed economically, become a global leader in terms of living standards, advance science

and technology, and employ "soft power". The establishment was made possible by British economic policy, which also made the nation more appealing to American investment.

***Conclution.*** The significance of a unique Great Britain-US relationship is widely acknowledged in both academic and official circles of the two nations. The strong institutional framework that has been established since the end of the Cold War, which reduces the harm caused by individual disputes and offers a chance to openly discuss divergent viewpoints, is largely responsible for this alliance's continued resilience [7; 8]. The British establishment is certain that in order to preserve the nation's standing as one of the world's leading powers, it is necessary to improve military capabilities and complementarity with the US military.

At the same time, as Brexit negotiations take place, more focus is being placed on the Great Britain's leadership among other European NATO members. This is because, under the new circumstances, the alliance becomes not only the cornerstone of the Great Britain's defense but also the most crucial mechanism for preserving transatlantic relations. All this allows us to conclude that in the near future, special relations.

LITERATURE

1. Defence Expenditure of NATO Countries (2013 2020). - https://www.nato.int/cps/en/natohq/news_ 178975.htm [30.12.2025].
2. Donaldson A. (2018). A special relationship? Exploring the future of Great Britain–US cultural ties. British Council. - https://www.britishcouncil.org/sites/ default/files/j062_thought_leadership_a_sp ecial_relationship.pdf [30.12.2025].
3. Dumbrell J. (2012). David Cameron, Barack Obama and the US-Great Britain 'Special Relationship'. The London School of Economics and Political Science. - http://blogs.lse.ac.Great Britain/politicsandpolicy/spec ial-relationship-dumbrell/ [30.12.2025].
4. Edelman E. (2010). A special relationship in jeopardy. The American Interest. 1 July 2010. - http://www.the-americaninterest.com/2010 /07/01/a-special-relationship-in-jeopardy [30.12.2025].
5. Élie, J. (2005). Many Times Doomed But Still Alive: An Attempt to Understand the Continuity of the Special Relationship. Journal of Transatlantic Studies, 3, 63-83.
6. Fallon M. (2017). Defense Secretary steps up Great Britain commitments to NATO. GOV.GREAT BRITAIN. 29 June 2017. - from: https://www.gov.Great Britain/government/news/defence-secretary-steps-up-Great Britain-commitments to-nato [30.12.2025].
7. Foerster S., Raymond R. (2017). The US-Great Britain "Special Relationship" at a Critical Crossroads. Atlantic Council. - http://www.jstor.org/stable/resrep03496 [30.12.2025].
8. Indispensable allies: US, NATO and Great Britain Defense relations. (2018). Eighth Report of Session 2017–19 by The Defense Committee is appointed by the House of Commons. - https://publications.parliament.Great Britain/pa/cm20 1719/cmselect/cmdfence/387/387.pdf [30.12.2025].

**AFAQ BİNATOVA**
*Bakı Dövlət Universitetinin*
*Regionşünaslıq (Amerika üzrə) ixtisası üzrə II kurs magistrantı*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI İLƏ BÖYÜK BRİTANİYA ARASINDA XÜSUSİ MÜNASİBƏTLƏR: MÖVCUD VƏZİYYƏT VƏ GƏLƏCƏK PERSPEKTİVLƏR

Məqalə ABŞ və Böyük Britaniyada baş verən müasir siyasi və iqtisadi dəyişikliklər zəminində iki ölkə arasındakı münasibətlərin mövcud vəziyyətini və gələcək perspektivlərini təhlil edir. ABŞ-da yeni siyasi rəhbərliyin formalaşması və Böyük Britaniyanın Avropa İttifaqından çıxması şəraitində tədqiqatın əsas diqqət mərkəzində ABŞ-Böyük Britaniya hərbi-siyasi əməkdaşlığı dayanır. Araşdır-

ma göstərir ki, hər iki ölkənin siyasi elitaları "xüsusi münasibətlərin" strateji əhəmiyyətini qorumaqda maraqlıdır. Ayrı-ayrı amerikalı siyasətçilər arasında mövcud olan şübhələrə və Böyük Britaniyanın qlobal gücünün azalması ilə bağlı mülahizələrə baxmayaraq, ABŞ beynəlxalq miqyasda təsir imkanlarını təmin etmək üçün Britaniyanın hərbi və kəşfiyyat potensialına mühüm əhəmiyyət verir. Eyni zamanda, Böyük Britaniya siyasi isteblişmenti qlobal güc statusunun saxlanılması məqsədilə hərbi imkanların qorunmasını və ABŞ ordusu ilə strateji uyğunluğun davam etdirilməsini zəruri hesab edir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, oxşar dəyərlərə, maraqlara və sivilizasion yaxınlığa əsaslanan ABŞ-Böyük Britaniya münasibətlərinin zəifləməsi ilə bağlı ciddi göstəricilər mövcud deyil. Bu münasibətlər hər iki ölkənin iqtisadi rifahının təmin olunmasında, qlobal təsir imkanlarının saxlanılmasında və qeyri-müəyyən beynəlxalq mühitdə qaydalara əsaslanan beynəlxalq nizamın qorunmasında mühüm rol oynayır.

*Açar sözlər:* Böyük Britaniya, Amerika Birləşmiş Ştatları, qlobal təsir, NATO.

*Daxil olma tarixi*: 30.12.2025-ci il.
*Çapa imzalanma tarixi*: 30.01.2026-cı il.

**UOT 94(479.24); UOT 371.39; UOT 327**

**ARZU TAHİRZADƏ**
*Bakı Dövlət Universitetinin ll kurs magistrantı*
**tahirzadarzu@gmail.com**

# 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ MÖVZUSUNUN TƏDRİSİNDƏ XARİCİ KİV MATERİALLARINDAN İSTİFADƏNİN YOLLARI

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Naqif Həmzəyev

*Məqalədə tarix dərslərində 44 günlük Vətən müharibəsi mövzusunun tədrisində xarici kütləvi informasiya vasitələrinin materiallarından istifadə yolları araşdırılır. Tədqiqatda göstərilir ki, beynəlxalq media mənbələrinin dərs prosesinə cəlb edilməsi tələbələrdə tənqidi düşünmə, media savadlılığı və analitik bacarıqların formalaşmasına kömək edir, eyni zamanda Azərbaycanın müasir tarixinin qlobal baxımdan dərk edilməsini təmin edir. Məqalədə xəbərlər, analitik məqalələr və multimedia resurslarının tədris prosesinə inteqrasiyası formaları təhlil olunur. Həmçinin yerli və xarici media mənbələrinin müqayisəli təhlilinin şagirdlərdə obyektiv tarixi biliklərin formalaşmasındakı rolu vurğulanır.*

*Açar sözlər:* 44 günlük Vətən müharibəsi, xarici KİV materialları, tarix dərsləri, pedaqoji üsullar, media savadlılığı, informasiya.



**Giriş.** Müasir dövrdə tarixin tədrisinin məqsədi təkcə hadisə və faktların öyrədilməsi deyil, həm də şagirdlərdə analitik düşünmə, informasiya seçmə və dəyərləndirmə bacarıqlarının formalaşdırılmasıdır. Xüsusilə 44 günlük Vətən müharibəsi kimi milli əhəmiyyətli hadisələrin tədrisində müəllimlərdən yeni pedaqoji və metodik yanaşmalar tələb olunur. Azərbaycan tarixi fənninin tədrisində müasir pedaqoji yanaşmalar, əsasən, 44 günlük Vətən müharibəsi kimi milli önəm daşıyan hadisənin öyrədilməsi, yeni metod və vasitələrdən səmərəli istifadəni tələb edir. 44 günlük Vətən müharibəsi xalqımızın

milli birliyini, ordu quruculuğundakı gücünü və dövlətimizin 30 ilə yaxın davam edən işğala son qoymaq əzmini nümayiş etdirdi. 2020-ci ilin payızında Azərbaycan Ordusunun həyata keçirdiyi Vətən müharibəsi nəticəsində ölkəmizin ərazi bütövlüyü bərpa olundu və bu, xalqın milli həmrəyliyinin, dövlətin siyasi iradəsinin və ordunun gücünün təntənəsinə çevrildi. Prezident İlham Əliyev qeyd edir ki, bu Qələbə Azərbaycan xalqının tarixi ədaləti bərpa etməklə həm də milli kimliyini möhkəmləndirdi [3].

Azərbaycan xalqının əzmini və sevgisini, dövlətimizin gücünü dünyaya bir daha sübut edən bu hadisə təkcə Azərbaycan ictimaiyyətinin deyil, eynilə dünya KİV-lərinin diqqət mərkəzində olmuşdur. Xarici mediada müharibə ilə bağlı yayımlanan xəbərlər, reportajlar və təhlillər həm obyektiv, həm də qərəzli mövqelərlə seçilirdi. Müharibə zamanı və sonrasında dünyanın aparıcı informasiya agentlikləri - BBC, CNN, Al Jazeera, Reuters və digər beynəlxalq KİV-lər Cənubi Qafqazda baş verən hadisələri geniş işıqlandırmışdır. Lakin bu mənbələrdə təqdim olunan məlumatlarda obyektivlik və qərəz meylləri müşahidə olunmuşdur [2]. Bu səbəbdən xarici mediada dərc olunan materialların tədris prosesində istifadə olunması, şagirdlərə tənqidi media savadlılığı qazandırmaq və müxtəlif baxış bucaqlarını analiz etdirmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası Təhsil Nazirliyinin kurikulum sənədlərində də qeyd olunur ki, tarix fənninin tədrisi şagirdlərin qlobal hadisələrə fərqli baxış bucağından yanaşmaq və media materiallarını dəyərləndirmək bacarığını inkişaf etdirməlidir [1].

Beləliklə, 44 günlük Vətən müharibəsi mövzusunun tədris olunmasında xarici KİV materiallarından istifadə etmək milli kimlik və vətənpərvərlik dəyərlərinin təbliği, müasir informasiya cəmiyyətinin tələblərinə uyğun şəkildə şagird bilik və bacarıqlarının formalaşması baxımından mühüm pedaqoji əhəmiyyətə malikdir

*Məqalənin məqsədi* – tarix dərslərində 44 günlük Vətən müharibəsi mövzusunun tədrisində xarici KİV materiallarından səmərəli istifadə yollarını müəyyənləşdirməkdir.

***Əsas hissə.*** 44 günlük Vətən müharibəsi 2020-ci il 27 sentyabrda başlamış və 10 noyabrda Azərbaycan Ordusunun qələbəsi ilə başa çatmışdır. Bu döyüşlər nəticəsində Azərbaycanın ərazi bütövlüyü bərpa olunmuş, xalqın milli həmrəyliyi güclənmişdir. Baş verən hadisələrin məktəb dərslərində tədrisi, şagirdlərdə vətənpərvərlik hisslərinin formalaşdırılmasında xüsusi əhəmiyyət daşıyır. Həmçinin fənni tədris edənlərin və təhsilalanların müharibənin canlı şahidi olmaları bunu daha zəruri edir. Tarix fənninin təlim standartlarında da bu mövzuya aid bacarıqlar göstərilmişdir. Vətən müharibəsi dövründə dünyanın əsas media orqanları hadisələri müxtəlif bucaqlardan işıqlandırmışlar. Bu materiallar tədris üçün iki cəhətdən faydalıdır:

1.Şagirdlərə beynəlxalq informasiya məkanında məlumat qərəzini tanıma imkanı verir;

2.Tənqidi analiz və media savadlılığı bacarığını formalaşdırır.

Məsələn, **BBC News** (2020) müharibə ilə bağlı xəbərlərdə bəzən neytral ton saxlamış, lakin bəzi hallarda Ermənistanın mövqeyini daha çox əks etdirmişdir. **Al Jazeera** isə daha balanslı mövqedən çıxış edərək, Azərbaycan tərəfinin azad etdiyi torpaqlarda aparılan bərpa işlərindən də bəhs etmişdir. Bu materialların dərslərdə təqdim olunması şagirdlərə eşitdikləri, gördükləri hadisələri müxtəlif mənbələrdən müqayisəli şəkildə dəyərləndirməyi öyrədir.

Ermənistan-Azərbaycan Qarabağ münaqişəsi başladığı ilk günlərdən dünya mediası bu məsələyə, demək olar ki, birtərəfli münasibət göstərib. 30 il müddətində ciddi-cəhdlə Ermənistanın təcavüzü, bir milyondan artıq soydaşımızın doğma torpaqlarından didərgin düşməsi, işğal altındakı tarixi və mədəni abidələrimizin talan edilməsi, dağıdılması barədə dünya ictimaiyyətinə çağırış etsək də, əhəmiyyətli bir nəticə verməyib, düşmənin yalan və iftiralarına daha çox diqqət göstərib. 44 günlük Vətən müharibəsi dövründə də dünya mediası müharibəyə münasibətdə öz ənənəvi mövqeyini, demək olar ki, dəyişmədi [4, s.49]. Müharibə dövründə Türkiyə bütün sahələrdə olduğu kimi mətbuat və media sahəsində də Azərbaycanın haqlı mövqeyini dəstəkləmişdir. Qardaş ölkənin jurnalistləri Azərbaycan mediasının çatdırıb yaza bilmədiklərini sürətli şəkildə yayırdılar. Müharibənin gedişi, düşmən təxribatları, raket atəşləri daim Türkiyə mediasının diqqət mərkəzində olmuşdur. Növbəti dost ölkə olan Pakistan da xalqımızın ədalətli mübarizəsini mütəmadi olaraq dəstəklədi. Pakistan ordusunun baş qərargah rəisi Nadeem Razanın "Pakistan Azərbaycanın Qarabağ mövzusundakı mövqeyini tam dəstəkləyir. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının yekdilliklə qəbul edilmiş qərarları buna

əsas verir" bəyanatı ilk günlərdən medianın da istiqamətini müəyyənləşdirdi. Daha sonra Pakistan mətbuatı müharibənin gedişində Baş nazir İmran Xanın oktyabrın 18-də Azərbaycanın Müstəqillik Gününü təbrik etməsini və Azərbaycanın haqlı müharibəsində yanında olduğunu bəyan etməsini əsas mövzu kimi təqdim etdi [4, s.57].

Tədqiqat müəllifləri Rusiya KİV-lərinin "Qarabağdakı münaqişə tərəflərinə qarşı balanslı bərabər bərabər yanaşma nümayiş etdirdiyini" yazırlar. Rusiyada nəşrlərin əksəriyyəti (91%) bitərəfdir. Rusiya Federasiyası və Fransa ilə birlikdə ATƏT-in Minsk Qrupunun həmsədri olan ABŞ mediasında isə, Qarabağdakı münaqişə prioritet deyil, orada seçkilər, pandemiya, Sudan və İsrail ətrafındakı vəziyyətin mətbuatda işıqlandırılması əsasdır. Eyni zamanda, Amerika mediasında tez-tez Ermənistan üçün müsbət yazılara rast gəlmək olar, halbuki Azərbaycan üçün müsbət olanlar demək olar ki, yoxdur. Münaqişə ilə bağlı mesajların əksəriyyəti bitərəfdir. Fransız mediası ermənipərəst mövqe tutur. Təhlil olunan media hesabatlarının 42%-də Azərbaycanın hərəkətləri ilə əlaqədar tənqid və mənfilik var, nəşrlərin 58%-i bitərəf kimi təsnif edilə bilər. Fransa mediasında praktik olaraq Ermənistana qarşı bir tənqid yoxdur.

Nəticə olaraq Azərbaycan informasiya müharibəsində də qələbə qazandı. Erməni diaspor təşkilatlarının, ermənipərəst qüvvələrin saxta həmlələrinə baxmayaraq, xarici təzyiqlər qarşısında tab gətirib informasiya savaşında qalib gəldik. Bu parlaq qələbəni Azərbaycana Müzəffər Ali Baş Komandan, Müzəffər Azərbaycan Ordusu, Müzəffər Azərbaycan xalqının yenilməz birliyi yaşatdı. İndi bütün dünya çox gözəl bilir ki, Qarabağ Azərbaycandır! [4, s.79].

**Xarici KİV-lərin müharibə ilə bağlı materialları dərslərdə istifadə olunduqda:**

- Şagirdlər qlobal baxış qazanır, müxtəlif informasiya mənbələrinin yanaşma fərqini dərk edirlər;
- Tənqidi düşünmə bacarığı inkişaf edir - yəni hər məlumatı analiz etmə və mənbə etibarlılığını müəyyənləşdirmə bacarığı;
- Media savadlılığı artır - şagirdlər informasiyanın necə manipulyasiya oluna biləcəyini öyrənirlər;
- Eyni zamanda vətənpərvərlik və milli qürur hissi güclənir, çünki onlar Azərbaycanın haqq mübarizəsinin beynəlxalq səviyyədə tanıdılmasının zəruriliyini anlayırlar.

KİV materialları dərsdə müxtəlif formalarda tətbiq oluna bilər. Müasir dövrdə təlim prosesində informasiya texnologiyalarının və kütləvi informasiya vasitələrinin tətbiqi zərurətə çevrilmişdir. Bu xüsusilə tarix fənninin tədrisində özünü daha qabarıq göstərir. Çünki tarix yalnız faktların deyil, həm də hadisələrin müxtəlif mənbələrdən təhlili və ictimai şüurda təqdimatı üzərində qurulmuş bir fəndir. Xarici KİV materiallarından istifadə müəllimə hadisələri qlobal informasiya mühitində təqdim etmək imkanı yaradır.

44 günlük Vətən müharibəsi mövzusunun tədrisində xarici mediada yer alan xəbərlərdən, videolardan və analitik məqalələrdən istifadə həm məzmunun aktuallığını artırır, həm də şagirdlərdə müasir informasiya savadlılığını formalaşdırır. Bu yolla şagirdlər hadisələrə birtərəfli deyil, müxtəlif baxış bucaqlarından yanaşmağı öyrənirlər [5].

Müəllim eyni hadisə barədə iki müxtəlif media qurumunun (məsələn, BBC və AzTV) təqdimatını müqayisə etdirdikdə, şagirdlər fakt və fikir arasında fərq qoymağı, informasiyanı analiz etməyi öyrənirlər. Bu, tarix fənninin əsas məqsədlərindən biri olan analitik təfəkkürün formalaşmasına xidmət edir [6]. Müəllim üçün əsas məqsəd KİV materiallarını sadəcə informasiya mənbəyi kimi deyil, təlimin aktiv komponenti kimi təqdim etməkdir. Bu zaman şagird hadisəni öyrənmir, onu “yenidən kəşf edir”. Məsələn, “Qarabağda bərpa işləri” mövzusunda BBC-nin və AzərTac-ın videoreportajlarını qarşılaşdırmaqla, şagirdlər faktları müqayisə edir, nəticə çıxarır, fərqli narrativləri müəyyənləşdirir. Belə dərs nümunələri həm pedaqoji innovasiyanın tətbiqinə, həm də vətənpərvərlik tərbiyəsinin daha təsirli həyata keçirilməsinə xidmət edir. Nəticədə şagirdlərdə həm tarixi hadisələri dərk etmə, həm də qlobal informasiya axınında doğru mövqe tutma bacarığı formalaşır.

***Tədrisdə xarici KİV materiallarından istifadə formaları.*** Xarici KİV materiallarının tədrisdə istifadəsi müasir pedaqoji prosesin innovativ istiqamətlərindən biridir. Bu yanaşma, xüsusilə, 44 günlük Vətən müharibəsi kimi böyük əhəmiyyətə malik mövzunun beynəlxalq mediada işıqlandırılması-

nın yollarını şagirdlərə obyektiv təqdim etmək baxımından müstəsna əhəmiyyətə malikdir. Tarix fənninin tədrisində xarici KİV-lərdən istifadə müxtəlif formalarda həyata keçirilə bilər.Bu formalar həm təlimin məqsədinə, həm də şagirdlərin yaş səviyyəsinə uyğun olaraq seçilməlidir. Əsas istifadə formaları aşağıdakılardır:

1. Mətn analizi forması.

Müəllim dərs zamanı "The Guardian", "BBC", "Al Jazeera" kimi beynəlxalq media qurumlarının 44 günlük müharibə ilə bağlı məqalələrindən parçalar təqdim edir. Şagirdlər bu mətnlər üzərində işləyərək hadisənin təqdimat tərzini, terminologiyanı və yanaşma fərqlərini müəyyən edirlər [5].

2. Video və reportaj analizi forması.

Xarici televiziya kanallarının və YouTube kimi platformaların yayımladığı reportaj və sənədli filmlər tədrisdə geniş istifadə oluna bilər. Bu, həm vizual yaddaşı gücləndirir, həm də hadisələrin emosional dərkini təmin edir [7].

3. Diskussiya və debat forması.

Müəllim iki fərqli KİV mənbəsindən (məsələn, "CNN" və "Russia Today") eyni hadisə ilə bağlı məlumat təqdim edir. Şagirdlər bu məlumatları müqayisə edərək, informasiyanın obyektivlik səviyyəsini müzakirə edirlər. Bu metod həm tənqidi düşünməni, həm də arqumentlə ifadə bacarığını inkişaf etdirir [3].

4. Layihə işi və təqdimat forması.

Şagirdlərə xarici mediada Vətən müharibəsi ilə bağlı verilən xəbərləri araşdırmaq, mənbələri təhlil etmək və nəticələri təqdim etmək tapşırılır.Belə fəaliyyətlər müstəqil tədqiqat bacarığını formalaşdırır və informasiya texnologiyalarından düzgün istifadə vərdişləri yaradır [6].

Beləliklə, xarici KİV materiallarından istifadənin bu formaları tədris prosesini yalnız bilik ötürmə mərhələsi deyil, həm də dəyərlərin, analitik düşünmənin və qlobal vətəndaşlıq şüurunun formalaşması üçün mühüm vasitəyə çevirir.

Əsas məqsəd şagirdlərdə hadisələrə tənqidi, obyektiv və milli mövqedən baxmaq bacarığını formalaşdırmaqdır.

44 günlük Vətən müharibəsi mövzusunun tədrisində xarici KİV materiallarından istifadə yalnız məlumat ötürmə vasitəsi deyil, həm də tənqidi düşünmə və vətənpərvərlik dəyərlərinin formalaşdırılması üçün mühüm pedaqoji alətdir. Müəllimlərin bu istiqamətdə fəaliyyətini səmərəli qurması üçün aşağıdakı **metodik tövsiyələr** nəzərdən keçirilə bilər;

Mənbələrin məqsədyönlü seçimi- Tədrisdə istifadə ediləcək xarici KİV materialları (xəbərlər, reportajlar, məqalələr) əvvəlcədən təhlil edilməli və onların elmi-etik etibarlılığı müəyyən olunmalıdır. Müəllim informasiyanın mənbəyini, müəllifini və məqsədini şagirdlərlə birlikdə müzakirə etməlidir. UNESCO-nun "Media və İnformasiya Savadlılığı Qlobal Çərçivə" sənədində vurğulanır ki, müəllimlər media resurslarını yalnız informativ deyil, təhlil və tənqid obyektinə çevirməyi bacarmalıdırlar.

Müqayisəli tədris metodunun tətbiqi - Eyni hadisənin (məsələn, Şuşanın azad olunması) xarici və yerli mediada necə təqdim olunduğunu müqayisə etmək, şagirdlərdə informasiyanın dəyərləndirilməsi bacarığını formalaşdırır. Bu üsul həm tənqidi düşünməni, həm də informasiya etikasını inkişaf etdirir [8].

Fəal təlim və layihə metodundan istifadə- Şagirdlərə "Xarici mediada Vətən müharibəsinin təqdimatı" mövzusunda qrup layihəsi tapşırmaq onların həm müstəqil tədqiqat, həm də yaradıcı təqdimetmə bacarıqlarını artırır. L.Məhərrəmova qeyd edir ki, media əsaslı layihələr şagirdin öyrənmə motivasiyasını gücləndirən ən təsirli vasitələrdəndir.

Beləliklə, tədrisdə xarici KİV materiallarından istifadə yalnız informasiya əldə etmə vasitəsi kimi deyil, həm də milli-mənəvi dəyərlərin, analitik düşünmənin və qlobal informasiya mədəniyyətinin formalaşdırılması aləti kimi dəyərləndirilməlidir. Müəllimlər üçün əsas məqsəd bu materiallardan yaradıcı və məqsədyönlü şəkildə istifadə etməklə şagirdləri müstəqil düşünən, vətənpərvər və mediada yön tapa bilən vətəndaşlar kimi formalaşdırmaqdır.

***Nəticə.*** 44 günlük Vətən müharibəsi mövzusunun tədrisində xarici KİV materiallarından məqsədyönlü istifadə təlimin həm məzmun, həm metod, həm də ideoloji səviyyəsini yüksəldir. Müasir pedaqoji proses artıq yalnız bilik ötürmək deyil, düşünən, araşdıran və milli kimliyini dərk edən gənclər yetişdirmək missiyasını daşıyır. Xarici mediada yer alan müxtəlif baxış bucaqlarının dərs prosesinə daxil edilməsi, şagirdlərdə hadisələrə tənqidi yanaşma, informasiya mənbələrini müqayisə etmə və nəticə çıxarma bacarıqlarını formalaşdırır. Bu istiqamətdə aparılan tədris fəaliyyəti həm də şagirdlərdə vətənpərvərlik hisslərinin, tarixi yaddaşın və milli qürurun möhkəmlənməsinə mühüm töhfə verir. Xarici KİV-lərdə Azərbaycanın haqq mübarizəsinin necə əks olunduğunu öyrənən şagird, təkcə faktları deyil, həm də informasiya mübarizəsinin mahiyyətini dərk edir. Beləliklə, xarici KİV materiallarından istifadə tarix dərsini passiv informasiya ötürən deyil, fikir yaradan, təhlil aparan və milli dəyərləri qlobal kontekstdə qoruyan bir təlim modelinə çevirir. Bu yanaşma həm XXI əsrin təhsil standartlarına, həm də milli-mənəvi tərbiyənin prioritetlərinə tam uyğun gəlir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2020). Ümumi təhsil müəssisələri üçün tarix fənni üzrə kurikulum. Bakı.
2. BBC News. (2020). Nagorno-Karabakh conflict: Timeline of the 2020 war. - https://www.bbc.com/ [18.11.2025].
3. Əliyev, İ. (2021). Qarabağ Zəfəri – Milli Qürurumuzun Təntənəsi. Bakı.
4. Vətən müharibəsi yerli və xarici mediada -Bakı, BDU, 2021, 86 s.
5. UNESCO. (2022). Teaching with Media: Developing Critical Media Literacy in Schools. Paris.
6. Mahmudov, M. (2023). Vətən müharibəsi mövzularının tədrisinin pedaqoji aspektləri. Bakı.
7. Quliyev, A. (2022). Media savadlılığı və tarix tədrisi. Bakı.
8. Potter, W. J. (2021). Media Literacy. 10th ed. Los Angeles: SAGE Publications.

**ARZU TAHIRZADE**
*2nd-year Master's Student, Baku State University*

## WAYS OF USING FOREIGN MASS MEDIA MATERIALS IN TEACHING THE TOPIC OF THE 44-DAY PATRIOTIC WAR

This article explores the pedagogical importance of using foreign mass media materials in teaching the topic of the 44-day Patriotic War within history lessons. The study emphasizes how international media sources can help students develop critical thinking, media literacy, and analytical skills while fostering a deeper understanding of global perspectives on Azerbaijan's recent history. Various methods of integrating news reports, analytical articles, and multimedia resources into the teaching process are discussed. The paper also highlights the significance of comparative analysis between local and foreign media narratives in forming objective historical knowledge among students.

*Keywords:* 44-day Patriotic War, foreign mass media materials, history lessons, pedagogical methods, media literacy, information.

*Daxil olma tarixi*: 18.11.2025-ci il.
*Çapa imzalanma tarixi*: 30.01.2026-cı il.

*Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları*
*Studies of the Turkic World Young Researchers Association*
*№1(13) 2026, 23-28*

**UOT 371.3**

**AYİŞƏ ASLANOVA**
*Bakı Dövlət Universitetinin II kurs magistrantı*
**ayseaslanova712@gmail.com**

# TARİXİ BİLİKLƏRİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ ƏYANİ VƏ TEXNİKİ VASİTƏLƏRDƏN İSTİFADƏNİN İMKANLARI: AUDİOVİZUAL VASİTƏLƏR

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Nurlan Abbasov

*Məqalədə tarixin tədrisində istifadə olunan əyani və texniki vasitələrdən, xüsusən audiovizual vasitələrdən istifadənin imkanlarından bəhs olunur. Böyük tədqiqatçılar hesab olunan Mübariz Əmirov, David Alexandre Wagner, Abdul Aziz Mohamad, Abdul Razak Ahmad, Amin Qorinin audiovizual vasitələr haqqında apardığı tədqiqatlardan söz açılır. Audiovizual vasitlərdən istifadə edərək şagirdlərin tarixi hadisə və proseslərlə işləyərkən onlarda formalaşan mühüm keyfiyyətlərdən, həmçinin müəllimlərin qarşılaşdıqları üç əsas problemdən bəhs olunur. Məqalədə müxtəlif audiovizual vasitələrdən dərs prosesində necə istifadə olunmasından söz açılır. Vizual vasitələrin eşitmə əngəlli şagirdlərin təhsilində tutduğu əsas roldan bəhs edilir. Müəllimlərin tarix dərslərini tədrisi zamanı həmin prosesin daha da asanlaşmasını təmin etməsi məsələlərinədə məqalədə toxunulur. Əsas vizual vasitələrdən biri olan filmlərin tarix dərslərində nümayişi zamanı tədris prosesinin asanlaşmasında tutduğu yer də vurğulanır.*

*Açar sözlər:* Audivizual resurslar, əyani vasitələr, texniki vasitələr, sənədli və bədii filmlər, vizual öyrənmə üsulları.

***Giriş***. Müasir dövrdə təhsil prosesinin səmərəliliyinin artırılması müəllimdən yalnız məlumat verməyi deyil, həm də fənnin məzmununu şagird üçün daha aydın, real və yadda qalan formada təqdim etməyi tələb edir. Bu baxımdan audiovizual vasitələr - yəni eşitmə və görmə imkanlarını eyni anda aktivləşdirən texniki və əyani resurslar - təlim prosesində əvəzsiz didaktik funksiya daşıyır. Audiovizual materialların dərsdə tətbiqi şagirdlərin məzmunu daha dərindən qavramasına, tarixi faktları ardıcıllıqla təsəvvür etməsinə, həmçinin təlim motivasiyasının yüksəldilməsinə şərait yaradır.

Texnologiyaların sürətlə inkişaf etdiyi XXI əsrdə audiovizual vasitələr təkcə ənənəvi filmlər, diaqramlar və diaproyektor materialları ilə məhdudlaşmır; interaktiv lövhələr, rəqəmsal xəritələr, animasiyalar, virtual - turlar, muzeylər, kitabxanalara sənədli videolar və multimedia təqdimatları da bu kateqoriyaya daxil edilərək tədrisin keyfiyyətinə yeni imkanlar qazandırır. Xüsusilə tarix dərslərində bu vasitələr hadisələrin məkan-zaman əlaqəsini daha aydın göstərməyə, abstrakt məlumatları vizuallaşdırmağa və şagirdlərin tənqidi idrakını gücləndirməyə xidmət edir.

Bu məqalədə audiovizual vasitələrin mahiyyəti, təlim prosesində rolu, onların şagird nailiyyətlərinə təsiri və səmərəli tətbiq yolları təhlil ediləcək, həmçinin mövcud elmi araşdırmalar və təcrübələr əsasında nəticələr təqdim olunacaq. Tarix elminin tədrisi yalnız faktların və hadisələrin öyrənilməsi ilə kifayətlənmir; bu biliklərin dərindən mənimsənilməsi, yadda saxlanılması və həyatla əlaqələndirilməsi üçün müasir pedaqoji yanaşmalar tələb olunur.

***Audiovasitələrin şagirdlərin inkişafında rolu.*** Bu kontekstdə əyani və texniki vasitələrin, xüsusilə də audiovizual resursların istifadəsi təlimin keyfiyyətini artırmaqla yanaşı, şagirdlərin marağını və motivasiyasını da gücləndirir. Dəyişən təlim mühiti ilə ayaqlaşmaq üçün müəllimlər vizual və eşitmə imkanlarından geniş şəkildə faydalanır. Video materiallar, interaktiv təqdimatlar, sənədli filmlər və virtual simulyasiyalar tarixi faktları daha canlı və emosional şəkildə çatdırmağa imkan verir. Bu da öz

növbəsində tarixi biliklərin yalnız nəzəri deyil, həm də praktik olaraq mənimsənilməsini təmin edir. Audiovizual əsaslı öyrənmə mediası eşitmə və görmə hisslərindən istifadə edərək mesajların yayılması üçün bir vasitədir. Ümumiyyətlə, Edgar Dale-in təcrübə konusları nəzəriyyəsinə görə audiovizual media vizual media və ya audiodan daha yüksək effektivliyə malikdir.

İstifadə olunan bu vasitələr əsasında şagirdlər təlim prosesində tarixi prosesin ümümi tərəflərini obyektiv dərk edirlər. Şagirdlərdə tarixi təfəkkürün inkişafı onlarda tarixi hadisə və proseslərə obyektiv yanaşma, düzgün qiymət vermə, "tarixdən dərs çıxarma" kimi müsbət keyfiyyətlər formalaşdırır. Müəllimin danışığı, dərsliyin mətni, tarixi sənədlər, elmi-kütləvi və bədii-tarixi ədəbiyyat əsərləri şagirdlərin təkcə ən mühüm söz mənbəyi, həm də onların nitqini inkişaf etdirmək vasitələridir [6, s.148].

Əyani və texniki vasitələr şagirdlərə imkan verir ki, tarixi hadisələri, prosesləri və ayrı-ayrı faktları araşdırmağı, tarixi hadisə və prosesin əhəmiyyətli cəhətlərini müəyyən etməyə, tarixi hadisələri əlamətlərinə görə qruplaşdırmağa, tarixi anlayışların mənasını izah etməyə, əsas tarixi hadisələrə müqayisə edib oxşar və fərqli cəhətlərini müəyyən etsin [6, s.155].

Şagirdlərdə tarixi təsəvvürlərin yaradılması üsullarını aşağıdakı cədvəldə ümümiləşdirə bilərik: [6, s.188].




Audiovizual vasitələr tarix dərslərinin təqdim etdiyi ideyanın çatdırılmasında kömək etmək üçün əsas vasitələr hesab olunur. Lestage hesab edirdi ki, audio-vizual vəsaitlər bu üsullardan istifadə olunur (filmlər, lentlər, televizyalar).

**Audio-vizual vəsaitlərdən istifadənin əsas məqsədləri:**

- Tarixin mənalı tədris və təlim prosesində əyani vasitələr çox mühüm rol oynayır. Dərsin audio təsirindən istifadə etsək, tədris mühiti uzun ömürlü olar.
- Vizual vəsaitlər şagirdlərin diqqətini cəlb edir və onlar dərsdə daha həvəslə iştirak edirlər
- Şagirdlər əyani vəsaitlərdən istifadə edərək öz anlayışlarını aydınlaşdırır. Həm də mücərrəd anlayışlarını əyani vəsaitlərlə əlaqələndirirlər və daha yaxşı başa düşürlər.

Əksər məktəblərdə müəllimlərin peşəkar təlim keçməsinə və effektiv tədris üçün resurslardan istifadənin vacibliyini yaxşı dərk etmələrinə baxmayaraq, dərslərini tədris edərkən AV vasitələrdən istifadəyə ən az diqqət yetirdikləri müşahidə edilmişdir [2, s.1].

Dərslərin tədrisi zamanı müəllimlərin əksəriyyəti resurslardan istifadə etməmələrinin aşağıdakı səbəblərini qeyd ediblər:

- Məhdud büdcə ayırma;
- Həddindən artıq iş yükü;
- Tələb olunan materialların olmaması;
- Bəzən müəllimlərin dərs zamanı resurs materiallarından istifadəsinə diqqətsiz münasibət.

***Əsas audiovasitələr və onların tətbiqi***. Vizual materiallar reallıqlar, modellər, fotoşəkillər, plakatlar, vərəqələr, xəritələr və qrafik təşkilatçılar kimi nümunə ola bilər . Bu materiallar eşitmə itkisi

olan və olmayan tələbələrə məlumat əldə etmək və müzakirələrdə iştirak etmək üçün ipucları verir və eyni zamanda onların problem həll etmə bacarıqlarına töhfə verir . Bu materialların eşitmə itkisi olan və olmayan tələbələrin idrak inkişafını və şifahi bacarıqlarını inkişaf etdirmək üçün uyğun olması vacibdir. Reallıqlar və fotoşəkillər/şəkillər mövzu ilə birbaşa əlaqəli vizual resurslardır. Onlar tələbələrə obyektlər arasında əlaqələr qurmağa, anlayışlar haqqında tənqidi düşüncə bacarıqlarını inkişaf etdirməyə və keçmişi və indiki dövrü müqayisə etməklə sual vermək bacarıqları qazanmağa imkan verir . Digər tərəfdən, qrafik təşkilatçılar reallıqlar və fotoşəkillər/şəkillərdən istifadə etməklə əldə edilən məlumatları ümumiləşdirmək üçün istifadə olunur. Menyular, loqotiplər, siyahılar və konsepsiya xəritələri kimi qrafik təşkilatçılar şagirdlərə gündəlik həyata hazırlaşmağa və biliklərin yadda saxlanılmasını dəstəkləyərkən hadisələr arasındakı əlaqələri tez bir zamanda xatırlamağa kömək edir.

Audiovizual materiallar təhsil videolarını, sənədli filmləri və filmləri əhatə edir.

Bu materiallar əsasən real həyatda yaşanması çətin, təhlükəli və ya hətta mümkün olmayan hadisələri nümayiş etdirmək üçün istifadə olunur. Təhsil videoları real həyat hadisələrini nümunə göstərməklə şagirdlərin nəticə çıxarma bacarıqlarını asanlaşdırır. Sənədli filmlər hadisələri tarixi sənədlərlə əlaqələndirərək sübutlar təqdim edərkən, filmlər real təcrübələr qarşısında tamaşaçılarda emosional reaksiyalara səbəb olur və keçmişin uydurma nümayişini təklif edir. Təhsil mühitlərinə səyahətlər yerində müşahidələr və təcrübələr üçün vacib imkanlar təqdim edir. Bu səyahətlər bütün hiss orqanlarını, mövzunun real həyatda və hadisələrin yerində yaşanması ilə əlaqəsini stimullaşdırır.

Lakin, eşitmə itkisi olan şagirdlər üçün materialların istifadəsi vasitəsilə akademik məlumatlara çıxışı asanlaşdırmaq üçün aparılan tədqiqatlar məhdud görünür. Vizual və audiovizual materialların töhfəsi ilə bağlı beynəlxalq tədqiqatlar 30-40 il əvvəl başlamışdır. Bu tədqiqatlar əsasən çap olunmuş materiallara yönəlmiş və tapşırıq kartları və iş vərəqləri kimi strukturlaşdırılmış çap materialları şəklində oxu bacarıqları səviyyələrinə uyğun informativ mətnlərdən istifadə etmişdir. Nəticədə, bu mətnlərin mücərrəd anlayışların anlaşılmasını və yadda saxlanılmasını, eləcə də şagirdlərin lüğət çeşidinin genişlənməsini dəstəklədiyi məlum olmuşdur [5, s.1].

Vizual və audiovizual materiallar həmçinin anlayışların konkretləşdirilməsini, lüğətin inkişafını, davamlı biliklərin əldə edilməsini və yadda saxlanılmasını asanlaşdırır. Graham və b. göstərir ki, eşitmə qabiliyyətli şagirdlər üçün Sosial Tədqiqatlar dərslərində çoxkomponentli lüğətin tədrisində dərsliklərdən, eləcə də şəkillərdən, lövhədən, kompüterdən, videolardan və audiokasetlərdən istifadə lüğətin inkişafını dəstəkləyir. Eşitmə qabiliyyətli orta məktəb şagirdləri ilə aparılan başqa bir tədqiqatda Saripudin və digərləri vurğulayırlar ki, şagirdlərə təqdimatlar, cizgi filmləri, şəkillər, formalar, şəkillər, kuklalar və audiovizual resurslar kimi vizual və audiovizual mənbələr vasitəsilə yerli mühit və mədəniyyət haqqında anlayışlar təqdim etmək Sosial elmlər kurslarında öyrənməyə töhfə verir [5, s.8].

Tədqiq edilən anlayışlar eşitmə itkisi olan iştirakçı şagirdlərin lüğət çeşidinə daxil olmayan "istehlak, iqtisadi fəaliyyət, büdcə, radio dalğası, qanun layihəsi, texnologiya"nı əhatə etmişdir. Triarini və digərləri təsdiqləyirlər ki, iki və üçölçülü multimedia materialları, animasiyalar və reallıqlar eşitmə itkisi olan şagirdlərin lüğət çeşidinin inkişafına töhfə verir. Bu tədqiqatda lüğət ehtiyatını inkişaf etdirmək üçün kompüterlər, mobil telefonlar, saatlar, lampalar və süd qutuları reallıq kimi istifadə edilmişdir. Beləliklə, iştirakçı şagirdlər süd qutusu haqqında mövcud biliklərindən istifadə edərək müzakirəyə qoşula bildilər. Lakin şagirdlərin qutunun üstündəki istehlakçı məlumatlarını anlamaq üçün müəllimlərinin köməyinə ehtiyacları var idi. Triarini və digərlərinin tədqiqatından fərqli olaraq, bu tədqiqatda şagirdlərin sözlər arasındakı əlaqələri anlamalarına kömək etmək üçün qrafik təşkilatçılardan da istifadə edilmişdir [5, s.8].

Audiovizual vasitələrdən istifadənin effektiv tərəfləridə var ki, bunlar aşağıdakılardır: Onlar şagirdlərdə olan şifahiliyin əsas zəifliyini azaldır, mövzunu insaniləşdirir və canlandırır, yeni mövzulara maraqlı yanaşma təmin edir və ilkin düzgün təəssüratlar verir, öyrənmədə qənaətli vaxt keçirir, lazımi konkret materialları təmin edir, şagirdlərin təşəbbüsünü stimullaşdırır.

Vizual materialların öyrənmə prosesindəki roluna toxunsaq, anlayışların təxminən 40%-nin vizual təcrübəyə, 25%-nin eşitməyə, 17%-nin toxunmaya, 15%-nin müxtəlif üzvi hisslərə və 3%-nin dad qoxusuna əsaslandığını görə bilərik. Audiovizual materialların müəllimə mövzunu təqdim etməkdə

fiziki çətinliklərin öhdəsindən gəlməyə kömək etdiyini vurğulamışdır. Yəni, audiovizual materiallar ünsiyyət və məsafə maneəsi aradan qaldırmağa kömək edir. Digər ölkələrin mədəniyyəti və iqlim şəraiti slaydlar, filmlər, film lentləri və proyektorların köməyi ilə sinif otağına gətirilə bilər. Bu vasitələr həmçinin şagirdlərin ünsiyyət bacarıqlarının inkişaf etdirilməsində əvəzsiz mənbədir [4, s.45].

Bu audiovizual resurslar, məlumatın qavrayış təlimat materiallarından, xüsusən də ərazimizdən təqdim olunan materiallardan yaxşı istifadə etməklə əldə edilə biləcəyinə görə xidmət edir. Onlar sinifdə istifadə edildikdə, onların tanışlığı məlumatı anlamaq üçün zəmin yaradır. Həmçinin audiovizual materialların çox faydalı tədris və təlimat, eləcə də təşviqat vasitələridir. Əlavə olaraq vurğulamaq olar ki, təqdimatın ardıcıllığı arzuolunan olduqda, audiovizual materiallar faydalı nəticələr verir. Onlar başqa yollarla asanlıqla əldə edilə bilməyən təcrübələr təqdim edir və buna görə də öyrənmənin dərinliyinə və müxtəlifliyinə töhfə veriк [4, s.45].

Texniki və audiovizual vasitələrin məktəbdə tətbiqindən bəhs edən tədqiqatçılar onun müsbət tərəflərini vurğulayırlar. Bu sahədə yazılmış bir sıra tədqiqat əsərlərində texniki-audiovizual vasitələrdən istifadənin səmərəli yolları, üstünlükləri barədə, onların təhsil prosesində tətbiqinin imkanlarından bəhs olunur. Kompüter texnologiyalarından istifadə etmiş tələbələrin akademik nailiyyətləri 0.5bal yüksək olur. Multimedia vasitələrdən istifadə edərkən ənənəvi metodla müqayisədə tədris materialının təqdimat vaxtının 1.5-2 dəfə azaldıla biləcəyini müşahidə etmək mümkündür. Həmçinin dərsin bu formada təqdimi şagirdlərin bilik səviyyəsinin artırılmasında daha səmərəlidir [7, s.2].

Tədris prosesində aparılan müqayisəyə əsasən demək olarki, texniki və audiovizual tədris vasitələrinin köməyilə keçrilən dərs zamanı onlardan istifadə olunmadan keçrilən dərsdə əldə olunan bilik səviyyəsi ilə müqayisədə şagirdlərin bilik səviyyəsi artmışdır. Şagirdlərlə aparılan araşdırmalar göstərir ki, ənənəvi formada təqdim olunan material şagirdlərdə tarixi obrazları zəif formalaşdırır və çox vaxt qeydlər aparmağa vaxt tapmırdılar. Lakin dərs zamanı multimedia tədris vasitələrindən istifadə fərqli mühit yarandı. Ekran təqdim olunan material şagirdlərdə daha aydın təsəvvür formalaşdırır. Bu şagirdlərə vaxtında qeydlər aparmağa və mövzu ilə bağlı vizual və səsli obrazlar formalaşdırdığı aydın görünür. Həmçinin, bu vasitələrdən istifadə müəllim və tələbələr arasında kommunaktiv qarşılıqlı əlaqə üçün ən rahat şərait yaradır [7, s.3].

Tarixdə aparılan araşdırmalarda film və obrazlara müxtəlif yöndə yanaşmalar olub. Filmə və obrazlar keçmişlə bağlı qiymətli mənbələr hesab olunmuş və tarixi agentlər, tarixin vulqarlaşdırılması və fərdi və kollektiv xatirələrin qurulmasına mühüm töhfə kimi qəbul olunmuşdur.

Cəmiyyətimizdə kino və audio-vizual vasitələrin təsiri mühüm dərəcədə artıdığından , məktəb şagirdlərə vizual vasitələri şərh etməyi, təhlil etməyi, əks etdirməyi öyrətməyə məcbur oldu. Filmlər şagirdlər üçün mənalı kontekst yarada bilər və onlarda tənqidi və tarixi təfəkkürün yüksək səviyyədə inkişaf etdirmək üçün istifadə edilə bilər.Məsələn, keçmişi təsəvvür etmək, əsas və ikinci dərəcəli mənbələri müəyyən etmək, empatiya inkişaf etdirmək, mübahisəli nüanslar üzərində düşünmək, müxtəlif tarixi şərhlər aparmaq üçün [3, s.24].

Aparılan sorğunun nəticələrinə əsasən, müəyyən olunmuşdur ki, müəllimlər tarix dərslərində həm sənədli, həm bədii filmlərdən istifadəyə üstünlük vermişdilər. Alman, İsveç və Kvebek müəllimləri dərslərdə daha çox sənədli filmlərin üstünlük təşkil etdiyini bildirdikləri halda, Fransız və Amerika tədqiqatları sənədli filmlərdən istifadənin cüzi xarekter daşıdığını bildirirdilər. Norveç müəllimləri sənədli filmlərə 3 əsas səbəbə görə üstünlük verirdilər.

1. Vaxtdan daha səmərəli istifadə etmək istəyi:bədii filmlər sənədli filmlərdən daha uzundur və çox vaxt montaj edilir;
2. Bədii filmlər şagirdlərin diqqətini yayındıra bilər;
3. Bir çox məlumat verənlər sənədli filmləri maarifləndirici filmlərdən daha etibarlı və aktual hesab edirdilər [3, s.28-29].

Bir qayda olaraq, əksər müəllimlər filmdən mövzuya giriş kimi və ya dərsin inteqrasiya olunmuş hissəsi kimi istifadə edirdilər. Bu, vaxtdan düzgün və səmərəli istifadəyə, filmdən məqsədyönlü istifadəyə uyğundur. Tarix dərslərində filmlərdən istifadənin əsaslı tərəfləri olduğu kimi, filmdən istifadənin çətinlikləri də var. Müəllimlər üçün əsas problem vaxt idi. Müəllimlər filmi seçmək, tapmaq,

öyrənmək və sinifə uyğun fəaliyyət hazırlamaq üçün lazım olan vaxtın miqdarını nəzərə aldıqda, film çox vaxt aparan fəaliyyət kimi görünürdü.

İkinci əsas məsələ filmin seçilməsi və üzərində iş aparılması ilə bağlı idi. Çünki, bəzi müəllimlər öz dərslərinə uyğun filmlər tapmaqda çətinlik yaşayırlar. Səbəb olaraq bildirirlər ki, filmlərin tarixi "etibarlılığına" çox şübhə ilə yanaşdılar və şagirdlərə nəyin etibarlı və ya uyğun olduğunu qiymətləndirməkdə çətinlik yaşadıqlarını bildirdilər.

Üçüncü problem isə bəzi şagirdlərin filmdən istifadəyə olan münasibəti ilə bağlı idi. Bəzi tələbələr filmə baxmağın qeyri-məqsədli fəaliyyət, "dincəlmək", çox passiv olmaq və hətta yuxulu olmaq üçün yaxşı bəhanə kimi şərh oluna biləcəyindən qorxurdular [3, s.36].

Kamarudin Husin fikrincə, tədris və öyrənmə zamanı əyani tədris vasitələrindən istifadə şagirdlərin dərketmə inkişafının günlənməsinə kömək edə bilər. Vizual tədris vasitələrindən istifadə həm də şagirdlər üçün hərəkətverici qüvvə rolunu oynaya bilər. Müəllimlər öyrənmə prosesini müxtəlif vizual təlim vasitələrindən istifadə etməklə şagirdlərə uyğun həyata keçirə bilər.

Sinifdə təlim-tədris prosesinin səmərəli nəticə verməsi üçün Təhsil Nazirliyi şagirdmərkəzli təhsili vacib hesab edir. Lakin hələ də bir çox müəllim müəllim mərkəzli yanaşmadan istifadə edir ki, bu da Tarix fənninin şagirdlər üçün darıxdırıcı bir fənn kimi görünməsinə səbəb olur [1, s.2392].

2010-cu ildə bir sıra tədqiqatçılar tərəfindən aparılan tədqiqatlara əsasən müəyyən edilmişdir ki, dərslərində ənənəvi metodları hələ də tətbiq edən və məktəbin təqdim etdiyi tədris vasitələrindən istifadə etməyən çoxlu müəllimlər var. Bu hal şagirdlərin dərsə marağının daha da azalmasına səbəb olur. Vizual materiallara əsalanan tədris vəsaitləri kimi vizual trammitter kimi xidmət edən alətlər LCD proyektorlar, kompüterlər, həmçinin bu materialların təsvirləri göstərmək üçün istifadə olunduğu kağızlardır, video kliplər, simvollar və rəsmlərdi. Vizual öyrənmə üslublarına müşahidə etmək, təsvir etmək daxildir. Müşahidə əsasında öyrənən şagird dərs materiallarını vizual olaraq daha yaxşı qavrayır. Aparılan araşdırmalar göstərir ki, videogörüntülərdən tədris vəsaiti kimi istifadə olunması şagirdlərdə tarixi hadisələrə daha çox maraq oyanmasına səbəb olmuşdur [1, s.2392].

***Nəticə.*** Aparılmış araşdırmalar göstərir ki, audiovizual və vizual vasitələrin təlim prosesinə inteqrasiyası müasir təhsilin əsas tələblərindən biridir. Xüsusilə tarixi mövzuların öyrədilməsində filmlər, sənədli videolar, animasiyalar və digər multimedia resursları şagirdlərin keçmiş hadisələri daha canlı təsəvvür etməsinə, məkan və zaman əlaqələrini dərk etməsinə və dərs materialını daha dərindən mənimsəməsinə şərait yaradır. Bu vasitələr informasiya yükünü azaldaraq dərsin həm idraki, həm də emosional təsir gücünü artırır, şagird motivasiyasını yüksəldir və müstəqil təhlil bacarıqlarını inkişaf etdirir.

Müəllim baxımından audiovizual texnologiyalar dərsin planlaşdırılması və izah prosesini asanlaşdırır, məzmunun strukturlaşdırılmasına kömək edir, çətin mövzuların sadə və anlaşılan formada çatdırılmasına imkan yaradır. Bununla yanaşı, müəllimin pedaqoji ustalığı bu vasitələrin məqsədəuyğun seçilməsi və düzgün tətbiqi ilə daha da güclənir. Tədrisdə istifadə olunan film parçaları, diaqramlar, xəritələr və digər vizual resurslar müəllim-şagird ünsiyyətini fəallaşdırır, dərsin interaktiv keçirilməsinə şərait yaradır və tədris prosesinin ümumi effektivliyini artırır.

Beləliklə, vizual və audiovizual vasitələr müasir təlimin ayrılmaz komponentinə çevrilmişdir. Onların düzgün seçilməsi və məqsədyönlü tətbiqi həm şagird nailiyyətlərinin yüksəlməsinə, həm də müəllimin peşəkar fəaliyyətinin daha məhsuldar təşkilinə şərait yaradır. Təhsil sistemində bu istiqamətin inkişaf etdirilməsi təlimin keyfiyyətinin artırılmasına mühüm töhfə verəcəkdir.

## ƏDƏBİYYAT

1. Abdul Aziz Mohamad & Abdul Razak Ahmad. Students' Perception On The Use Of Visual Teaching Aids By History Teachers And Its Relationship With Students' Understanding In The Concept Of History // International Journal of Social Sciences and Humanities Invention, Volume 3, Issue 7, July 2016, p.2389-2396.

2. Amin Qori. Purpose of Using Audio Visual Aids in Teaching. - https://medium.com/@aminghori931/basic-purposes-of-using-audio-visual-aids-in-teaching-d00821523cb [18.11.2025].
3. David Alexandre Wagner. Teachers' Use of Film in the History Classroom: A Survey of 19 High School Teachers in Norway // Nordidactica – Journal of Humanities and Social Science Education, 2018:1, p.22-44.
4. Doosuur Ashaver, Sandra Mwuese Igyuve. The Use of Audio-Visual Materials in the Teaching and Learning Processes in Colleges of Education in Benue State-Nigeria // IOSR Journal of Research & Method in Education, January 2013, 1(6), p.44-55.
5. Elif Akay. The use of audio visual materials in the education of students with Hearing Loss // International Education Studies, June 2021, 14(7), p.1-8.
6. Əmirov M.M. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası. Bakı, 2011, 707 s.
7. Глушань В.М, Иваньшина А.А, Кондратьева Т.П. Технические и аудиовизуальные средства обучения в преподавании исторических наук // Вестник Таганрогского института имени А.П. Чехова, 2017, с.30-35. - https://cyberleninka.ru/article/n/tehnicheskie-i-audiovizualnye-sredstva-obucheniya-v-prepodavanii-istoricheskih-nauk/viewer [18.11.2025].

**AYISHE ASLANOVA**
*2nd-year Master Student, Baku State University*

## POSSIBILITIES OF USING VISUAL AND TECHNICAL MEANS IN DEVELOPING HISTORICAL KNOWLEDGE: AUDIOVISUAL MEDIA

The article discusses the possibilities of using visual and technical means used in teaching history, especially audiovisual means. The research conducted by Mubariz Amirov, David Alexandre Wagner, Abdul Aziz Mohamad, Abdul Razak Ahmad, Amin Gori, who are considered great researchers, on audiovisual means is discussed. The important qualities formed in students when working with historical events and processes using audiovisual means are discussed, as well as the three main problems that teachers face. The article discusses how to use various audiovisual means in the teaching process. The main role of visual means in the education of students with hearing impairments is discussed. The article also touches on the issues of teachers ensuring that this process is made easier when teaching history lessons. The place of films, one of the main visual means, in facilitating the teaching process during the screening of history lessons is emphasized.

*Keywords:* Audiovisual resources, visual means, technical means, documentary and feature films, visual learning methods.

*Daxil olma tarixi*: 18.11.2025-ci il.
*Çapa imzalanma tarixi*: 30.01.2026-cı il.

*Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları*
*Studies of the Turkic World Young Researchers Association*

*№1(13) 2026, 29-33*

**UOT 327**

**ƏFRUZ NOVRUZLU**
*Bakı Dövlət Universiteti Tarix fakultəsinin*
*Regionşünaslıq (Amerika) ixtisasının II kurs tələbəsi*
**efruz.ismaylzade@icloud.com**

# XXI ƏSRDƏ GENDER ƏSASLI ZORAKILIQ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Zərifə Nəzirli

*21-ci əsrdə qadınlar hələ də gender əsaslı zorakılığın müxtəlif formalarına məruz qalmağa davam edirlər. Bu zorakılıq yalnız fiziki deyil, həm psixoloji, həm iqtisadi, həm də sosial sahələrdə özünü göstərir. Bu məqalə qadınlara qarşı həyata keçirilən zorakılığın səbəblərini və onların qadınların həyatındakı təsirindən danışır. Eyni zamanda, qadınların hüquqlarının müdafiəsi, səsinin eşidilməsi və onların cəmiyyətin bərabər üzvləri kimi tanınması ön plana çəkilir. Məqalənin əsas məqsədi zorakılığa qarşı susmamaq, qadınların səsini eşitdirməkdir. Qadın hüquqları insan hüquqlarıdır və bu hüquqlar pozulduqda cəmiyyət özü də zəifləyir.*

*Açar sözlər:* qadın hüquqları, sosial cinsiyyət, qadınlara qarşı ayrı-seçkilik, hüquqi müdafiə, gender zorakılığı.

***Giriş.*** Qadınlara qarşı zorakılıq dünyada çox ciddi bir problemdir və bu məsələ Azərbaycanda da aktual olaraq qalır. Təəssüf ki, bəzən insanlar bu zorakılıqları qadınların davranışı və geyimləri ilə əsaslandırmağa çalışırlar. Hesab edirik ki, belə düşüncə tərzi həm qadın hüquqlarına hörmətsizlikdir, həm də bu zorakılıqların davamlı olmasına şərait yaradır. Bu məqalədə zorakılığın səbəbləri və onun ictimai stereotiplərlə əlaqəsinin araşdırılmasına cəhd ediləcək.

***Qadın Hüquqları və Gender Ədalətsizliyi***. Qadın hüquqları müasir dünyanın əsas məsələsindən biri olmaqla yanaşı, hər bir ölkənin sosial və hüquqi inkişaf səviyyəsinin göstəricisidir (UN Woman, 2021). Azərbaycan cəmiyyətində qadınların hüquq məsələləri tarix boyu müxtəlif mərhələlədən keçmişdir. Xüsusilə XX əsrin əvvəllərində qadınların ictimai həyatda iştirak imkanları genişlənmişdir. Müsəlman şərqində ilk dəfə 1918-ci ildə qadınlara səs vermə hüququnun Azərbaycanda verilməsi, bu sahədə islahatlara tez başlamağımızdan xəbər verir (Aliyev, 2019). Bu da Azərbaycanı müsəlman şərqində qabaqcıl ölkə olaraq fərqləndirmişdir.

Müstəqillik qazandıqdan sonra Azərbaycan Respublikası qadın hüquqlarının təmin olunması və gender bərabərliyinin gücləndirilməsi istiqamətində mühüm addımlar atmışdır.Xüsusilə BMT-nin "Qadınlara qarşı ayrı seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya"(CEDAW) və "Gender bərabərliyinin təminatları haqqında" Qanun bu sahədə hüquqi baza formalaşdırmışdır.Lakin buna baxmayaraq,bu gün də Azərbaycan cəmiyyətində qadınlar bir sıra problemlərlə üz-üzə qalır.

Bu məqalənin məqsədi qadın hüquqları məsələsini hüquqi və sosial aspektlərdən təhlil etmək, mövcud problemləri və onların həlli yollarını araşdırmaqdır.Məqalədə Azərbaycan qanunvericiliyi əsasında qadın hüquqlarının vəziyyəti təhlil olunacaq və təkminləşdirilməsi üçün təkliflər irəli sürüləcək.

Gender əsaslı ayrı-seçkilik, ailə zorakılığı, əmək bazarında qeyri-bərabərsizlik, erkən nigah, qadınların siyasi qərar qəbul etmə proseslərində az təmsil olunması. Qadın hüquqları müasir dövrdə daha çox diqqət mərkəzinə çevrilmişdir. Lakin cəmiyyətimizdə qadınların hüquqları hələ də məhdudlaşır (UNFPA, 2022).

Bütün bu münasibətlərə baxmayaraq, müasir dövrdə Azərbaycan cəmiyyətində qadınların qarşılaşdığı real problemlər mövcuddur ki, bunları təhlil etdikdə qadın hüquqlarının vəziyyətini daha dərindən anlaya bilərik.

Gender əsaslı zorakılığın ən ağır nəticələrindən biri də qadın qətlləridir. Yəni bəzən öldürülmək üçün cinsiyyətinin qadın olması belə bəs edir. BMT-nin məlumatına görə hər il minlərlə qadın partnyoru, həyat yoldaşı, ailə üzvləri ya da heç tanımadığı insanlar tərəfindən öldürülür (UNODC, 2021). Bu vəziyyət Azərbaycanda da öz aktuallığını qoruyur.

Cinsi zorakılıq-istənilən qadının iradəsi və razılığı olmadan ona qarşı edilən seksual xarakterli hərəkətlərdir (WHO, 2021). Cinsə görə zorakılıq bütün dünyada geniş yayılmışdır. Bu da insan hüquqlarının ciddi şəkildə pozulmasıdır. Bu zorakılıq əsasən qadınlara yönəlir və onların fiziki, sosial, psixoloji və seksual toxunulmazlıqlarına zərər vurur.

Bəlkə də dünyada ən çox namusdan danışan millət bizik, amma problemimiz budur ki, bizim namus dedikdə ilk ağlımıza qadınlar gəlir. Ona görə də, ən kiçik səhvlərində belə qadınlara böyük cəzalar verilir. Necə cahil və acınacaqlı bir düşüncədir amma təəssüf ki, bu bizim millətin düşüncəsidir. Əslində bu düşüncə də bizim günahımızdır. Çünki oğlan uşağı dünyaya gətirən heç bir qadın, heç bir ana oğlunun qarşısında əyləşib ona namusun, əxlaqın nə olduğunu və yalnızca qadınlara aid olmadığını izah etməyib. Bu səbəbdən,oğlanlar üçün çox normal hər hansı bir hərəkəti hər hansı bir qadın etsə, ona əxlaqsız damğası vurula bilər. Geyim seçiminə görə hər hansı bir qadına cinsi təcavüz edə bilərlər. Günahkarı isə özüdür. Açıq geyinmə səbəbi nə idi?Kiminsə namusdan xəbərsiz oğlunun şəhvət hissini oyatmaq üçünmü? Ona görəmi təcavüz edildi? Demək özü buna şərait yaratdı.

Bəli bu bizim cəmiyyətin düşüncəsidir. Ancaq bu düşüncə həm hüquqi baxımdan, həm də etik baxımdan yalnış və təhlükəli düşüncədir. Bu yanaşma zorakılığı törədənləri deyil, qurbanları günahlandırır və edilən cinayətə bəraət qazandırmağa çalışır. Halbuki zorakılıq üçün məsuliyyət daşıyan yalnız və yalnız onu törədən şəxsdir. Çünki, zorakılığın və təcavüzün səbəbi qurbanın geyimi, davranışı və ya başqa heç bir xarici amil ola bilməz. Cinayət məcəlləsinə görə cinsi təcavüz və zorakılıq istənilən halda cinayət hesab olunur (CM Maddə 149, 150). BMT-nin Gender Bərabərliyi və Qadınların gücləndirilməsi agentliyi bildirir ki: “Heç bir qadın zorakılığa görə məsuliyyət daşımır. Səbəb nə geyimdir, nə yer, nə də vaxt. Yeganə günahkar təcavüzkardır”.

Təhlükəli tərəf odur ki, bu cür fikirlər-qadının davranışının və ya geyiminin zorakılığın səbəbi kimi göstərilməsi - cəmiyyətdə normallaşdıqca, zorakılığın qarşısını almaq çətinləşir. Çünki məsuliyyət zorakılığı törədənin deyil, qurbanın üzərinə yıxılır. Qurban günahlandırıldıqda, bir çox qadın başına gələn zorakılıq hadisəsini gizlətməyə üstünlük verir çünki, “sən özün günahkarsan” münasibətindən qorxur. Nəticədə zorakılıq cəzalandırılmır.

Ən böyük problem rəsmi rəqəmlərlə real vəziyyətin üst-üstə düşməməsidir. BMT-nin Gender Bərabərliyi Agentliyinin verdiyi məlumata əsasən cinsi zorakılıq qurbanlarının yalnız 10 faizi hüquq-mühafizə orqanlarına şikayət edir. Qalan 90 faiz isə statistikada görünmür.

***Erkən Nigah, Təhsil Hüququ və Gender Bərabərsizliyi***. Azərbaycanda da vəziyyət fərqli deyil. Dövlət Statistika Komitəsinin təqdim etdiyi məlumata görə, son illərdə qadınlara qarşı zorakılıq artsa da, qadın hüquqları üzrə çalışan mütəxəssislər bu rəqəmlərin real vəziyyəti əks etdirmədiyini bildirib. Qadınların zorakılıq halları barədə danışmaqdan çəkinməsinin əsas səbəbi isə ictimai qınaqdır.

Məsələn 2025 ci ildə ölkəmizdə 13 yaşlı qızın hamilə olduğu və uşaq gətirdiyi xəbəri ortaya çıxdı. Bu təkcə fərdi faciə deyil, həmçinin cəmiyyətimizin dərin probleminin üzə çıxmasıdır. Uşaq yaşda hamiləlik zorakılığın son mərhələsidir13 yaşlı qız bioloji olaraq uşaqdır, lakin bu yaşda hamilə qalması onu uşaq yox zorakılıq qurbanı kimi tanıtdı.

13 yaşda bir qızın hamilə qalması cəmiyyətin susqunluğu və laqeydliyi səbəbindən baş verir. Bu sadəcə cinayət deyil bir uşağın gələcəyinin, həyatının əlindən alınmasıdır. Bu cür halların qarşısını almaq üçün təkcə hüquqi tədbirlər deyil, güclü maarifləndirmə və uşaqlar üçün güclü təhlükəsiz mühitin yaradılması önəmlidir. Cəmiyyət olaraq hər birimizin məsuliyyəti var. Hər susduğumuz anda, hər “öz problemidir” dediyimiz anda bir qız uşağının taleyini fəlakətə sürükləyirik. Uşaq istismarı və erkən hamiləlik hallarını tamamilə aradan qaldırmaq üçün faktlara göz yumamalıyıq.

Bu fakt cəmiyyətimizdə hələ də geniş yayılmış erkən nigah problemini açıq şəkildə göz önünə sərir. Ölkəmizdə erkən nigah hallarına hələ də bəzi bölgələrdə rast gəlinir. Statistika göstərir ki, 15-17

yaş arasında nigaha cəlb olunan qızların əksəriyyəti ailə təziqi, maddi sıxıntını aradan qaldırmaq üçün məcburi şəkildə evləndirilir. Yəni bu o deməkdir ki, yenə hər hansı bir qız uşağının həyatı əlindən alınır. Onun hüquqları heçə sayılır (ən əsas da təhsil hüququ). Bu vəziyyətdə ailələr qıza sosial müqavilə gözü ilə baxırlar. Bir qız uşağının qucağı kitab, dəftərlə dolmalı olduğu yaşda uşaqla dolmamalıdır.

Təəssüf ki, erkən nigahlar uşaq yaşda olan qızları analıq məsuliyyətinə məhkum edir. Uşaqlıq dövrü böyümək, öyrənmək, özünü kəşf etmək dövrüdür, ailə məsuliyyəti daşımaq yox. Bu cür məcburi nigahlar nəticəsində bir çox qız uşağının əlindən təhsil hüququ alınır, öz gələcəyini formalaşdırmaq imkanını itirir. Cəmiyyət isə çox vaxt bunun fərqində olsa da,susmağa üstünlük verir.

Bizim cəmiyyətdə hələ də qadınlara əşya kimi yanaşılır. Ona görə də, erkən nigah halları baş verir. Rəsmi statistikaya görə, 2022-ci ildə 18 yaşdan aşağı analar tərəfindən 2011 uşaq dünyaya gətirilib (Dövlət Statistika Komitəsi, 2022). Bu hal qadınların şəxsi seçim və azadlıqlarını məhdudlaşdırır. Nəticədə, erkən nigahlar gender bərabərliyinin təmin edilməsinə və qadınların cəmiyyətdə bərabər iştirakına maneə törədir.

Təhsil bir sıra insanın inkişafı üçün təməl hüquqlardan biridir. Lakin bir çox ölkələrdə, o cümlədən bəzi regionlarda hələ də qız uşaqları bu hüquqdan tam şəkildə faydalana bilmirlər. Gender bərabərsizliyi qız uşaqlarının məktəbə getməsində, təhsilini davam etdirməsində və müəyyən sahələr üzrə təhsil almasına qoyulan sosial və ya ailəvi məhdudiyyətlər göstərir. Bu hal da qadınların gələcək həyatlarında iqtisadi asılılıq, hüquqi biliksizlik kimi fəsadlara yol açır.

Azərbaycanda təhsil baxımında gender fərqi getdikcə azalsa da, regionlarda ciddi fərqlər qalır. Məsələn, bəzi kənd yerlərində ailələr qızların təhsilinə "ailə quracaq, nəyə lazımdır?" kimi yanaşdıqlarına görə məktəbdən çıxarır. Bu xüsusilə orta məktəbdən sonra, yəni 9-cu sinifdən sonra özünü göstərir.

Eyni zamanda, qız uşaqları tez-tez mühəndislik, texnologiya sahələrinə yönəldilmir. Bu da onların gələcəkdə yüksək maaşlı və strateji işlərdə işləmək imkanını əlindən alır. Cəmiyyətdə "Bu sahə kişiyə yaraşır" kimi fikirlər hələ də güclüdür.

Təhsildə gender bərabərsizliyi qadınların uzunmüddətli inkişaf imkanlarını əngəlliyir. Hər bir qız uşağı keyfiyyətli və təhlükəsiz təhsil almaq haqqında sahibdir. Qız uşaqları nə qədər çox təhsil alarsa, o qədər az erkən nigah bağlanar, o qədər az iqtisadi asılılıq yaranar və o qədər çox qadın ictimai həyatda söz sahibi olar. Təhsildə bərabərlik-bərabər gələcəyin açarıdır.

Gender bərabərsizliyi yalnız ailə və sosial münasibətlər sahəsində deyil, əmək bazarında da ciddi şəkildə pozulur. Qadınların iqtisadi müstəqilliyi onların cəmiyyətdə statusunu müəyyənləşdirən əsas amil olsa da, bu sahədə qarşılaşdıqları gender əsaslı ayrı-seçkilik onların tam hüquqlu iştirakını məhdudlaşdırır. Bu isə təkcə qadınların deyil, ümumilliklə ölkənin iqtisadi və sosial inkişafına mənfi təsir göstərir.

Dünyanın bir çox ölkələrində qadınlar kişilərlə eyni təhsil səviyyəsinə sahib olsa da, daha az maaş alır, daha az vəzifələrdə təmsil olunur (Un Women, 2021).

Bundan əlavə, bir çox qadın analıq məzuniyyətindən sonra işə geri qayıtdıqda ya işdən çıxarılır, ya da karyera yüksəlişi əngəllənir. Evdə görülən işlər-uşaq baxmaq, ev təmizliyi və.s-əmək bazarında nəzərə alınmır, bu da qadınların "məhsuldar deyil" kimi qiymətləndirilməsinə səbəb olur. Halbuki bu cür işlər də sosial dəyər yaradır.

İqtisadi zorakılığın digər bir forması isə maliyyə nəzarətidir. Bəzi qadınlar işləsə belə, qazandıqları gəlirə sahib çıxmağa imkan verilmir. Onun əziyyət çəkib qazandığı gəlirə həyat yoldaşı, ailə üzvləri nəzarət edir. Bu hal da qadını maliyyə asılılığına salır.

Əmək bazarında qadınlara qarşı gender əsaslı zorakılıq sadəcə iqtisadi məsələ deyil, insan hüquqlarının pozulmasıdır. Qadınların öz gəlirlərinə sahib çıxmaq, sərbəst işləmək və yüksəlmək hüququ əllərindən alınanda onlar həm hüquqi, həm də sosial baxımdan zəif vəziyyətə düşürlər. Dövlətin cəmiyyətin vəzifəsi bu bərabərsizliyi aradan qaldırmaqdır.

***Nəticə.*** Araşdırmalar və müşahidələr göstərir ki,qadınlara qarşı zorakılıq halları, erkən nigahlar, cinsi istismar və əmək bazarında ayrı-seçkilik təkcə fərdi problem deyil, bunlar bütövlüklə cəmiyyətin

inkişafını əngəlləyən ciddi məsələlərdir. Belə hallar qadınların potensialını məhdudlaşdırır, onların bərabər imkanlardan yararlanmasına əngəl törədir.

Bu halların qarçısını almaq üçün cəmiyyətdə ilk növbədə maarifləndirmə işi aparılmalıdır. Qanunvericilik yalnız mövcud olmaqla kifayətlənməməli, onun icrası ciddi şəkildə təmin olunmalıdır. Təhsil, media və ailə mühitində də qadının yeri və hüquqları aydın şəkildə izah edilməlidir.

Eyni zamanda, qadınlara yönəlmiş dəstək proqramları artırılmalı, psixoloji və hüquqi yardımlar əlçatan olmalıdır. Əmək bazarında da qadınlara qarşı olan ayrı seçkiliyin qarşısı alınmalı, bərabər imkanlar təmin olunmalıdır. Unutmayaq ki, qadının layiq olduğu dəyəri görməsi yalnız onun deyil, bütün cəmiyyətin qazancıdır. Qadın gücləndikcə ailələr möhkəmlənir, gələcək nəsillər daha sağlam böyüyür.

Bu yazıda toxunduğum bütün məsələlər mənə görə olduqca vacibdir. Düşünürəm ki, cəmiyyətdə real dəyişikliklərə nail olmaq üçün ilk növbədə düçüncə tərzimizi dəyişməli, qadına qarşı münasibətimizi köklü şəkildə yenidən formalaşdırmalıyıq. Hər kəs az da olsa, öz ətrafında bu məsələyə qarşı həssas olsa, dəyişiklik mümkündür. Qadın sadəcə bir cins deyil - o, anadır, bacıdır, sevgilidir, həyatın özüdür. O, həm evin işığını yandırır, həm də cəmiyyətə nur saçır. Əsrlər boyu qadın susdurulsa da, onların susqunluğunun içində çığıran bir güc vardır. Bu gün o güc danışır, dəyişir və dəyişdirir. Məncə qadın olmaq güc və zərafətin vəhdətidir. Qadın həm öz həyatını, həm də başqalarının həyatını gözəlləşdirir. Əgər bir qadının gülümsəməsi sönürsə, deməli, cəmiyyətin işığı azalır. Qadınlara dəyər vermək-sadəcə hüquq deyil, insanlıq borcudur.

## ƏDƏBİYYAT

1. Aliyev, F. (2019). Azərbaycan qadın hərəkatının tarixi inkişaf mərhələləri. Bakı: Elm nəşriyyatı.
2. Azərbaycan Respublikası Cinayət Məcəlləsi. (1999). Maddə 149, 150. - https://e-qanun.az/framework/46947 [22.11.2025].
3. Azərbaycan Respublikası. (2006). Gender bərabərliyinin təminatları haqqında Qanun. - https://e-qanun.az/framework/12424 [22.11.2025].
4. Azərbaycan Respublikası. (2006). Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyanın təsdiq edilməsi barədə Qanun. - https://e-qanun.az/framework/9341 [22.11.2025].
5. Dövlət Statistika Komitəsi. (2022). Azərbaycan Respublikasında gender statistikasının göstəriciləri. - https://www.stat.gov.az/source/gender/ [22.11.2025].
6. UN Women. (2021). Progress on the Sustainable Development Goals: The Gender Snapshot 2021. - https://www.unwomen.org/en/digital-library/publications/2021/09/progress-on-the-sustainable-development-goals-the-gender-snapshot-2021 [22.11.2025].
7. UNFPA. (2022). Gender-based violence and harmful practices. - https://jordan.unfpa.org/en/topics/gender-based-violence-and-harmful-practices [22.11.2025].
8. UNODC. (2021). Global study on homicide: Gender-related killing of women and girls. United Nations Office on Drugs and Crime. - https://www.unodc.org/unodc/en/data-and-analysis/global-study-on-homicide.html [22.11.2025].
9. WHO. (2021). Violence against women. World Health Organization. - https://www.who.int/news-room/fact-sheets/detail/violence-against-women [22.11.2025].

**AFRUZ NOVRUZLU**
*2nd year student majoring in American Regional Studies*
*at the Faculty of History, Baku State University*

## 21st CENTURY GENDER-BASED VIOLENCE

In the 21st century, women continue to be subjected to various forms of gender-based violence. This violence is not only physical, but also psychological, economic and social. This article discusses

the causes of violence against women and its impact on women's lives. At the same time, the protection of women's rights, their voices being heard and their recognition as equal members of society are emphasized. The main goal of the article is not to remain silent in the face of violence, but to make women's voices heard. Women's rights are human rights, and when these rights are violated, society itself is weakened.

*Keywords:* women's rights, gender, discrimination against women, legal protection, gender violence.

*Daxil olma tarixi*: 25.11.2025-ci il.
*Çapa imzalanma tarixi*: 30.01.2026-cı il.

UOT 371.3

**GÜLSİNAR AYDINOVA**
*Bakı Dövlət Universitetinin magistrantı*
**gul.aydin01@mail.ru**

# AZƏRBAYCAN TARİXİ DƏRSLƏRİNDƏ LAYİHƏ ƏSASLI ÖYRƏNMƏNİN TƏTBİQİ VƏ ŞAGİRD MÜSTƏQİL İŞİNİN İNKİŞAFI

*Elmi rəhbər:*
tarix elmləri doktoru Tahirə Həsənzadə

*Məqalə üç hissədən ibarətdi: giriş, əsas hissə və nəticə. Məqalədə Azərbaycan tarixi dərslərində layihə əsaslı öyrənmənin mahiyyətindən bəhs edilir. Müasir dövrdə kurikulumun tələblərinə cavab verən, müstəqil işin inkişafında layihə əsaslı öyrənmənin təsirindən danışılır. Müasir təhsilin əsas məqsədi yalnız şagirdə məlumat vermək deyil, eyni zamanda müəllim şagirdə istiqamət verərək onu layihə əsaslı öyrənməyə cəlb etməlidir. Bu halda şagird sadəcə dərsdə passiv dinləyici kimi deyil, aktiv formada öz layihələrini təqdim edərək öz fikirlərini səsləndirərək iştirak edə bilər. Belə olduğa halda müəllim tədris prosesində istiqamətçi kimi iştirak edir, şagird isə müstəqil şəkildə təhlil etməyi öyrənir. Bu baxımdan Azərbaycan tarixi fənnində də layihə əsaslı öyrənmək mühüm yer tutur. Bu metod şagirdin yaradıcı fəaliyyətlə məşğul olan şəxsiyyət kimi formalaşmasına təsir göstərir. Layihə metodu şagirdi həm fərdi, həm də qrup şəklində işləmə bacarığını formalaşdırır. Bu məqalədə layihə əsaslı öyrənmənin əsas xüsusiyyətləri, təhsilə olan təsiri eyni zamanda müasir dövrdə orta məktəblərdə hansı problemlərlə qarşılaşdığımızı və bu problemləri necə həll edə bilməyimizlə bağlı fikir və təkliflər qeyd edilmişdir.*

*Açar sözlər:* layihə əsaslı öyrənmə, şagird, təhsil, Azərbaycan tarixi, müstəqil iş, kurikulum, tədqiqat bacarığı.

***Giriş.*** Müasir dövrdə dərslərdə əsas məqsədi yalnız müəyyən biliklərin ötürülməsi deyil, eyni zamanda hər bir şagirdin müstəqil düşünməsinə şərait yaratmaqdı. Bu sahədə aparılan islahatlar təkan verir ki hər bir tələbə şəxsiyyət kimi cəmiyyətdə düzgün formada formalaşsın. Bu həmçinin tələbənin yaradıcılıq qabiliyyətinin formalaşmasınada təsir göstərir. Və bu məqsədə nail olmağın ən əlverişli yolu layihə əsaslı metoddur. Eyni zamanda Azərbaycan tarixi dərsində bu metoddan istifadə şagirdlərin fənnə qarşı marağını artırır,onların mövzuları daha dərindən düşünüb təhlil etmələrinə kömək edir. Dərslərdə bu metoddan istifadə şagirdlərin tədris prosesinin daha aktiv üzvü edir. Çünki müəllim bu metodda sadəcə müşahidəci rolunu oynayır yani uzaqdan nəzarət edir lakin heç bir müdaxilə etmir. Bu şagirdin layihəyənin sərbəst bir şəkildə işləməsinə şərait yaradır. Və şagird bütün bacarıqlarına ortaya qoyaraq layihə yaradır [4, s.34].

İlk dəfə layihə əsaslı metodu XX əsrin əvvəllərində amerikalı pedaqoq-alimlər Con Dyui və Uilyam Kilpatrik irəli sürmüşdür. Onların fikrincə şagird sadəcə materialı nəzəri formada müəllimdən öyrənməli deyil, o eyni zamanda materialı praktiki yönümdən öyrənməli və daha geniş formada araşdırmalıdır. Bu yanaşma müasir dövrdə kurikulumun "öyrənərək etmək" prinsipinə uyğun gəlir. Bu prinsipin əsas məqsədi şagirdin müstəqil düşünməsini, təhlil aparmasını əsaslı bilir. Daha sonra isə geniş istifadə olunmağa başlamışdır. Onlar qeyd edirdilər ki, əgər bir tədris prosesinin daha keyfiyyətli olmasını istəyiriksə şagirdin öyrəndiklərini fəaliyyətə çevirərək təcrübə toplamasına şərait yaradırmalıdır. Bir sözlə, nəzəri biliklər praktikaya çevirilməlidir. Bu metoda görə, şagird yalnız müəllimi dinləyən olmalı deyil, eyni zamanda tədris prosesinin aktiv iştirakçısı olmalıdır. Layihə əsaslı öyrənmə, günümüzdə aktual məsələlərin araşdırılması, problemlərin tədqiq və eyni zamanda təhlilinə əsaslanır [2, s.78].

Bu metodun xüsusiyyətləri aşağıdakılardır:

1. *Şagirdin aktiv rolu* - bu metod sayəsində şagird hər bir mövzunun təhlil edir, səbəb-nəticə əlaqələrini araşdırır.

2. *Müəllimin istiqamətləndirici rolu* - müəllim layihə metodu zamanı sadəcə qıraqdan müşahidə edir, bir başa bu prosesdə iştirak etmir. Əgər çətinlik yaranarsa tələbəyə istiqamət göstərir.

3. *Fənlərarası əlaqə* - buna başqa cür inteqrasiyada deyə bilərik. Bu halda şagird bir mövzunu öyrənərkən fənlərarsı inteqrasiyadan da istifadə edir. Beləki, məsələn hansısa bir dövlətin tarixini öyrənərkən onun coğrafi xüsusiyyətlərini də araşdırır və təhlil edir. Eyni zamanda, hansısa bir dövrü araşdırarkən o dövrün ədəbiyyat tarixi əsərlərinədə müraciət edir. Məsələn, Səfəvi dövlətini öyrənərkən biz Şah İsmail Xətainin ədəbiyyatdakı obrazına da nəzər yetirə bilərik. Və ya Şah Abbasın Mirzə Fətəli Axundzadənin "Aldanmış kəvakib" əsərlərindəki rolunu araşdıraraq tarix və ədəbiyyat arasında inteqrasiya apara bilərik. Bu dərsi daha maraqlı və şagirdləri dünya görüşünün daha zəngin inkişafına şərait yaradır.

4. *Nəticəyönümlülük* - hər bir layihənin sonda mütləq nəticəsi olmalıdır. Əgər bir layihənin nəticəsi yoxdursa, demək ki o tam hazir olmayib. Buna görə təqdimat formasında, video və ya qrafik formasında sonda nəticə mütləq təqdim olunmalıdır.

5. *Tənqidi və yaradıcı düşünmə* - şagird bir layihəni hazırlayarkən tənqidi və yaradıcıda düşünməlidir. Yani məsələn əgər layihə hazırlayarkən nədənsə razı deyilsə bunu mütləq qeyd etməlidir və öz fikirlərini yaradıcı olaraq bildirməlidir. Məsələn, bəzi tarixi əsərlərdə Səfəvi dövləti İran dövləti kimi qeyd olunur. Lakin bu tarixi əsərləri araşdırarkən şagird öz tənqidi düşüncələrini irəli sürüb və öz fikrini deməkdən çəkinməməlidir.

Bu metoddan Azərbaycan tarixi fənnində istifadə icazə verir ki, şagird mövzunu diqqətlə oxuduqdan sonra təhlil etsin, nəticə çıxarsın, incə nüanslara qədər incələyib təhlil etsin. Bu, hər bir mövzunu şagirdin daha dərindən mənimsəməsinə öz töhfəsini verir [5, s.83-84].

***Əsas hissə.*** Azərbaycan tarixi fənninin əsas məqsədi xalqımızın hər bir nümayəndəsini milli ruhda, milli kimlikdə yetişdirməkdir. Axı tarixini bilməyən bir xalq heç vaxt irəlləyə bilməz. Əgər bir xalq öz tarixini bilmirsə, o, tam müstəqil formada yaşaya bilməz. Bu baxımdan, "Azərbaycan tarixi" fənni xalqımızın keçdiyi inkişaf yolunu hər birimizə öyrətmək məqsədini daşıyır. Tarix elə bir fənndir ki, onu sadəcə oxuyaraq öyrənə bilmərik. Hər bir hadisəni araşdırmaq, təhlilini apararaq səbəb-nəticə əlaqələrini ortaya çıxarmaq və sonda yekun nəticəyə gəlmək lazımdır. Buna görə də tarix fənnində əsaslı rolu mənbələrlə iş təşkil edir. Əgər hər bir müəllim şagirdə orta məktəbdən mənbələrlə işləmə bacarığını öyrədərsə, bu gələcəkdə onun güclü tədqiqatçı kimi yetişməsinə təsir göstərər. Layihə əsaslı öyrənmə bu proseslərin formalaşması üçün əlverişli şəraiti yaradır [6, s.121].

Fənnin məzmununa daxildir: qədim dövrdən başlayaraq müasir dövrə qədər baş verən hadisələrin sosial, iqtisadi, siyasi yönümlü inkişafı. Əvvəllər bu fənnin tədrisi prosesində əsas rolu müəllim oynayırdı: o, dərsi izah edir, şagird isə dinləyici qismində çıxış edirdi. Beləliklə, şagird passiv iştirakçı olurdu. Özü heç nə araşdırmır, sadəcə müəllim nə danışırdısa onu öyrənirdi. Bu, şagirdin yaradıcı düşüncəsinə birbaşa mane olurdu. Amma artıq bu belə deyil. Müasir dövrdə müəllim sadəcə istiqamətverici rol oynayır, dərsin aktiv iştirakçısı olan şagird hər mövzunu özü araşdırıb nəticə çıxarmalı, təhlil aparmalıdır. Artıq tarixi hadisələri sadəcə xronoliji qaydayla deyil, eyni zamanda səbəb-nəticə əlaqələri və müasir dövr baxımından əhəmiyyətini dərk etməyə kömək edir [7, s.54].

Məsələn "Azərbaycan xalq cumhuriyyəti dövrü" mövzusunda layihə metodundan istifadə tam yerinə düşür. Bu mövzunu layihə formasında öyrənmək şanlı tariximizi şagirdlərin daha dərindən öyrənməsinə şərait yaradır. Artıq şagird layihə metoddundan istifadə etmək üçün AXC dövrünü daha dərindən araşdırıb, bütün tarixi şəxsiyyətlər haqqında əlavə məlumatlar əldə edib, dərslikdən başqa əlavə ədəbiyyatlara üz tutub, müxtəlif mənbələrdən oxuyub ümumi nəticə çıxarıb təhlil etməlidirlər. Bu onların bu dövrü kifayət qədər obyektiv və aydın şəkildə dərk etmələrinə kömək edəcək. Şagird sonda yazılı təqdimat formasında və ya yazılı hedabat formasında nəticələri təqdim etməlidir.

Deməli bu metodda:

• Şagird müstəqil öyrənir və tədqiqat aparır;

• Bu metod komandada iş, tez zamanda layihənin hazır olması, vaxta qənaət və ən əsası yaradıcı düşüncə bacarığlnı inkişaf etdirir;

• Fənn və müəyyən bir mövzu üzrə şagirdin həm nəzəri, həm də praktiki bilikləri birləşərək ortaya ümumi nəticə çıxarılır ki, bu da onların nəzəri hissədə öyrəndiklərini əvvəlcədən praktikada istifadə etmələrinə kömək edir.

Müəllim layihələri qiymətləndirərkən sadəcə nəticəyə önəm verməməlidir, həm də şagirdin layihə prosesi ərzində əziyyəti, əməkdaşlıq qabiliyəti, komandada iş qabiliyyətini nəzərə alaraq yekun qiyməti açıqlamalıdır [1, s.124].

Tarix fənnində layihə yönümlü metoddan istifadə müstəqil iş anlayışınıda inkişaf etdirir. Məsələn:

1. "Azərbaycan Xalq Cumhuriyyəti" tarixinin millətimiz üçün əhəmiyyəti.
2. "Qarabağ xanlığı dövründə" siyasi-iqtisadi vəziyyət.
3. "XIX əsrdə marifçilik hərəkatı və milli dirçəlişdə onun nümayəndələrinin rolu".
4. "1990-cı illərdə Azərbaycan tarixində baş verən siyasi-iqtisadi hadisələr".

Belə layihələrdə şagirdlər bir mövzunu müxtəlif mənbələrdən araşdırır, onlar arasında səbəb-nəticə əlaqələrini öyrənir, müqayisə aparılır, eyni zamanda sonda ümumi nəticə təqdim edir. Nəticə video, qrafik və ya yazılı təqdimat formasında təqdim olunur. Beləliklə bu prosesdə:

1. Tədqiqat bacarıqları formalaşır;
2. Komanda və qrup şəklində iş və şagirdlər arasında əməkdaşlıq gücləndirilir;
3. Şagirdlərin zamanı düzgün bölməsinə, vaxta qənaət etməsinə təkan verilir.

Bu proseslərdə müəllimin əsas rolu şagirdə resurs təqdim etmək, ona düzgün istiqamət vermək, layihə mərhələsini diqqətlə izləmək, sonda qiymətləndirməni ədalətli aparmaqdır. Artıq ənənəvi müəllim rolu təhsilə kifayət qədər öz töhfəsini verə bilir. Əvvəllər müəllim sadəcə dərs izah edirdi, şagirdsə ona diqqətlə qulaq asmalı olurdu. Bu şagirdin yaradıcılıq qabiliyyətlərinin inkişafına mənfi təsir göstərirdi. Və bu günümüzdə müasir tələblərə cavab vermir.

Müstəqil iş şagirdə müəllimdən aslı olmadan təhlil aparmağı, öz sərbəst fikirlərini bildirməyi öyrədir. Bu şagirdin gələcəkdə güclü tədqiqatçı kimi yetişməsinə töhfə verir. Bu metod XXI əsrdə təhsildə əsas vacib xüsusiyyətlərdən biri hesab olunur. Müstəqil işin növləri çoxdur, buna əsasən fərdi təqdimat, referat, layihə, ekskursiya hesabatı daxil edilir. Layihə hazirlayarkən bu bacarıqlar birləşir və praktik yönümlü istifadə olunur. Layihə zamanı şagird mövzunu özü seçməlidir. Çünki şagird öz maraq dairəsində seçdiyi mövzunu daha həvəslə hazırlayır və daha böyük maraqla araşdırır. Mövzunu seçdikdən sonra material toplayır, onların təhlilini, səbəb-nəticə əlaqələrini çıxarır, eyni zamanda müqayisə apararaq ortaq nəticə çıxarıb yekun hesabat yazır. Beləliklə layihə baxımından öyrənmə şagirdin müstəqil işə hazırlanmasına təkan verir [8, s.102].

Layihə əsaslı öyrənmə və müstəqil iş anlayışları bir-birini tamamlayan iki təhsil yanaşması və metodlarından biridir. Onlar həmçinin bir-biri ilə sıx əlaqədədir. Layihə prosesi şagirdin müstəqil formada işləməsini tələb edir, müstəqil iş isə layihənin keyfiyyətli olması üçün şərait yaradır. Beləliklə, bu qarşılıqlı əlaqə nəticəsində:

1. Şagird öyrənmənin subyektinə çevrilir və tədris prosesində aktiv rol oynayır;
2. Müəllim-şagird münasibətləri əməkdaşlıq xarakteri alır;
3. Şagird üçün öyrənmək passiv dinləyici olmaq deyil, aktiv araşdırmacı olmaqla əvəzlənir.

Azərbaycan tarixində bu araşdırma şagirdlərdə milli dəyərlər və vətənpərvərlik hisslərinin daha çox inkişafına töhfə verir. Layihə əsaslı öyrənmə bir neçə mərhələdən ibarətdir:

1. *Mövzunun seçilməsi* - ilk öncə müəllimin köməyi ilə şagird öz maraq dairəsinə uyğun mövzu müəyyən edilir. Mövzu seçərkən müəllim şagirdə düzgün istiqamət verməlidir ki, onun mövzuya marağı yaransın, onu geniş və düzgün araşdıra bilsin;

2. *Problemin formalaşdırılması* - layihə çərçivəsində əsas araşdırma sualı müəyyənləşdirilir, əsas fikir məhz o problemə yönəldilir;

3. *Planlaşdırma* - bu zaman əsasən layihənin yerinə yetirmə tarixi müəyyənləşdirilir, vaxt bölgüsü aparılırır, plan qurulur. Bu, şagirdlərdə məsuliyyət formalaşdırır və vaxt bölgüsünün düzgün idarəsini öyrədir;

4. *Araşdırma* - bu mərhələdə şagirdlər mənbələr axtarır mövzuyla bağlı və mənbələrdə olan məlumatları təhlil edir, müqayisə edir və ortaq nəticə çıxarır;

5. *Nəticələrin hazırlanması* - bu zaman tələbə təhlil etdiyi mənbələrdən ortaq bir nəticə çıxarır, yekun olaraq video şəklində və ya yazılı təqdimat formasında təqdim edir;

6. *Qiymətləndirmə və refleksiya* - müəllim şagirdlərin fəaliyyətlərini onlarla birgə müzakirə edir və qiymətləndirmə mərhələsi aparılır. Bu mərhələdə şagirdlərin çalışqanlığı ön plana alınaraq qiymətləndirilir [3, s.71].

Məsələn belə bir nümunə verə bilərik:

Mövzu seçilir ilk öncə, məsələn: "Səfəvi dövləti".
Qrup 1: Səfəvi dövləti Şah İsmayilin dövründə.
Qrup 2: Şah Abbasın islahatlarının Səfəvi dövləti üçün əhəmiyyəti.
Qrup 3: Səfəvi-Osmanlı müharibələri.

Layihə sonunda şagirdlər müxtəlif mənbələrdən istifadə edərək nəticələr çıxarır, xəritələr tərtib edir, şəkillərdən istifadə edərək təqdimatlar hazirlayirlar. Bu cür layihələr həm müstəqil işin inkişafına səbəb olur, həm də fənlər arası əlaqələrin əhəmiyyətini gücləndirir.

Lakin layihə əsaslı öyrənmədə bir sıra problemlərlədə qarşılaşırıq:

1. *Resurs çatışmazlığı* - bəzi məktəblərdə texnoloji vasitələrin və mənbələrin çatışmazlığı mövcuddur. Bu problemin həlli üçün elektron resurslardan istifadə etmək lazımdır. Eyni zamanda online kitabxanalardan istifadə etməklə mövzuları daha dərindən araşdırmaq olar;

2. *Vaxt məhdudiyyəti* - bəzi layihələrdə proseslər uzun çəkə bilər. Bu problemin həlli üçün isə şagird vaxtı düzgün bölməli və iş planı tərtib etməlidir ki, vaxtında çatdıra bilsin;

3. *Müəllimin hazırlığı* - bəzi müəllimlər layihə metodu ilə işləməyi bacarmırlar. Bu metoddan düzgün istifadə üçün müəllimlər üçün xüsusi təlimlər və seminarlar keçirmək lazımdır;

4. *Qiymətləndirmə çətinliyi* - qiymətləndirmə zamanı yalnız yekun nəticə deyil, eyni zamanda layihə prosesinin özü də qiymətləndirilməlidir. Qiymətləndirmə üçün müəllim hər şeyi nəzərə alaraq xüsusi kitabçada ayrıca bal verməli, sonra müzakirə nəticəsində qiymətləri açıqlamalıdır [10].

Məsələn “Azərbaycan tarixi” fənnindən bir mövzu üzərində layihə metodundan istifadə edək. Təsəvvür edək ki, layihənin mövzusu "Azərbaycan Xalq Cumhuriyyəti dövründə təhsil siyasətidir". Bu mövzu xüsusi olaraq yuxarı siniflərə, yəni 9-11-ci siniflərə təqdim oluna bilər. Çünki bu mövzu muasir dövrə aiddir. Bu mövzuda layihənin əsas məqsədi Cumhuriyyət dövründə təhsilin inkişafı və eyni zamanda müasir dövr təhsili ilə onun müqayisəsini aparmaqdır. Bu layihənin məqsədyönlü həlli üçün şagirdlərin aşağıdaki tapşırıqları yerinə yetirməlidir:

1. İlk öncə, şagirdlər 1918-1920-ci illərdə açılan məktəblər haqqında müxtəlif mənbələrdən məlumatlar toplamalıdırlar;

2. Daha sonra, dövrün görkəmli maarifçilərinin fəaliyyəti haqqında təqdimat hazırlamalı, onların dövlətimizin təhsilinin inkişafına verdikləri töhfədən bəhs etməlidirlər;

3. Tarixi şəkillərdən və sənədlərdən istifadə edərək layihəni daha maraqlı formaya gətirməlidirlər;

4. Həmçinin, “O dövrdə yaşasaydım təhsildə hansı yenilikləri etmək istəyərdim?” sualına cavab verməklə kiçik bir təqdimat hazırlayaraq öz fikirlərini səsləndirə bilərlər.

Beləliklə, bu layihə nəticəsində şagirdlər təkcə tarixi faktları öyrənmirlər, həmçinin yaradıcı düşünür, eyni zamanda hadisələri düzgün qiymətləndirmə bacarığı əldə edirlər. Şagirdlərin dərsə marağı və məsuliyyəti daha çox artır. Layihə prosesində müəllim şagirdlərin düzgün mənbə toplamasına köməklik göstərir, onları doğru internet resurslarına yönləndirir, eyni zamanda, kitabxanalarda doğru işləməyi öyrədir.

Tədqiqatçılar xüsusi olaraq qeyd edirlər ki, layihə əsaslı öyrənmə şagirdlərin fənnə olan marağını artırır, analitik düşünmə bacarığını inkişaf etdirir, eyni zamanda onların əməkdaşlıq bacarıqlarını

inkişaf etdirir. XXI əsrdə təhsilimiz tələb edir ki, şagirdlərin inkişafı üçün informasiya texnologiyalarından da istifadə edək. Tarix dərslərində də eyni zamanda informasiya texnologiyalarında geniş istifadə edərək dərsi daha maraqlı və daha aktiv bir formaya gətirə bilərik. Bunun üçün ilk öncə tarix dərslərində layihə hazirlayarkən intetaktiv xəritə istifadə olunur, "Google Earth", "Canva" kimi alətlər layihə işlərini daha maraqlı edir. Beləliklə, şagirdlər bu vasitələrlə layihə işini vizual baxımdan canlandırır və daha yadda qalan edirlər. Bu hər bir şagirdin tarixə olan marağını dahada artırır [9].

Azərbaycan təhsili kurikulum yönümlü bir programla öz istiqamətini seçib. Belə ki, burada əsas tədrisin şagird yönümlü olması qeyd edilir. Layihə əsaslı öyrənmə metodu kurikulum tələblərinə tam cavab verir. Çünki bu metodda əsas məqsəd yalnız bilik qazanmaq deyil, bilik qazanmağı düzgün öyrənməkdir. Kurikulumun digər vacib prinsiplərindən sayılan fənlərarası əlaqə də eyni zamanda layihə əsaslı öyrənmədə özünü göstərir. Belə ki, şagird bir layihəni hazırlayarkən fənlərarası əlaqə qurmağı bacarmalıdır. Bu halda müəllim ona düzgün istiqamət verərək izah etməlidir ki, məsələn, tarix haqqında layihə hazırlayarkən hansı fənlərlə əlaqə yaratmaq olar. Buna misalən, ədəbiyyat, çoğrafiya və başqa fənnləri qeyd etmək olar. Bu baxımdan da, bu metod kurikulumun əsas tələblərinə cavab verir.

Müasir dövrdə layihə əsaslı öyrənmənin daha peşəkar formada keçirmək üçün təklif olunur ki, layihə əsaslı öyrənməylə bağlı müəllimlərə seminarlar və ya təlimlər keçirilsin. Bu onları daha peşəkar formada hazırlamaqla təhsilə öz töhfəsini verəcəkdir. Eyni zamanda şagirdləri daha da həvəsləndirmək üçün məktəblərdə layihə yarışları keçirilməlidir və ən yaxşı layihə hazırlamış şagirdlərə mükafat verilməlidir. Bu onların inkişafına daha müsbət təsir göstərəcəkdir. Bəzi məktəblərdə şagirdlərin layihələrini dəstəkləmək üçün rəqəmsal resurs bazası yaradılması da məqsədyönlü olardı. Orta məktəblərdə qiymətləndirmə sistemində layihələrin rolu artırmalıdır ki, tələbələr də buna maraq göstərsin.

Layihə nəticəsində əldə olunan biliklər uzun müddət şagirdlərin yaddaşında qalır və uzun müddət bu proses davam edir. Və şagirdlərdə gələcək işləri üçündə məsuliyyət və sosial keyfiyyətlər formalaşır. Layihə əsaslı öyrənmədə əsas məsələlərdən biri də şagirdlərin motivasiyasıdır. Şagirdlərin layihələrə marağını artırmaq üçün müəllim mövzunu seçərkən şagirdin bilik və bacarığını nəzərə almalı, eyni zamanda onun maraq dairəsini bilməli və mövzunu müasir dövrlə aktual hala gətirməlidir. Məsələn: "Mənim ailəmin tarixində müstəqillik dövrü" və ya "Babamın uşaqlığı: Azərbaycan 1960-cı illərdə" və s. Bu tip mövzular şagirdlərdə daha çox marağa səbəb olur və onları daha motivasiya yönümlü işləməsinə şərait yaradır [5].

"Azərbaycan tarixi" fənnində layihə metodundan istifadə şagirdlərdə vətənpərvərlik düşüncələrinin və milli kimliyin inkişafına kömək edir. Bu metod şagirdlərin sadəcə "nə isə öyrənən" deyil, "nə isə yaradan" bir subyekt kimi çıxış etməsinə şərait yaradır. Müəllim isə artıq tədris prosesində aparıcı rol oynamır. O bu prosesdə istiqamət verici rolunu oynayır.

***Nəticə.*** Müasir dövrdə aparılmış tədqiqatlar onu göstərir ki, layihə əsaslı öyrənmə metodu bu gün təhsilimizdə ən çox istifadə olunan məqsədyönlü metodlardan biridir. Bu metod müasir kurikulumun mənimsəməsi deyil, eyni zamanda əldə etdiyi nəzəri bilikləri praktikada tədbiq etməsidir. Burada əsas rolu şagird oynayır, çünki bu metodda müəllim sadəcə istiqamətverici funksiyasını həyata keçirir. Bu yanaşma tədris prosesini orta məktəblərdə daha maraqlı və daha keyfiyyətli edir.

"Azərbaycan tarixi" fənnində layihə əsaslı öyrənmənin istifadəsi hər bir şagird də milli-mənəvi ruh yüksəkliyini artırır. Gələcəkdə də onların vətənpərvər bir vətəndaş kimi formalaşmasına təsir göstərir. Layihə zamanı hazırladıqları mövzu şagirdlərin uzun müddət yadlarında həkk olunur. Lakin ənənəvi təhsildə müəllim sadəcə materialları danışaraq şagirdə nəzəri bilik verirdi və bu tez bir zamanda unudulurdu. Artıq şagird layihə hazırlayarkən mövzunu daha geniş araşdırır və müqayisə, səbəb-nəticə əlaqələrini təyin edir. Bu onun mövzunu daha dərindən mənimsəməsinə təkan verir. Bu prosesdə şagirdlər müxtəlif mənbələrdən məlumatlar toplayır və həmin məlumatları analiz edərək, səbəb-nəticə əlaqələri çıxarır, müxtəlif mənbələrdən olan məlumatların müqayisəsin aparır və layihə təqdim edir. Bu şagird tərəfindən bir materialı geniş bir şəkildə araşdırmaqdı. Beləliklə, şagirddə tədqiqat qabiliyyətləri formalaşır.

Layihə əsaslı öyrənmənin əsas üstünlüklərindən biri şagirdin müstəqil iş fəaliyyətinin inkişaf etdirməsidir. Müstəqil iş bacarığı olan hər bir şagird sürətli düşünmə bacarığı əldə edir və eyni zamanda düzgün vaxt bölgüsü apara bilir. Şagirdlər layihə hazırlayarkən eyni zamanda komandada işləmə bacarığı qazanırlar və əməkdaşlıq fəaliyyətlərini inkişaf etdirirlər. Bu metodla müəllim şagirdi yaradıcı inkişaf edən birinə çevirir, eyni zamanda müəllim-şagird əməkdaşlığı güclənir. Gələcəkdə bu istiqamət yönümlü müəllimin hazırlıq mərhələsinin artırılması lazımdır ki, layihələr daha peşəkar formada keçirilsin. Beləliklə, layihə əsaslı öyrənmək biliklərin möhkəmlənməsinə kömək edir, mənimsənilməsinə şərait yaradır. Gələcəkdə də "Azərbaycan tarixi" fənni üzrə bu metodun yüksək formada tətbiqi təhsil üçün mühüm töhfələr verəcəkdir.

## ƏDƏBİYYAT

1. Dewey J. Experience and Education. New York: Macmillan, 1938, 96 p.
2. Kilpatrick W.H. The Project Method. Teachers College Record, 19: Septeçber 1918, p.319-335.
3. Thomas J.W. A Review of Research on Project-Based Learning. San Rafael, CA: Autodesk Foundation, 2000, 46 p.
4. Əlizadə Ə. Müasir təlim metodları. Bakı: ADPU, 2015, 314 s.
5. Məmmədova S. Layihə əsaslı öyrənmənin Azərbaycan təhsilində tətbiqi imkanları. Təhsil və Cəmiyyət, №2, 2020, s.73-86.
6. Əliyeva N. Tarix fənninin tədrisində innovativ üsullar. Bakı, Kövsər, 2022, 147 s.
7. Həsənov M. Layihə əsaslı öyrənmə və müasir tədris metodları // Təhsil və Cəmiyyət, №1 2021, s.53-59.
8. Məmmədov S. Tarix dərslərində tədqiqat fəaliyyətinin təşkili, Bakı, Elm, 2020, 246 s.
9. Anetta Markula & Maija Aksela. The key characteristics of project-based learning: how teachers implement projects in K-12 science education // Disciplinary and Interdisciplinary Science Education Research, 06 January 2022, Volume 4. - https://diser.springeropen.com/articles/10.1186/s43031-021-00042-x [13.12.2025].
10. Perry S.B. Project-Baced Learning. In The Students Guide to Learning Design and Research, 2020, p.117-123. - https://edtechbooks.org/studentguide/project-based_learning [13.12.2025].

**GULSINAR AYDINOVA**
*Master student of the Baku State University*

## APPLICATION OF PROJECT-BASED LEARNING AND DEVELOPMENT OF STUDENT INDEPENDENT WORK IN AZERBAIJAN HISTORY LESSONS

The article consisted of three parts: introduction, main part and conclusion. The article discusses the essence of project-based learning in Azerbaijani history lessons. The impact of project-based learning on the development of independent work that meets the requirements of the curriculum in the modern era is discussed. The main goal of modern education is not only to provide information to the student, but at the same time, the teacher should guide the student and involve him in project-based learning. In this case, the student can participate in the lesson not only as a passive listener, but also as an active participant by presenting his own projects and voicing his own opinions. In this case, the teacher participates in the teaching process as a guide, and the student learns to analyze independently. From this point of view, project-based learning also occupies an important place in the subject of Azerbaijani history. This method affects the formation of the student as a personality engaged in creative activity. The project method forms the student's ability to work both individually and in groups. This article outlines the main features of project-based learning, its impact on educa-

tion, as well as ideas and suggestions on what problems we face in secondary schools in the modern era and how we can solve these problems.

*Keywords:* project-based learning, student, education, Azerbaijani history, independent work, curriculum, research skills.

*Daxil olma tarixi*: 13.12.2025-ci il.
*Çapa imzalanma tarixi*: 30.01.2026-cı il.

Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları
Studies of the Turkic World Young Researchers Association
№1(13) 2026, 41-46

UOT 371.3

GÜNAY ÖMƏROVA
*Bakı Dövlət Universiteti "Tarix fənninin tədrisi metdodikası və metodologiyası" ixtisası üzrə magistrant*
**gunay.omarova0109@gmail.com**

# "AZƏRBAYCAN TARİXİ"NİN TƏDRİSİNDƏ KOOPERATİV ÖYRƏNMƏ ÜSULUNDAN İSTİFADƏNİN MƏNTİQİ TƏFƏKKÜRƏ TƏSİRİ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Aydın Məmmədov

*Məqalədə kooperativ öyrənmə üsulundan ümümtəhsil mərkəzlərində "Azərbaycan tarixi" dərslərində istifadənin məntiqi təfəkkürə təsiri mövzusu araşdırılır. Kooperativ öyrənmə üsulunun mahiyyəti, əsas xüsusiyyətləri və təlim strategiyaları haqqında məlumatlar təqdim edilir. Eyni zamanda məntiqi təfəkkürün anlamı, şagirdlər üçün bunun inkişafının əhəmiyyəti izah olunur. Kooperativ öyrənmədən istifadənin "Azərbaycan tarixi" dərslərində tətbiq edilməsinin məntiqi təfəkkürə təsiri nümunələrlə izah edilərək bu yanaşmadan istifadənin tədrisin keyfiyyətinə müsbət təsir etdiyi göstərilir.*

*Açar sözlər:* kooperativ öyrənmə, məntiqi təfəkkür, şagird fəaliyyəti, Azərbaycan tarixi, interaktiv öyrənmə, təlim üsulları.

***Giriş.*** Müasir Azərbaycanın təhsil müəssisələrində tədris keyfiyyətinin artırılması məsələsi əsas məqsəd olaraq qarşıya qoyulmuşdur. Çünki dövr dəyişildikcə, texnologiya inkişaf etdikcə yeni öyrənmə metodları, tədris yanaşmaları meydana çıxır. Həmin yeniliklərdən istifadə etməyərək ancaq ənənəvi tədris metodları ilə sıxışıb qalmaq şagirdlərdə bir növ passiv öyrənməyə səbəbiyyət verir. Lakin şagirdyönümlü, yenilikçi, şagirdlərin təfəkkürünə və inkişafına dəstək olacaq tədris metodlarından istifadə etmək dərs prosesində şagirdlərin öyrədilən mövzuya daha çox maraq göstərməsinə və fəal iştirakına şərait yaradar. Təlimdə yüksək nəticənin əldə edilməsi təlim metodunun düzgün seçilməsi və tətbiqindən asılıdır [2, s.207]. Kooperativ öyrənmə də belə üsullardan biridir. Təcrübə göstərir ki, tarix dərsində təkrar istehsal səviyyəsində yalnız şagirdlərin biliklərinin təmin olunması kifayət deyildir, bilikləri praktikada tətbiq etməyi (vərdiş və bacarıqları aşılamaq), onlardan yaradıcı surətdə istifadə etmək hazırlığını formalaşdırmağı, şagirdlərin ideya-siyasi, əmək, əxlaqi, estetik tərbiyəsini həyata keçirməyi, elmi dünyagörüşünü formalaşdırmağı öyrətmək lazımdır [1, s.345]. Kooperativ öyrənmə üsulundan istifadə etmək şagirdlərin ancaq "Azərbaycan tarixi" fənnini mənimsəməsinə deyil, eyni zamanda məntiqi təfəkkürünün inkişafına da təsir edir. Bu tədris üsulundan istifadə edərək uşaqlar mövzular arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, məsələləri təhlil və analiz edərək öz fikirlərini əsaslandıra bilirlər. Məqalədə bu məsələ haqqındakı məsələlərə aydınlıq gətiriləcək, kooperativ tədrisdən istifadənin müsbət və mənfi cəhətləri göstəriləcəkdir. Həmçinin Azərbaycan tarixindən gətirilən nümunələrlə əsaslandırılacaqdır.

***Kooperativ tədris.*** Kooperativ öyrənmə, II Dünya Müharibəsindən əvvəl bir neçə sosial nəzəriyyəçi tərəfindən yaradılmış, tələbələrin əvvəlcədən müəyyən edilmiş strukturlu fəaliyyətləri həyata keçirmək üçün kiçik həmyaşıd qruplarında iştirak etməklə öyrəndikləri xüsusi bir əməkdaşlıq öyrənmə növüdür [9, s.37]. Bu öyrənmə, tədris prosesində şagirdlərin arasında qarşılıqlı münasibətlərin və əməkdaşlığın inkişafına əsas yaradan bir yanaşmadır. Metodun əsas məqsədi şagirdlərin sosial bacarıqlarını inkişaf etdirmək, həmçinin onların dərs prosesində fəal iştirakını təmin etməkdən ibarətdir. Kooperativ öyrənmə, tələbələrin kiçik qruplar şəklində strukturlaşdırılmış fəaliyyətlər üzərində birlikdə işləməsi nəticəsində kollaborativ öyrənmənin spesifik bir forması kimi qəbul edilir [8, s.480]. Eyni

zamanda bir çox ənənəvi tədris üsullarından fərqli olaraq şagirdləri bilikləri davamlı və daha dərin surətdə mənimsəməyə sövq edir. Kooperativ öyrənmə, idrak qabiliyyətlərinin, sosial bacarıqların və motivasiyanın inkişafında daha yüksək səmərəlilik nümayiş etdirdiyinə görə digər tədris metodları ilə müqayisədə üstünlük təşkil edir [6, s.247]. Deməli, kooperativ tədris təhsil sahəsində bir çox yeniliklər və dəyişikliklər üçün əsas yaradan, əməkdaşlıq əsasında öyrənməyə təşviq edən və öyrətmə prosesində daha aktiv rol alan effektiv və müasir metodlardan biridir.

***Kooperativ tədrisin əsas xüsusiyyətləri.*** Yuxarıda da qeyd etdiyimiz kimi bu tədris üsulu tələbələr arasında qarşılıqlı əməkdaşlıq və birgə öyrənmə üzərində qurulan müasir pedaqoji yanaşmadır. Kooperativ öyrənmə, tələbələrin əldə etdikləri bilikləri aktiv şəkildə mənimsəyib tətbiq edə bildikləri bir yanaşma kimi, passiv mühazirə əsaslı ənənəvi tədris üsullarının əvəzlənməsi üçün tövsiyə olunur [10, s. 17]. Bu tədrisin əsas xüsusiyyətlərini bu cür qeyd etmək olar:

1. Fərdi məsuliyyət;
2. Müsbət qarşılıqlı asılılıq;
3. Qrup prosesi;
4. Üzbəüzə təşviqedici qarşılıqlı əlaqə;
5. Əməkdaşlıq bacarıqlarının məqsədyönlü istifadəsi;
6. Müəllimə köməkçi xidmət;
7. Mükafat.

*Fərdi məsuliyyət* – Bu tədris metodunda qazanılan uğurların heç biri bir şəxsə məxsus, yəni fərdi deyildir. Kooperativ tədris metodunda hər bir şagirdin balı onun müvəffəqiyyətinin yalnızca bir hissəsini təşkil edir. Qrupdakı bütün tələbələr öz iş paylarına görə məsuliyyət daşımalı və qrupun uğuruna töhfə vermək üçün öyrəniləcək bütün materialı tam mənimsəməlidirlər [7, s.4]. Nəticə etibarilə hansı qrupun nəaliyyət əldə etdiyi qrupdakı bütün şagirdlərin balları ilə müəyyən edilir.

*Müsbət qarşılıqlı asılılıq* – Bu prosesdə şagirdlər birlikdə eyni məqsəd uğrunda səy göstərir, bu əsasda mübarizə aparırlar və bu da onların qrupa qarşı mənsubiyyət hiss etmələrinə səbəb olur. Komanda üzvləri məqsədə çatmaq üçün bir-birinə etibar edir və qarşılıqlı asılılıq nümayiş etdirirlər [7, s.3]. Əgər şagirdlər müsbət qarşılıqlı asılılıq olmadan qruplara bölünübsə, öyrənmə şəraiti kooperativ xarakter daşımır [11, s.131].

*Qrup prosesi* – Komanda üzvləri qrup məqsədlərini müəyyən edir, mütəmadi olaraq nələrdə yaxşı olduqlarını qiymətləndirir və gələcəkdə daha səmərəli işləmək üçün ediləcək dəyişiklikləri müəyyənləşdirirlər [5, s.35]. Kooperativ tədris zamanı yaradılan kiçik qruplarda şagirdlər qısa müddət də olsa zaman keçirirlər və bu zaman qrupa bir ad seçir, qrup şüarlarını və sairi müəyyən edirlər.

*Üzbəüz təşviqedici qarşılıqlı əlaqə* - Üzbəüz qarşılıqlı əlaqə nəticəsində qrup üzvləri bir-birilərinə kömək edir, onları öyrənməyə təşviq edirlər. Həmçinin dərs prosesində daha zəif olan, prosesləri anlamaqda çətinlik çəkən şagirdlər bu zaman digər şagirdlərdən yardım alırlar ki, bu da onların fikirlərini anlamaqda tamamlayıcı, köməkçi bir rol oynayır. Bununla da həmin tələbələr də qrupdakı diskussiyalara daha sərbəst və rahat bir şəkildə qoşula bilirlər.

*Əməkdaşlıq bacarıqlarının məqsədyönlü istifadəsi* – Qrup prosesində şagirdlərə liderlik, qərarvermə, fikir ayrılıqlarının idarə olunması və bunlara bənzər bir çox bacarıqların idarə edilməsi üçün yardım və təşviq göstərilir.

*Müəllimə köməkçi xidmət* – Kooperativ tədris zamanı təşkil edilən kiçik qruplara tapşırıqlar verir, rəhbərlik edir və qrupdakı dinamikaya nəzarəti təşkil edir. Ən əsas olaraq da qrupda hər şagirdin digəri ilə birgə işlədiyi və qrupdaxili proseslərə qoşulduğu bir mühit yaradır.

*Mükafat* – Bu metod zamanı şagirdlərə verilən tapşırıqları yerinə yetirmələri üçün onların əhatə dairələri, yaşları, arzu və istəkləri, eyni zamanda mövcud şərait də nəzərə alınaraq onlara məqsədə çatmaları üçün təşviq etmək məqsədilə mükafatlar verilir. Bütün bunlar verilən tapşırıqları həll etmək üçün şagirdlərin ortaq olaraq çalışmalarına və fərdi uğurları belə öz uğurları kimi qəbul etmələrinə səbəbiyyət verir.

***Kooperativ təlim strategiyaları.*** Kooperativ təlim strategiyaları dərs prosesinin daha fəal və məhsuldar keçməsinə şərait yaradan üsullardır. Kooperativ şəkildə çalışan şaguirdlərin yalnız, özbaşına işləyənlərə nisbətən daha çox strategiya istifadə etdikləri bildirilməkdədir [4, s.64]. Düşünün-qoşalayın-paylaşın, yapboz-puzzle fəaliyyəti, qrup problemlərinin həlli, rol oyunu və ya simulyasiya, debat komandaları, qrup təqdimatı və ya posteri kimi təlim strategiyalarını nümunə kimi göstərmək mümkündür. Adı keçən strategiyaların hər birində fərqli yanaşma təqdim edilərək həm dərsin maraqlı keçməsinə şərait yaradılır, həmçinin də hər bir strategiyadan istifadə zamanı şagirdin təfəkkür səviyyəsi daha da artır.

***Məntiqi təfəkkür haqqında anlayış.*** Ümumiyyətlə təfəkkür, yəni düşüncə dediyimiz anlayış sadəcə insanlara məxsus olan və onları heyvanlardan ayırd edən başlıca xüsusiyyətdir. Çünki təfəkkür nəticəsində biz hadisələri, mövzuları qavraya və onları mühakimə edərək müəyyən nəticələrə gələ bilirik. Bunun nəticəsində də qərarlar veririk ki, bu qərarlar doğru və ya yanlış ola bilər. Qərarlarımızın, gəldiyimiz nəticələrin və etdiyimiz mühakimələrin daha düzgün olması üçün məntiqi təfəkkürdən istifadə edirik. Məntiqi təfəkkür sağlam qərarlar verə bilməyin və qarışıq problemləri həll etməyin açarıdır [3, s.437].

Bildiyimiz kimi təfəkkürün məntiqi təfəkkürdən başqa yaradıcı, tənqidi, analitik, sistemli və bunlar kimi başqa növləri vardır. Bu düşüncə növləri bir-birilə sıx əlaqəli olsa belə hər bir növün özünəməxsus xüsusiyyətlərinin olduğu da aşikardır. Məntiqi təfəkkür riyazı bir yan daşıyır, ancaq bu onun sadəcə rəqəmlərlə əlaqələndirilməli olduğuna işarə etmir. Çünki bunun təməlində düşüncə, düşüncənin təməlində, kökündə isə fəlsəfə dayanır. Bu səbəblə də sadəcə rəqəmlərlə deyil eyni zamanda dillə, tarixlə və digər elm sahələri ilə də qarşılıqlı əlaqədədir.

***"Azərbaycan tarixi"nin tədrisində məntiqi təfəkkürün inkişaf etdirilməsinin önəmi.*** Təhsil ocaqlarında şagirdlərə qədim zamanlardan bu yana Azərbaycan ərazisində baş verən hadisələri öyrətmək, onlara xalqımızın uğrunda mübarizə etdiyi, canlar verdiyi məsələləri aşılamaq önəmlidir, çünki bu həmin şagirdlərin vətənpərvərlik hislərini gücləndirir və gələcəkdə vətəninə düzgün bir şəkildə xidmət etməsinə səbəbiyyət verir. Məntiqi təfəkkürdən düzgün istifadə etməklə, onun inkişafına şərait yaratmaqla müəllimlər şagirdlərin tarixdə baş verən hadisələr arasında səbəb-nəticə əlaqələrini anlaması, mövzuları düzgün təhlil etməsi üçün yol açır.

***"Azərbaycan tarixi" dərslərində kooperativ tədrisdən istifadə.*** "Azərbaycan tarixi"nin öyrədilməsi uzun bir prosesdir. Bu səbəbdən hər sinifdə "Azərbaycan tarixi"nin müəyyən bir dövrü tədris edilir. Hər sinifdə şagirdlərin bacarığına uyğun bir şəkildə kooperativ üsuldan istifadə etmək mümkündür. Məlum olduğu kimi kooperativ tədris beş mərhələli bir prosesdir :

1) Giriş
2) Araşdırma
3) Transformasiya
4) Təqdimat
5) Refleksiya

Bu zaman ilk olaraq dərsin mövzusu müəyyən edilir və daha sonra şagirdlər 4-5 nəfərdən ibarət kiçik qruplara bölünürlər. Müəllim hər qrupa mövzu ilə əlaqəli suallar təqdim edir və şagirdlər bu istiqamətdə dərsə davam edirlər.

İlk olaraq 6-cı sinif "Azərbaycan tarixi"nin tədrisində öyrədilən "Manna dövləti" mövzusu ilə əlaqədar kooperativ tədrisdən istifadə edərək təşkil edilən dərs nümunəsinə baxaq və bu prosesin məntiqi təfəkkürə necə təsir etdiyinə də nəzər salaq.

Dərsin mövzusu: Manna dövləti.

İstifadə edilən kooperativ tədris strategiyası: Pazl (Jigsaw) üsulu.

Əvvəlcə sinifdəki şagirdləri dörd-beş nəfərdən ibarət kiçik qruplarda birləşdiririk. Qruplarda birləşməni müəllim öz istəyi ilə, şagirdlərin könüllü birləşməsi ilə və ya şagirdlərin hər birinin 1-dən 5-ə qədər sayması ilə eyni rəqəmləri bir qrupda birləşdirərək təşkil edə bilər. Həmin bu qrupları "ev qrup-

ları" adlandırırıq. Bu "ev qrupları"nın Zamua, Subi, Gilzan, Zikertu qrupları olaraq müəyyənləşdirə bilərik. Daha sonra həmin qruplardakı şagirdlərə bir alt mövzu verilir:

A şagirdinə: Manna dövlətinin tarixində İranzunun yeri nədən ibarətdir?

B şagirdinə: Manna dövlətinin daxili siyasəti necə idi?

C şagirdinə: Manna dövlətinin Urartu ilə münasibətləri necə idi?

D şagirdinə: Manna dövlətinin Assur ilə münasibətləri necə idi?

E şagirdinə: Manna dövlətinin süqutunun səbəbləri nələr idi?

Hər qrupdakı şəxslər ilk olaraq verilən suallar ətrafında düşünürlər, sonra eyni sualı araşdıran şagirdlər birləşir. Bu qrupları isə "ev qrupları"ndan fərqli olaraq "ekspert qrupları" adlandırırıq. Bu qruplarda şagirdlər müzakirələr aparır, əldə etdikləri məlumat və faktları bölüşürlər. Müzakirələr aparıldıqdan sonra şagirdlər "ekspert"dən "ev"ə qayıdır və əldə etdikləri məlumatlarla mövzunu izah edirlər. Beləliklə də bütün pazl parçaları birləşərək şagirdlər mövzunu tam şəkildə qavrayırlar. Bu strategiyadan istifadə zamanı şagirdlər əldə etdikləri məlumatları analiz və müqayisə etməyi öyrənirlər, həmçinin fərqli fikirlər arasında məntiqi əlaqələndirmə bacarıqları güclənir. Bütün bunlar nəticəsində də məntiqi və analitik düşünmə qabiliyyətləri inkişaf etmiş olur.

Eyni şəkildə VII sinifdə tədris edilən mövzulardan birinin dərs nümunəsinə nəzər yetirək.

Dərsin mövzusu: Azərbaycan XII-XIII əsrin əvvəllərində.

İstifadə edilən kooperativ təhsil strategiyası: Düşün - Cütləş – Paylaş.

Sual: Sizin fikrinizə görə, III Mənüçöhr xarici siyasətində dəyişiklik edib Səlcuqlardan uzaqlaşaraq gürcülərlə yaxınlaşamasa idi, IV Davidin hücumları yenə də ola bilərdi?

Sual təqdim edildikdən sonra şagirdlər sual ətrafında düşünürlər, bu "düşün" addımıdır. Daha sonra iki şagird birləşib qarşılıqlı fikirlərini dinləyir, fikirlər həm eyni həm də fərqli ola bilər. Bu addım "cütləş" addımı adlanır. Son olaraq "paylaş" addımında cütlər fikirlərini siniflə paylaşır.

Bu strategiyanın istifadəsi ilə şagirdlər fikirlərini əsaslandırmaq üçün güclü arqumentlər qurmalı, hadisələrin gedişatı ilə əlaqəli məntiqi əlaqələr qurmağı bacarmalıdırlar.

Növbəti nümunəyə VIII sinif dərsliyindəki mövzulardan biri ilə baxaq.

Mövzu: XVIII əsrin əvvəllərində Azərbaycanda iqtisadi və siyasi vəziyyət.

İstifadə edilən kooperativ tədris strategiyası: Dörd bucaq.

Sual : Həmin dövrdə Səfəvi dövlətinin tənəzzülünün əsas səbəbi nə idi?

Suala cavab üçün müəllim şagirdlərə dörd səbəb təklif edir və bu həmin bu səbəblərin, cavabların hər birini başqa bir küncə yazır. Səbəbləri aşağıdakı kimi qruplaşdıra bilərik:

A bucağı – şəhər iqtisadiyyatının tənəzzülü;

B bucağı – Azərbaycandan keçən İpək yolunun əhəmiyyətini itirməsi;

C bucağı – dövlət idarəçiliyində böhran;

D bucağı – pul böhranın baş verməsi.

Şagirdlər suala ən uyğun cavabın hansı olduğunu düşünür və bu səbəbin yazıldığı küncə, bucağa keçirlər. Lakin şagird hansı bucağa keçirsə burada yazılmış fikri əsaslandırmalıdır, eyni zamanda onların fikirləri heç kimin təsiri altında olmadan sərbəst olmalıdır. Daha sonra hər bucaq bir qrup olur, qrupda şagirdlər fikirlərinin doğruluğunu tarixi fakt və hadisələrlə əsaslandırır. Sonda hər qrupdan bir şagird çıxaraq fikirlərini səsləndirir. Bu strategiyanın dərslərdə tətbiqi ilə şagirdlər məntiqi təhlil aparaq öz fikirlərini fərqli fikirlərə qarşı əsaslandırmağı öyrənirlər.

İndi isə IX sinifdə tədrisi aparılan mövzulardan birinin dərs prosesini təhlil edək.

Mövzu: Burjua islahatları.

İstifadə edilən kooperativ təhsil strategiyası: Dəyirmi masa.

Sual: 1870-ci il Kəndli Əsasnaməsində nəzərdə tutulan hansı məsələlər var idi?

Qruplara bölünən şagirdlər saat əqrəbinin istiqamətində tək-tək suala cavab yazırlar. Bütün şagirdlərin iştirak etməsi üçün hər şagird yalnız bir cavabla kifayətlənir. Ən sonda qrupdakı hər kəsin fikri ümümiləşdirilərək təqdim olunur. Bu strategiyadan istifadə zamanı məntiqi təfəkkürlə bərabər tənqidi düşüncə də inkişaf edir, kooperativ sintezdən istifadə edilir.

Bildiyimiz kimi, artıq 10-cu və 11-ci sinif “Azərbaycan tarixi” dərsliklərində şagirdlərin V-IX siniflərdə öyrəndiyi mövzular yenidən öyrədilir. Aşağıda X sinifdəki dərs prosesində kooperativ tədrisdən istifadəni nəzərdən keçirəcəyik.

Mövzu: Azadlıq hərəkatı. Babək.

İstifadə edilən kooperativ təhsil strategiyası: Kub üsulu.

Bu üsulun adından da anlayacağımız kimi şagirdlərə verilən bu mövzu altı istiqamətdə - kubun üzlərinin sayı qədər təhlil edilir. Kub üsulunun tapşırıq növləri belədir :

1) təsvir et; 2) müqayisə et; 3) əlaqələndir; 4) tətbiq et; 5) tənqid et; 6) yaradıcıllıqla yanaş.

Buna nəzərən sinif 6 qrupa bölünür hər birinə bu altı tapşırıqdan birini veririk:

“Babəkin yoldaşları” qrupu – Üsyanın başlanma səbəbləri və gedişatı necə idi?

“Bəzz” qrupu – Bu üsyanın xilafətə qarşı baş verən digər üsyanlardan fərqi nə idi?

“Xürrəmilər” qrupu – Bu üsyanın digər dövrlərdəki milli hərəkatlarla nə kimi əlaqəsi var?

“Qırmızı geyinənlər” qrupu – Üsyandan hansı nəticələr öyrənilə bilər?

“Həştadsər” qrupu – Üsyanın güclü və zəif cəhətləri nələrdən ibarət idi?

“Həmədan” qrupu – Əgər Babək Səhl ibn Sumbat tərəfindən ərəblərə verilməsəydi üsyan davam edə bilərdi?

Qrupda şagirdlər onlara verilən tapşırıqları araşdırır, fikirlərini bir yerə toplayaraq qrup daxilində fikirlərini bölüşür və birgə qərar verirlər. Sonda da fikirlərini sinifə təqdim edirlər. Bu strategiya ilə şagirdlər mövzunu müxtəlif aspektlərdə araşdıraraq məntiqi təhlil qabiliyyətlərini, fərqli ssenarilər yaradaraq yaradıcı təfəkkürlərini inkişaf etdirirlər.

***Nəticə.*** “Azərbaycan tarixi”nin öyrədilməsində kooperativ tədris strategiyalarından istifadə məntiqi təfəkkürün inkişafına təsir edən effektiv yollardan biridir. Ümumitəhsil məktəblərində “Azərbaycan tarixi” kursunda kooperativ öyrənmə zamanı şagirdlər birgə fəaliyyət göstərərək tarixi hadisələrin səbəb-nəticə əlaqələrini daha dərindən anlayır, eyni zamanda fikir mübadiləsi və müzakirələr apararaq məntiqi nəticə çıxarma bacarıqlarını təkmilləşdirirlər. Ənənəvi tədris metodları ilə müqayisədə şagirdlərin analitik düşünmə, müstəqil qərarvermə qabiliyyətlərini daha da stimullaşdırır. Nəticə etibarilə bu üsulun tətbiq edilməsi dərsin keyfiyyətini artırılması ilə bərabər, həm də şagirdlərdə tənqidi, yaradıcı və əsas olaraq da məntiqi təfəkkürün formalaşmasına imkan verir.

## ƏDƏBİYYAT

1. Əmirov M. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası ( ali məktəblərin tarix fakültəsi üçün dərs vəsaiti). Bakı: ADPU nəşriyyatı, 2011, 707 s.
2. Orucova L. Tarix dərslərində məntiqi təfəkkür proseslərinin inkişafına yönəlmiş metodlardan istifadə // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 85 (8), 2018, 207-209 s.
3. Başerer, D. Bir düşünce türü olarak mantıksal düşünme // Journal of Academic Social Science 41 (41), 2024, 433-442 s.
4. Doymuş, K., Şimşek, Ü., & Şimşek, U. İşbirlikçi öğrenme yöntemi üzerine derleme: I İşbirlikçi öğrenme yöntemi ve yöntemle ilgili çalışmalar // Erzincan Üniversitesi Eğitim Fakültesi Dergisi, 7(1), 2005, 59-83 p.
5. Felder, R. M., & Brent, R. Cooperative learning // Active learning: Models from the analytical sciences, 970, 2007, 34-53 p.
6. Gull, F., & Shehzad, S. Effects of cooperative learning on students’ academic achievement // Journal of education and learning (EduLearn), 9(3), 2015, 246-255 p.
7. Li, M. P., & Lam, B. H. Cooperative learning // The Hong Kong Institute of Education, 1(3), 2013, 33-46 p.
8. Pateşan, M., Balagiu, A., & Zechia, D. The benefits of cooperative learning. In International conference knowledge-based organization, 22(2), 2016, 478-483 p.
9. Spooner, E. Interactive student centered learning: A cooperative approach to learning. Rowman & Littlefield, 2015, 188 p.

10. Tran, V. D. Does Cooperative Learning Increase Students' Motivation in Learning? // International Journal of Higher Education, 8(5), 2019, 12-20 p.
11. Tran, V. D. The effects of cooperative learning on the academic achievement and knowledge retention // International journal of higher education, 3(2), 2014, 131-140 p.

**GUNAY OMAROVA**
*Baku State University Masters' student majoring in "Method and Methodology of Teaching History"*

## THE IMPACT OF USING COOPERATIVE LEARNING METHODS ON LOGICAL THINKING IN THE TEACHING OF AZERBAIJANI HISTORY

The article explores the impact of using the cooperative learning method in teaching Azerbaijani history in general education centers on students' logical thinking. It presents information about the essence, main characteristics, and teaching strategies of the cooperative learning method. At the same time, the concept of logical thinking and the importance of its development for students are explained. The influence of applying cooperative learning in Azerbaijani history lessons on logical thinking is illustrated with examples, showing that this approach positively affects the quality of education.

*Keywords:* cooperative learning, logical thinking, student activity, History of Azerbaijan, interactive learning, teaching methods.

*Daxil olma tarixi*: 19.11.2025-ci il.
*Çapa imzalanma tarixi*: 30.01.2026-cı il.

*Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları*
*Studies of the Turkic World Young Researchers Association*

*№1(13) 2026, 47-53*

**UOT 94; UOT 1**

**MƏHƏMMƏD SƏLİM**
*Bakı Dövlət Universitetinin*
*Tarix ixtisası üzrə II kurs tələbəsi*
**mahammadsalimozturk@gmail.com**

# BİR MİLLƏTİN QƏHRƏMANI: MUSTAFA KAMAL ATATÜRK

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən

*Nə mutlu türküm deyənə!*
Mustafa Kamal Atatürk



*Hazırki məqalə savadlı tələbə, vətənpərvər gənc, bacarıqlı sərkərdə, uğurlu dövlət başçısı, Osmanlı İmperiyasının dağıntılarını Demokratik, Güclü, Daim İnkişafda olan Türkiyə Cümhuriyyətinə çevirən, bütün Türk dünyasını işğal altında assimilyasiyaya uğramaqdan qurtaran, Türk adının altında yatan qədim tarixin, böyük dövlətçilik ənənələrinin və digər bütün müqəddəs dəyərlərin yaşamasına, yayılmasına xidmət göstərən, Türk dilində danışan və düşünən bütün insanların, bir başqa sözlə, bütün bozqurdların Yol göstəricisi, Türkçülərə görə Göy Yələli Gökbörü, Türk qanı daşıyan bütün insanların arxasınca getdiyi, Türk mənsubiyyətinin daim şərəf olduğunu bizə öyrədən Ümummilli Lider Heydər*

*Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fikrincə Türk Dünyasının Ulu Öndəri Qazi Mustafa Kamal Paşa Atatürkün ildönümünə həsr olunmuşdur.*

*Məqalənin hazırlanma səbəbi Qurucu Lider Atatürkü onun ideyalarını, qərarlarını, uğurlarını, fikirlərini, bir sözlə onun həyatında baş vermiş bütün hadisələri fərqli mövqelərdən analiz edərək, fərqli aspektlərdən yanaşaraq, düzgün şəkildə başa düşməyə səy göstərməkdir. Məqalə üçün lazım olan məlumatlar əsasən onun haqda yazılmış dövrü mənbələrdən, bioqrafik ədəbiyyatlardan, elmi araşdırmalardan informasiya vasitələrindən istifadə edilməklə toplanmışdır. Hazırki məqalədə XXI əsr Azərbaycan gəncinin özünə və həmyaşıdlarına uğurlu bir örnək olaraq gördüyü zamandan uca tarixi şəxsiyyətlərdən biri ilə bağlı düşüncələri yer almaqdadır.*

*Açar sözlər:* Mustafa Kamal Atatürk, Türkiyə Cümhuriyyəti, Milli Qurtuluş Savaşı, diktator, qəhrəman, xalq, millət.

***Giriş.*** Məlum həqiqətlərdən biri də odur ki, tarix boyu qəhrəmanlıq hekayələri böyüməkdə olan gənc nəsildə torpağa, dövlətə, xalqa bağlılıq hissini gücləndirməyə xidmət etmişdir. Belə nümunələr gənclərin mənsub olduqları millətin dəyərlərinə sahib çıxmasına, onlarda, düzlük, fədakarlıq, cəsarət kimi xarakterik xüsusiyyətlərin formalaşmasına yardım edir. Təsadüfi deyildir ki, qəhrəmanlıq, qəhrəmansevərlik kimi anlayışlar, düşüncələr hər zaman aktuallığını qoruyub saxlamağı bacarmışlar. Ümumilikdə, xalqın gələcəyi olan gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması, Vətəninə, Millətinə sadiq bir vətəndaş kimi yetişməsi günümüzdə də ən önəmli məsələlərdən biridir. Və bu mənada tarixi şəxsiyyətlərin həyat və fəaliyyətlərinin öyrənilməsi zəruridir.

Yalnız Türkiyənin deyil, bütünlükdə Türk tarixinin belə görkəmli şəxsiyyələrindən biri də heç şübhəsiz Mustafa Kamal Atatürkdür. 2026-cı il Mustafa Kamal Atatürkün doğumunun 145-ci ildönümüdür. Məlum olduğu kimi, günümüzdə belə kifayət qədər Atatürk sevərlər və əleyhdarları vardır. Ölümündən neçə illər keçməsinə baxmayaraq, hələ də, haqqında danışılan, əksəriyyət tərəfindən sevgi ilə xatırlanan şəxsiyyətdir! Əleyhdarları belə, qurucusunun O olduğu dövlətin vətəndaşı olaraq fikir söyləməkdədirlər. Ən əsası isə, qurucusu olduğu dövlət yaşamaqdadır, dünyanın ən güclü dövlətlərindən birinə çevrilməkdədir!

***Atatürk və diktatura.*** Atatürk Demokratik Türkiyənin qurucusu kimi tanınsa da, haqqında bildirilən fikirlər birmənalı deyil. Məsələn, türkiyəli geoloq, araşdırmaçı Cəlal Şəngör "Dahi diktator" (2014) və ingilis hərbiçi, tarixçi Harold Courtenay Armstrong "Bozqurd: Bir diktatorun səmimi portreti" (Gray Wolf: An intimate study of a Dictator, Arthur Barker Ltd., 1932) əsərlərində onu "diktator" (diqtə edən) adlandırmaqdan çəkinmirlər.

"Diktator" Qədim Romada bütün siyasi səlahiyyətlərin əlində toplanmış olduğu şəxsdir. Rəsmi olaraq bu ünvanı ilk dəfə Yuli Sezar almışdır. Bu səlahiyyətləri ona Senat verirdi. Atatürkə də bu səlahiyyətləri TBMM vermişdi, amma o da necə deyərlər istəməsini bilirdi... Atatürkün digər diktatorlardan fərqi bütün düşüncələrini millətini təmsil edən parlamentdə (TBMM) qəbul etdirdikdən sonra həyata keçirməsi idi [3, s.7].

Qeyd etmək lazımdır ki, hər iki müəllif Atatürkə rəğbətlə yanaşmış, əsərlərində ona təriflər yağdırmışdırlar. Onların fikrincə, Atatürk insanları xarizması, ağlı, savadı, uzaqgörənliyi kimi xüsusiyyətləri ilə heyran etmiş, ona qarşı rəğbətlə baxan gözlərin, onun fikirlərini dinləyən insanların sayının artmasına səbəb olmuşdur. Bunun nəticəsində, insanlar onun fikirlərini sorğulamadan qəbul etmiş və onun istədiyi kimi hərəkət etmişdir. Bununla da, bir diktator ədası ilə insanları idarə etmiş, bu şəkildə daima uğur qazanmışdır. Təsadüfi deyil ki, Armstronqun kitabının ingilis dilində olan bəzi nəşrlərində adı "An Intimate Study of a Dictator" ("Bir diktatorun səmimi portreti") kimi verilmişdir.

Cəlal Şəngör deyir ki, "Siz gənclər mübarizə aparmalısınız, çünki Atatürkün sizin üçün çəkdiyi yol ağıl yoludur; bundan yayınmaq təkcə sizin üçün deyil, hər bir ölkə üçün fəlakət olardı… O, orta əsr dövlətini və Daş dövründə yaşayan bir xalqı götürür və birdən onları müasir bir dünyaya gətirir və bunu on beş il ərzində edir. Bəzi insanlar hələ də onun bunu necə etdiyini başa düşmürlər. Dünyadakı

bütün diktatorları bir sıraya düzün, hamısı bir tərəfdə dayanardı, hər birinin tənqid ediləcək çox şey olardı, bəziləri sadəcə cinayətkar kimi tanınardı, digər tərəfdə isə Atatürk tək dayanardı; hər kəsin heyran olduğu bir insan. Atatürk böyük və şərəfli olması ilə tarixə adını yazan insanlar kateqoriyasındadır [3, s.110-111].”

Onun iki dəfə açıq şəkildə diktəsi olmuşdur. Onlardan birini təqdim etmək istərdim. 1924-də TBMM-də keçirilən qurultayda Xilafətin ləğvi barəsində açıq qarşıdurma yarandığını görən Mustafa Kamal:

- Paşalar, siz elə bilməyiniz ki, bu baş verməyəcək. Əlbəttə baş tutacaq. Ancaq, bilməyinizi istərəm ki, bu baş verərkən bəzi başlar düşəcək!

Bunun ardından Paşalar dərhal bu qərarı təsdiq edirlər [3, s.8].

Əksər hallarda bu tipdə bir diktəyə ehtiyacı olmayan Mustafa Kamal, istəklərini əmr formasında bildirib, istədiyini alırdı. Ancaq, bunu sakit, soyuqqanlı şəkildə edərək insanların bunu diktə şəklində anlamamasını, əksinə, çox ağıllı, doğru bir fikirin tövsiyə və yaxud xahiş formasında onlara təqdim olunması kimi başa düşməklərini istəyirdi.

Bu cəsarətli fikirlər Mustafa Kamala müxalif olan şəxslər tərəfindən deyil, onu anlamaq üçün səy göstərən, elmlə məşğul olan insanlar tərəfindən söylənmiş fikirlərdir. Onlar Atatürkü dahi adlandırır və bunun ətraflı izahını verirlər: hərb sənətindəki ali savadı, biliyi, uzaqgörənliyi, analitik düşünmə qabiliyyəti kimi ona həyatı boyunca yardım etmiş bacarıq və xüsusiyyətləri.

Bəzi müasirləri və araşdırmaçıları tərəfindən “diktator” adlandırılmış və zaman-zaman adlandırılmasına davam edilən Atatürkün Demokratik düşüncə nümunəsi olan bir fikrinin səsləndirilməsinin yerinə düşəcəyini hesab edirik: “İnsanların bir şəxsə asılı olmadan yaşaya bildiyi cəmiyyət mədəni bir cəmiyyətdir”...

Atatürkdən bəhs edərkən onu “diktator” adlandıran şəxslərin dediklərini ümumiləşdirərsək, əslində “diktatordursa belə, “müşfiq diktator”dur” nəticəsinə gəlmək mümkündür. Nə deməkdir “müşfiq diktator”, kimlərin haqqında deyilir bu söz? İlk olaraq “müşfiq” sözünün mənasına nəzər yetirək. “Azərbaycan dilinin izahlı lüğəti”ndə ərəb dilinə məxsus söz olan “müşfiq”in – “şövqlü”, “şəfqətli”, “işıqlı”, “həvəsli mələk”, “mərhəmətli”, “mehriban”, “ürəyiyumşaq” mənaları olduğu bildirilir [2, s.434]. Bu baxımdan, “müşfiq diktatorluq” – avtoritar bir liderin dövlət üzərində mütləq siyasi gücünün olduğu, lakin ümumilikdə cəmiyyətin xeyrinə siyasət yürütdüyü idarəçilik sistemini ifadə edir. Bu sistemdə referendum keçirilməsi, məhdud səlahiyyətlər verilmiş nümayəndələrin seçilməsi və bu kimi s. demokratik qanunverici mexanizmlər də mövcud ola bilər. “Müşfiq diktator” isə, sadəcə özünün və tərəfdarlarının deyil, bütünlükdə cəmiyyətin maraqlarına xidmət edir. Tarixən belə sistemlər (məsələn, maarifçi mütləqiyyətlər) və belə idarəçilər olmuşdur (məsələn, Fransada Napoleon Bonapart, Rusiyada I Pyotr, Osmanlıda II Mahmud vb.). Atatürk də Türk millətinin rifahı, gələcəyi uğrunda çalışmışdır.

Atatürkü “diktator” adlandıranlara onun özünün verdiyi bir cavab da var: “Mən diktator deyiləm. Mənim güclü olduğumu deyirlər, doğru deyirlər. İstəyib də edə bilmədiyim heç bir şey yoxdur. Çünki, mən zorakı və insafsızca hərəkət etmirəm. Məncə diktator digərlərini öz iradəsinə boyun əydirəndir. Mən qəlbləri qırmaqla deyil, qəlbləri qazanmaqla idarə etmək istəyirəm” [4].

***Bir millətin qəhrəmanı.*** Bir millətin qəhrəmanı kimə deyilir? Hər daim milləti uğrunda çalışan, vuruşan, millətinin xidmətində olan insanlar vətəndaşlıq borclarını ödəyirlər. Bəs qəhrəmanı vicdanlı vətəndaşdan fərqləndirən cəhət nədir? Qəhrəman millətinin ən dar günündə ortaya çıxan, millətinin xidmətində daim olan şəxsə deyilir. Millətini dar günündə tək buraxan qəhrəman deyildir. Bir qəhrəman necə yetişir? Atatürk kimi!

Atatürkün dəqiq doğum tarixi bəlli deyil. Özü də bilmədiyini qeyd etmişdir. Ancaq, 1880-1881-də doğulduğu haqda fikirlər daha real görünür. Selanikdə ticarətlə məşğul olan atanın və ev xanımı olan ananın övladıdır. Anasının məhəllə məktəbinə getməsini istəməsi ilə atası onu Hafiz Məhməd Əfəndinin məktəbinə göndərmiş, dostu Salehin etdiyi səhvi üstlənməsinin ardından cismani cəzaya məruz qalan Mustafa, Şəmsi Əfəndinin məktəbinə getməyə başladı. 7-8 yaşında olarkən atasını itirdi. Bu itki onun həmyaşıdlarından daha tez böyüməsinə səbəb olur. Ümumiyyətlə, güclü dövlət başçı-

larının itki ilə erkən tanışması, həyatın çətinlikləri ilə uşaq yaşda üzləşmək məcburiyyətində qalması təsadüf deyil [1, s.17-19].

1910-da General Əli Rza-ın yanında Fransaya gedən Mustafa Kamal ilk öncə Parisdə, daha sonra Pikardidə oldu. Burada Avropa ordularının hansı formada təşkil edilməsi, hansı texnoloji inkişaf mərhələsində olması kimi ona gələcəkdə lazım olacaq məlumatları almış oldu [1, s.43].

Elə bu vaxtlarda İtaliya Trablisə hücuma keçdi. İtaliya sömürgəçilikdə digər dövlətlərdən geri qalmışdı. Dardanel vasitəsilə Afrikaya heç cür əsgər göndərə bilməyən Osmanlı az sayda əsgəri ilə dirənməyə çalışırdı. Mustafa Kamal Müxbir adı ilə Trablisə öz vəsaiti hesabına gəldi. Burada gözündən yaralandı, bundan başqa sinəsinə isabət edən mərmi saata dəymiş, Mustafa Kamal ölümlə burun-buruna gəlmişdi. Ənvər Paşada Trablisdə idi və Osmanlı əsgərləri ərəblərlə birlikdə müdafiə olunurdu. Sülhə gedən yolun Trablisi İtaliyaya verməkdən keçdiyini görmək istəməyən Üç Paşalar Balkanda çıxan müharibə ilə qarşı-qarşıya qaldılar. Mustafa Kamal bu müharibədə xüsusilə gerilla müharibəsi, tədricən formalaşmış birlikləri idarə etmə, kəşfiyyat toplama, logistika dəstəyi kimi hərbi təcrübə qazanmaqla yanaşı, ərəb qəbilə rəhbərləri ilə keçirdiyi görüşlər və razılaşmalar vasitəsilə diplomatiya sahəsində də mühüm təcrübə əldə etdi. Bir il boyunca İtaliyanın Trablis sahillərində sıxışıb qalmasına səbəb oldu. 1912-də Trablisdən ayrıldı [1, s.46-53].

1915-in fevralı idi. Mustafaya gələn məktub onu Millətin dar günündə dayağı olmağa çağırırdı. Onu Millətinin qəhrəmanı olmağa çağırırdı. Ürəyində bir an belə sönməyən atəş, Vətən sevgisi onu tələsməyə vadar etdi. Türkiyəyə gələn Limon Van Sanders ordunu yenidən təşkilatlandırırdı. Mustafanın uğurlu Şam və Trablis keçmişi Limon Van Sandersə çatdırılanda Mustafa Kamalı “Lider” adlandırdı və onu orduda görmək istədiyini bildirdi.

Almaniya qərbdə İngiltərə və Fransa, şərqdə isə Rusiya ilə müharibə aparırdı. Müharibədə məğlub olacaq kimi görünən Rusiyaya yardım yetişməli idi və bu yol Geliboludan keçirdi. Mustafa Kamalın Geliboluda digər komandanlardan üstünlüyü vaxt itirmədən ərazini öyrənməsi idi. Böyük Britaniya donanmasının Gelibolu istiqamətindəki hərəkətini görən Mustafa Kamal “özbaşınalıq” edərək ordunun onun bildirdiyi istiqamətə yönləndirilməsini istədi. Müsbət cavab almayan Mustafa Kamal başçılıq etdiyi əsgərlərlə birlikdə əvvəlcədən ön gördüyü əraziyə gəldi. Gecikmişdi. Donanma çıxarılmağa başlamışdı. Əsgərlər isə canlarını qurtarmaq üçün qaçırdılar. Əsgərlər təşviş içində “Komandir, bəs indi nə edək?” sualını verərkən sanki bir anlığa hər şeyi ölçüb biçən Mustafa Kamal əsgərlərə “yerə yat” əmrini verir. Özü isə, ayaq üstə dayanır. Mustafa Kamalın yardım üçün göndərdiyi əsgər baş verənləri bildirdiyində heç kim Mustafa Kamalın və onun məsuliyyət daşıdığı əsgərlərin sağ qaldığını düşünmürdü, yalnız, çıxarmanın qarşısını mümkün qədər tez almaq üçün əraziyə tələsdilər. Mustafa Kamalın “Yerə yat, nişan al” əmri verdiyi əsgərlərin hər biri şəhid oldu. Ancaq, Mustafa Kamalın iradəsi, qətiyyəti və ağlı sayəsində Avstraliyalılar sahildə sıxışıb qaldılar. Bunun ardından Limon Van Sandersin Mustafa Kamala olan hörməti daha da artdı [1, s.64-70].

Avstraliyalılarla həftələrlə vuruşan ordu donanmanı necə geri çəkilməyə vadar edəcəyini bilmirdi. Mustafa Kamal donanmanın ərazini top atəşi tutmasının ardından ordudakı qorxu, inamsızlıq hissinin qarşısını almaq üçün çox cəsarətli iki addım atır. Birincisi, soyuq bir gündə əsgərlərin soyuqdan xəstələndiyi bir vaxtda onların yanına gəlir, soyuğun əsgərə təsir etməməli olduğunu bildirir və onlara “Mən sizə ölməyi vəd edirəm, ölmək istəməyən uniformasını gözümün qarşısında atıb burdan gedə bilər” deyir. İkincisi, əsgərlərin top atəşindən qaçmaq üçün gizlənməyə yer axtardığı bir vaxtda çadırını tərk edib, siqaretini yandırır, sakit addımlarla önə yeriyir. Top atəşinin qulaq batırıcı səsi altında sakitcə sahilə baxır. Bu iki önəmli hadisə əsgərlərdə ruh yüksəkliyi oyadır. Vətən uğrunda şəhid olmaq üçün bura yollandıqlarını xatırlayırlar.

Mustafa Kamal rütbə cəhətdən aşağıda olduğu şəxslər tərəfindən belə çox böyük hörmətlə qarşılanmağa başlayır. Ənvər Paşanın Qafqazdan qayıtması və dərhal Geliboluya yollanması ilə Mustafa Kamalın planları pozulur. Mustafa Kamal donanmaya yardım gəlməmiş hücuma keçməyin vacibliyini vurğulasa da, Ənvər Paşa buna qarşı çıxır. Mustafa Kamal bunun üzərinə iki dəfə istefa verir. Mustafa Kamalın inad etdiyini görən Limon Van Sanders Ənvər Paşaya vetosunu götürməyi əmr edir. Bir Alman Marşalından öyrəndiyi “Gözlənilməz hücum” taktikası ilə Britaniya əsgərlərinin olduğu səngərə

ansızın hücum əmri verən Mustafa Kamal düşmənin qarşılıq verə bilmədən, çarəsizcə Gelibolunu tərk etməsinə səbəb olur. Mustafa Kamal bunun ardından bütün ölkədə Çanaqqala qəhrəmanı olaraq tanınır. Strateji cəhətdən ən önəmli bölgənin düşmən əlinə keçməsinin qarşısını alan Mustafa Kamal Limon Van Sandersin təkidi ilə Ənvər Paşa tərəfindən "Paşa" tituluna layiq görülür [1, s.71-82].

***Atatürk və Cümhuriyyət.*** Osmanlının çöküşünün qaçınılmaz olduğunu görən Mustafa Kamal Paşa VI Məhməd Vahdəddindən aldığı çox böyük imtiyazlarla Anadoluya getdi. VI Məhməd Vahdəddin Mustafa Kamal Paşanın gücündən istifadə edərək üsyanların yatırılmasını və öz hakimiyyətinin güclənməsini istəyirdi. Mustafa Kamal Paşa isə realist düşündü və hakimiyyətin devrilməsinin ölkə üçün daha xeyirli olacağına qərar verdi [1, s.125-126].

Mustafa Kamalın fikirləri: "Müxtəlif millətləri ortaq, ümumi bir ad altında bir araya gətirmək və bu müxtəlif qruplara bərabər hüquqlar və şərait yaratmaqla güclü bir dövlət qurmaq parlaq və cəlbedici bir siyasi vizyondur. Millətimizin güclü, xoşbəxt və sabit bir həyat sürməsi üçün dövlət sırf milli siyasət yürütməlidir və bu siyasət daxili təşkilatımızla tam uyğunlaşmalı və ona əsaslanmalıdır. Milli siyasətdən danışarkən, nəzərdə tutduğum məna və mahiyyət budur: Milli sərhədlərimiz daxilində mövcudluğumuzu qoruyub saxlayaraq, hər şeydən əvvəl öz gücümüzə güvənərək millətin və ölkənin əsl xoşbəxtliyi və rifahı üçün çalışmaq [7, s.584-587].

1923-cü il 29 oktyabrda Türkiyə Cümhuriyyətinin yaradıldığı rəsmən elan edildi. Bu, təkcə siyasi rejimin dəyişməsi deyil, eyni zamanda cəmiyyətin bütün strukturunda radikal dönüşümlərin, modernləşmə strategiyasının və yeni bir milli kimliyin yaranmasının başlanğıcı idi [7, s.1085].

Atatürkün qurduğu Cümhuriyyətin inkişafında əsas məqsəd, uzun əsrlər boyunca geri qalmış və parçalanmış bir cəmiyyəti qısa müddətdə müasir dünyanın səviyyəsinə qaldırmaq idi. Bu məqsədlə həyata keçirilən islahatlar genişmiqyaslı və sistemli xarakter daşıyırdı [7, s.1195]. Hüquq sistemi tamamilə yenidən qurularaq şəriət qanunları əvəzinə müasir, sekulyar hüquq sistemi qəbul edildi [5, s.59-60]; qadın hüquqları genişləndirildi, qadınlara seçmək və seçilmək hüququ verildi [8, s.520-527], təhsil sistemi vahid, dünyəvi və dövlət nəzarətində bir struktura çevrildi [8, s.378-383]; hərbi və inzibati orqanlarda köhnə quruluşun bütün qalıqları aradan qaldırılaraq rasional, meritokratiyaya əsaslanan mexanizmlər tətbiq edildi [8, s.149-150; s.153-158].

Latın əlifbasının qəbulu [8, s.387-397], dil və tarix institutlarının yaradılması [8, 404-405, 407], milli mədəniyyətin sistemləşdirilməsi həm modernləşmə, həm də milli kimliyin yenidən qurulması baxımından mühüm rol oynadı. İqtisadi sahədə dövlətçilik (etatizm) modeli mənimsənilərək sənayeləşmə proqramları həyata keçirildi, yeni fabriklər və iqtisadi mərkəzlər yaradıldı, kənd təsərrüfatı modernləşdirildi və ölkənin maliyyə sistemi sabitləşdirildi [8, 312-327].

Atatürkün qoyduğu təməllər onun vəfatından sonra da Türkiyənin inkişaf istiqamətini müəyyənləşdirən strateji xətt kimi davam etdi. İkinci Dünya Müharibəsi dövründə Türkiyə neytral siyasət yürütməklə dövlətin bütövlüyünü qorudu və savaşdan sonra çoxpartiyalı siyasi sistemə keçid baş verdi. Demokratikləşmə prosesinin genişlənməsi ilə Türkiyə beynəlxalq sistemə daha sıx inteqrasiya olundu, NATO-ya üzvlük əldə edildi və Qərb təhlükəsizlik blokunun bir hissəsinə çevrildi [8, s.1027-1030, 1227]. Bu, həm hərbi həm də siyasi baxımdan Türkiyənin rolunu gücləndirdi.

1950-1980-ci illərdə sənayeləşmə davam etdi, infrastruktura böyük sərmayələr qoyuldu və ölkənin şəhərləşmə səviyyəsi sürətlə artdı [8, s.1102-1116; 9, s.149-159]. Bununla yanaşı, siyasi çətinliklər, hökumət böhranları və hərbi müdaxilələr modernləşmə yolunun müəyyən dövrlərdə ləngiməsinə səbəb oldu, lakin Atatürkün müəyyənləşdirdiyi dövlətçilik prinsipləri ölkənin əsas yönünü qoruyub saxladı.

1980-ci illərdən etibarən Türkiyə iqtisadiyyatı yeni mərhələyə keçərək liberallaşma və bazar iqtisadiyyatına inteqrasiya strategiyasını mənimsədi. İxrac yönlü iqtisadi modelə keçid, özəl sektorun güclənməsi və beynəlxalq kapital axınlarının artması ölkənin iqtisadi inkişaf tempini yüksəltdi [9, s.674-716].

2000-ci illərdə isə Türkiyə həm iqtisadi, həm də siyasi cəhətdən regionun ən mühüm dövlətlərindən birinə çevrilərək infrastruktur, sənaye, müdafiə texnologiyaları və enerji sahəsində böyük transformasiya yaşadı. Buna baxmayaraq, demokratik institutların sabitliyi, hüququn aliliyi və siyasi qütb-

ləşmə kimi problemlər zaman-zaman ölkənin inkişaf yolunda çətinliklər yaratdı. Buna rəğmən, dövlətin mövcud konstitusional əsasları və idarəçilik strukturu Atatürkün müəyyənləşdirdiyi müasir, dünyəvi və milli dövlət modelinin davamlı olduğunu göstərir. Müasir dövrdə Türkiyənin inkişafı çoxşaxəlidir və geniş sahələri əhatə edir. Sənaye istehsalının artması, yüksək texnologiyalı hərbi sənayenin inkişafı, avtomobil, elektronika və müdafiə sahələrində ixrac potensialının yüksəlməsi ölkəni regional gücə çevirmişdir. Eyni zamanda böyük şəhərlərdə urbanizasiya sürətlənmiş, turizm sektoru dünya səviyyəsində rəqabət apara biləcək səviyyəyə çatmış, enerji layihələri Türkiyəni qlobal strateji xəritədə mühüm tranzit ölkəyə çevirmişdir. Bütün bu uğurların arxasında duran əsas ideoloji baza, Atatürkün müəyyənləşdirdiyi modernləşmə fəlsəfəsi, milli dövlət şüuru və müstəqillik prinsipidir.

***Atatürk və müasir Türk dünyası.*** Atatürk şəxsiyyətini anlamaq Türklərin qədim tarixindən parlaq gələcəyinə doğru körpüdür. Özünün də qeyd etdiyi kimi, Türkiyə Cümhuriyyətindən 5 il əvvəl müstəqilliyini qazanmış, Demokratik Respublika qurmuş Azərbaycanlılar və Asiyadaki Qan qardaşlarımız Qazaxlar, Qırğızlar, Türkmənlər, Özbəklər, müstəqilliklərini bərpa edərkən və Türk dövləti kimi, Türk xalqı kimi yaşayan, yaşadan, Azərbaycan xüsusunda Heydər Əliyev, İlham Əliyev kimi dövlət başçılarının Öndərləri olaraq gördükləri Atatürkün açdığı yolla getdilər. Atatürkün yolu ilə getmək, Türk olan qan qardaşlarının bozqurdlartək bir hərəkət etməsi, Gökbörünün iziylə getməsi deməkdir. Atatürkün yolu Uludur. Onun fikirləri Uludur. “Nə mutlu Türküm deyənə!” sözlərinin müəllifi Atatürk Türk millətçiliyinin hədəfinin “...inkişaf və tərəqqi yolunda, millətlərarası münasibətlərdə bütün müasir millətlərlə bərabər, onlarla uyumluluq içində hərəkət etmək, Türk toplumunun özəl xarakterini və müstəqil kimliyini qorumaq” olduğunu qeyd edirdi [6, s.9]. Bu gün Türk dünyasının əmin addımlarla Mustafa Kamal Atatürkün söylədiyi bu yolla irəliləməkdə olduğunu görməkdəyik.

***Nəticə.*** Son dövrlərdə araşdırmaçılar arasında müxtəlif tarixi, ictimai-siyasi məsələlərlə bağlı “olmasaydı nə olardı?” sualı aktuallıq qazanmaqdadır. Bu baxımddan “Atatürk olmasaydı nə olardı?” sualı ilə bağlı fikirlərimi qeyd etmək istərdim. Atatürkün siyasi və sosial islahatları olmasaydı, Türkiyənin bu gün beynəlxalq aləmdə mühüm rol oynaması və öz regional mövqeyini qoruyub saxlaması mümkün olmazdı. Onun yaratdığı dövlət modeli həm milli kimliyi qorumuş, həm də cəmiyyəti qlobal proseslərə açıq, rasional düşüncəyə dayanan bir istiqamətə yönləndirmişdir.

Bu gün Türkiyə Cümhuriyyətinin qarşısında duran əsas vəzifələr demokratik institutların gücləndirilməsi, iqtisadi dayanıqlığın artırılması, elm və texnologiya sahəsində daha böyük sıçrayışların edilməsi və cəmiyyətin modern dəyərlərlə harmonik inkişafının təmin edilməsidir. Bu vəzifələrin icrası Atatürkün müəyyənləşdirdiyi inkişaf xəttinin davamı kimi qiymətləndirilir. Çünki Atatürk üçün modernləşmə prosesi heç vaxt başa çatan bir proses deyildi; onun fikrincə, inkişaf daim inkişaf edən, yeni şəraitə uyğunlaşan və gələcəyi qurmağa yönəlmiş bir dinamizm tələb edirdi.

Bu günün gənclərindən biri olaraq isə, məqaləmi Mustafa Kamal Atatürkün bu sözləri ilə yekunlaşdırmağın yerinə düşəcəyini hesab edirəm: “Ey Türk gəncliyi! Sizin birinci vəzifəniz Türk müstəqilliyini, Türk dövlətçiliyini sonsuzadək qorumaq və müdafiə etməkdir. Bunun üçün lazımi güc damarlanızdakı soylu qanda vardır” [7, s.1197].

## ƏDƏBİYYAT

1. Armstrong H.C. Gray Wolf: An intimate study of a dictator. Arthur Barker Ltd, 1932, 352 s.- https://ia803402.us.archive.org/4/items/dli.ministry.13644/E13411_Grey_Wolf_Mustafa_Memal_An_Intimate_Study_Of_A_Dictator_text.pdf [30.12.2025].
2. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə (I cild - 744 s.,II cild - 792 s.,III cild - 672 s.,IV cild - 712 s.). III cild. Bakı, "Şərq - Qərb", 2006, 672s.- https://archive.org/details/azerdic/Azerbaijani%20Explanatory%20Dictionary%2C%20v.%203%20%28Q-R%29/mode/1up [30.12.2025].
3. Celal Şengör. Dahi Diktatör. Ka Kitap, 2015, 113 s.- https://archive.org/details/A.M.CelalengrDahiDiktatrKaKitap2015/mode/1up [30.12.2025].

4. Diktatürlük ve Cihangirlik / T.C. Atatürk Ararştırma Merkezi, 27 Hazıran 2023. - https://atam.gov.tr/diktatorluk-ve-cihangirlik/ [30.12.2025].
5. Hukukun Temel Kavramları. Anadolu Üniversitesi Yayımları. Ed.: Ufuk Aydın, Elvan Derken. 2020, 214 s.
6. Mehmet Saray. Atatürk'ün Türklük Ve Milliyetçilik Anlayışı. Ankara, AtAM, 2022, 219 s.- https://atam.gov.tr/wp-content/uploads/2023/06/ATATURKUN-TURKLUK-VE-MILLIYETCILIK-ANLAYISI-1.pdf [30.12.2025].
7. Mustafa Kamal Atatürk. Nutuk-Söylev. II cilt: 1920-1927, Türk Tarih Kurumu, 2019, 581 s.- https://archive.org/details/76281iii-ciltpdf/76280%2Cii-ciltpdf/page/n3/mode/1up [30.12.2025].
8. Türkiye Cumhuriyeti Tarihi-II. Yeni Türkiye: Türkiye Cumhuriyeti. Ed.: Neşe Özden, Mehmet Temel, Yasemin Doğaner vb. Ankara, AtAM, 2023, 1568 s. - https://atam.gov.tr/wp-content/uploads/2023/10/TURKIYE-CUMHURIYETI-TARIHI-2a-1.pdf
9. Türkiye Cumhuriyeti Tarihi-III. Yeni Türkiye: Türkiye Cumhuriyeti. Ed.: Zehra Aslan, Mustafa Sıtkı Bilgin, Halil Bal Mehmet Hacısalihoğlu, Ali Satan. Ankara, AtAM, 2023, 958 s. - https://atam.gov.tr/wp-content/uploads/2023/10/TURKIYE-CUMHURIYETI-TARIHI-3b.pdf [30.12.2025].

**MAHAMMAD SALIM**
*Second year student of History at Baku State University*

## HERO OF A NATION: MUSTAFA KEMAL ATATÜRK

*What a happiness to be a Turk!*
Mustafa Kemal Atatürk

This article is dedicated to the anniversary of the Great Leader of the Turkic World, according to the National Leader Heydar Aliyev and the President of the Republic of Azerbaijan Ilham Aliyev who taught us that bein Turk is always an honor, Gazi Mustafa Kemal Pasha Atatürk, who was an educated student, a patriotic young man, a skilled commander, a successful head of state, who transformed the ruins of the Ottoman Empire into the Democratic, Strong, and Constantly Developing Republic of Türkiye, who saved the entire Turkic world from being assimilated under occupation, who served the survival and spread of the ancient history, great statehood traditions, and all other sacred values underlying the name of Turk, who served all people who speak and think in Turkic languages, in other words, who was the Guide of all the grey wolves, the Blue-Tailed Gokbörü for Turkists, who was followed by all people who carried Turkic blood.

The reason for preparing the article is to try to understand the ideas, decisions, successes, thoughts of the founding leader Ataturk, with analysing all the events that took place in his life from different positions and from different aspects correctly. The information for the article was collected mainly from period sources, biographical literatures, scientific researchs written about him with using information tools. This article contains the thoughts of the 21st century Azerbaijani young about one of the great historical figures of time which he sees as a successful example for himself and his peers.

*Keywords*: Mustafa Kemal Ataturk, Republic of Türkiye, National Liberation War, dictator, hero, people, nation.

*Daxil olma tarixi*: 30.12.2025-ci il.
*Çapa imzalanma tarixi*: 30.01.2026-cı il.

Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları
Studies of the Turkic World Young Researchers Association

№1(13) 2026, 54-59

UOT 327; UOT 332.1

**NƏRMİN HƏSƏNOVA**
*Bakı Dövlət Universitetinin*
*Qafqaz xalqlarının tarixi ixtisasının II kurs magistrantı*
**hnarmin03@gmail.com**

# MÜASİR DÖVRDƏ AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİ İQTİSADİ MÜSTƏVİDƏ

*Elmi rəhbər:*
Tarix üzrə fəlsəfə doktoru Leyla Vaqif qızı

*Məqalədə Türkiyə-Azərbaycan münasibətlərinin iqtisadi, geostrateji və eyni zamanda neft-qaz sektoru üzərində qurulan strateji münsibətlər öz əksini tapmışdır. Qeyd edilir ki, hələ XX əsrin sonu XXI əsrin əvvələrində sürətli inkişaf dinamikası ilə inkişaf edən iqtisadi əlaqələr gün keçdikcə daha da artır və eləcə də bu inkişaf digər sahələrə də siraət etmişdir. XXI əsrdə müasir proseslərin qovşağında neftə artan tələbat Azərbaycanın Türkiyə vasitəsilə Avropaya göndərməsinə yol açaraq ikitərəfli əməkdaşlığın əhəmiyyəti bir qədər də artırmışdır. Həmçinin, Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Xam Neft Boru Kəməri Layihəsinin bu tərəfdaşlığa birbaşa təsiri danılmazdır. Layihə çərçivəsində qoyulan investisiyalar ticarət əlaqələrini nəinki Qafqaz mühitində, eyni zamanda bütün Avropa boyu irəliləməsinə şərait yaradır. Xüsusilə də, münasibətlərin yüksək səviyyədə artması hərbi sənaye və hərbi ticarətin hər iki dövlət üçün faydalı şəkildə inkişafına yol açması da məqalədə qeyd olunan məsələlərə aiddir.*

*Açar sözlər:* Türkiyə-Azərbaycan münasibətləri, qaz, iqtisadi inkişaf, neft layihələri, ikitərəfli ticarət, TANAP.

***Giriş.*** Qloballaşma ilə xarici ticarət və beynəlxalq maliyyə əməkdaşlığı sürətlə dəyişilməsi ilə ölkələr, xüsusilə ticarət sahəsində əməkdaşlığın üstünlüklərindən istifadə edərək kommersiya əməkdaşlığı üçün lazımi strukturlar yaradırlar. Azərbaycan və Türkiyə müstəqil türk dövlətləri arasında iqtisadi əməkdaşlığa rəhbərlik etmək təcrübəsi olan iki ölkədir. Siyasi və hərbi amillər Türkiyə-Azərbaycan münasibətlərində daha çox nəzərə çarparaq geniş araşdırma mövzusu olsa da, iqtisadi amilin əhəmiyyəti qəbul edilir. İqtisadi əlaqələr ildən-ilə Türkiyə-Azərbaycan münasibətlərinin ən güclü körpülərindən birini formalaşdırmışdır.

İkitərəfli münasibətlərin əsasında vurğulanan "bir millət - iki dövlət" prinsipi dayansa da, onların strateji ölçüsü güclənməkdədir. Xüsusilə, XX əsrin əvvəllərində təməli möhkəmlənməyə başlayan bir sıra strateji münasibətlər XX əsrin sonu-XXI əsrin əvvəllərində atılan addımlar və verilən qərarlarla yüksək səviyyəyə qaldırıldı. Münasibətlərin bu aspekti 16 avqust 2010-cu ildə imzalanan hərtərəfli Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım Sazişi ilə dərinləşərək 15 sentyabr 2010-cu ildə iki ölkə arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması haqqında Birgə Bəyannamənin imzalanması ilə strateji münasibətləri yeni bir səviyəyə gətirdi [7, s.27]. Bütün bu addımlar ikitərəfli iqtisadi münasibətlərin hüquqi bazası üçün çox vacib rol oynayırdı. Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım Sazişinin "İqtisadi Əməkdaşlıq Məsələləri" adlanan X, XII və XIII maddələri ikitərəfli iqtisadi əlaqələrin əsaslarını müəyyən edir. Türkiyə ilə Azərbaycan arasında iqtisadi münasibətlərin ən vacib aspektləri qarşılıqlı investisiyalar, ikitərəfli ticarət, regional və qlobal enerji və nəqliyyat layihələri fonunda daha geniş vüsət tapmışdır. Bu tədqiqatda iqtisadi münasibətlərin hüquqi infrastrukturu, ikitərəfli iqtisadi münasibətlər üçün önəmli strukturların funksionallığı, ikitərəfli ticarət əlaqələri əsasında qarşılıqlı investisiyalar və oxşar məsələlər təhlil edilir.

***İqtisadi münasibətlərin tarixi.*** İqtisadi münasibətlərin hüquqi əsasları baxımından ən vacib sənədlərdən biri 2 noyabr 1992-ci ildə Ankarada imzalanmış “Türkiyə Hökuməti ilə Azərbaycan Hökuməti arasında 1 noyabr 1992-ci il tarixli Ticarət və İqtisadi Əməkdaşlıq Sazişi”dir. Sazişə görə, tərəflər

mövcud milli qanunvericiliklərinə uyğun olaraq, mövcud imkanlar çərçivəsində uzunmüddətli, sabit və balanslaşdırılmış şəkildə ticarət münasibətlərini inkişaf etdirmək və eyni zamanda şaxələndirmək üçün lazımi tədbirlər görməli idilər. II maddədə tərəflərin ölkə daxilində idxal və ixraca tətbiq olunan gömrük rüsumları, vergilər və digər prosedurlarla bağlı millət prinsipini bir-birinə tətbiq edəcəkləri qeyd olunurdu. VII maddədə isə tərəflərin öz bazarlarını və üçüncü ölkələri hədəf alan birgə müəssisələrin yaradılması yolu ilə dövlətlərarası investisiyaları və texnoloji əməkdaşlıqlar təşviq edəcəkləri vurğulanırdı [3]. Sazişə əsasən, Türkiyə və Azərbaycan kənd təsərrüfatı məhsullarının emalı, yüngül sənaye müəssisələrinin yaradılması və modernləşdirilməsi, sənayeyə birgə investisiyalar, neft-kimya, neft kəşfiyyatı, istehsalı və neft sənayesi sahəsində əməkdaşlıq, tikinti sektoru, nəqliyyat və telekommunikasiya, mədənçilik və turizm sahələrində əməkdaşlığa üstünlük verəcəklərini bildiriblər. Əslində isə 1991-ci ildən bəri Türkiyə və Azərbaycan arasında müxtəlif sahələri əhatə edən və iki ölkə arasında iqtisadi və ticari münasibətlərin hüquqi əsasını təşkil edən 200-dən çox müqavilə, protokol və eyni məzmunda sənədlər imzalansa da, bu sənədlərin bəziləri müxtəlif səbəblərdən qüvvəyə minməmişdir.

2 noyabr 1992-ci ildə Ankarada Baş nazir Süleyman Dəmirəl və Azərbaycan Prezidenti Əbülfəz Elçibəy arasında imzalanmış "Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında Əməkdaşlıq və Həmrəylik Sazişi" digər məsələlərlə yanaşı, iqtisadi məsələləri də əhatə edirdi [2].

Azərbaycan Prezidenti Heydər Əliyevin 1994-cü il 8-10 fevral tarixlərində Türkiyəyə səfəri zamanı ikitərəfli iqtisadi münasibətlərlə bağlı mühüm sənədlər imzalanmışdır. Türkiyə Prezidenti Süleyman Dəmirəl və Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən 10 il müddətinə imzalanmış "Dostluq və Çoxtərəfli Əməkdaşlığın İnkişafı Haqqında Saziş" də iqtisadi məsələlərlə bağlı qaydalar tətbiq etmişdir. İqtisadi münasibətlər xüsusilə bu sazişin XI, XII, XIII və XIV maddələrində tənzimlənmişdir [5, s.134]. Ticarət və iqtisadi əməkdaşlığın ikitərəfli münasibətlərin mühüm aspektini təşkil etdiyini nəzərə alaraq, tərəflər öz aralarında ticarət həcmini ölkələrinin potensial resurslarına uyğun səviyyəyə çatdırmaq və birgə kapital qoyuluşu layihələrinin hazırlanması, həyata keçirilməsi üçün əlverişli mühit yaratmaq barədə razılığa gəlmişlər. Onlar ticarət, iqtisadi və maliyyə sahələrində əməkdaşlıq üçün daha əlverişli bir rejim quracaqlarını, ölkə iqtisadiyyatına töhfə verəcək investisiyaları asanlaşdıracaqlarını və malların, sərnişinlərin öz dəniz, çay və hava limanları, dəmir yolları, avtomobil yolları, neft və təbii qaz boru kəmərləri vasitəsilə daşınması üçün daha məqsədəuyğun bir mühit yaradacaqlarını təsdiqlədilər.



İkitərəfli iqtisadi əlaqələrdə əsas qurum olan Türkiyə və Azərbaycan arasında İqtisadi və Ticarət Əlaqələri üzrə Birgə İqtisadi Komissiyanın iclası 25 fevral 1997-ci ildə keçirilmişdir. Müxtəlif səbəblərdən II iclas uzun müddət təxirə salınmışdır. 29 mart 2001-ci ildə keçirilən II iclasda qarşılıqlı ittihamlarla dolu gərgin atmosfer hökm sürmüşdür. Əslində, bu dövrdə ikitərəfli iqtisadi münasibətlər müsbət dinamikadan uzaq idi. Həmin illərdə türk investorlarına və türk yük maşınlarına İran və Rusiya

həmkarlarına nisbətən əlverişsiz şərtlərin təmin edilməsi ilə bağlı şiddətli tənqidlər var idi. Bu məsələ Türkiyə prezidenti Əhməd Necdət Sezər tərəfindən 17 sentyabr 2001-ci ildə Bakıya səfəri zamanı Azərbaycan prezidenti Heydər Əliyevlə yüksək səviyyəli görüş zamanı mətbuat qarşısında qaldırılmış, tərəflər arasında qısamüddətli gərginliyə səbəb olmuşdu. Problem Türkiyənin Azərbaycanla ticarətinin qeyri-kafiliyi və Azərbaycana türk investisiyalarının aşağı səviyyədə olması ilə yanaşı, 2003-cü ilin yanvar ayının əvvəlində Bakıda olan AK Partiya sədri Rəcəb Tayyib Ərdoğan tərəfindən qaldırılmışdı.

Digər tərəfdən, Türkiyə iş adamlarının Azərbaycana investisiya qoyması məsələsi, eləcə də hakimiyyətinin son illərində Heydər Əliyevin daha çox diqqət yetirdiyi bir mövzulardan idi. 13 oktyabr 2002-ci ildə Heydər Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) iclasında iştirak etmək üçün İstanbula gələrək 15 oktyabrda orada türk iş adamları ilə görüş keçirdi. Görüş zamanı İlham Əliyev türk iş adamlarını Bakıya dəvət etdi və geniş miqyaslı problemlərini həll edəcəyini bildirdi. 11 noyabr 2002-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev Prezident sarayında Türkiyənin tanınmış türk iş adamları Sakıp Sabancı, Bülent Eczacıbaşı, Nihat Koçyiğit ilə görüş zamanı onların Azərbaycanla bağlı fikirləri dinlənildi və potensial investisiya imkanları qiymətləndirildi, lakin sonradan Azərbaycana investisiya qoymaqdan çəkindilər.

Birgə İqtisadi Komissiyanın III iclası 12-14 aprel 2005-ci il tarixlərində Türkiyədə keçirilmişdir. Görüşdə İcra Planının ən qısa müddətdə tamamlanaraq həyata keçirilməsi barədə razılıq əldə edilmişdir və bu planın 13 apreldə imzalanmış uzunmüddətli iqtisadi və ticarət əməkdaşlığı haqqında müqaviləyə uyğun olaraq düzəldilməsi razılaşdırılmışdır. Türkiyə-Azərbaycan Birgə İqtisadi Komissiyasının dördüncü iclası 27-28 iyul 2006-cı il tarixlərində Bakıda, beşinci iclas isə 11 aprel 2008-ci il tarixlərində İstanbulda keçirilmişdir [8]. Bunlar arasında birgə Ticarət Palatasının yaradılması, Azərbaycanın türk həmkarları üçün viza tələblərinin sadələşdirilməsi, türk yük maşınları üçün nəqliyyat problemlərinin həlli, Türkiyə Neft Korporasiyasının (TPAO) törəmə şirkəti olan TPIC ilə ARDNŞ arasında bərpa olunan alternativ enerji mənbələrinə (günəş, külək, biokütlə və su elektrik stansiyaları) yönəlmiş çoxşaxəli əməkdaşlığın gücləndirilməsi və Azərbaycan-Türkiyə biznes forumunun canlandırılması xüsusi diqqəti cəlb etmişdir. Türkiyə Prezidenti Abdullah Gülün Azərbaycana səfəri zamanı 6 noyabr 2007-ci ildə iki ölkə arasında uzunmüddətli iqtisadi əməkdaşlıq proqramı və icra planı imzalanmışdır ki, burada məqsəd iqtisadi münasibətlərdə problemli sahələri minimuma endirmək və ortaq inkişaf perspektivlərini gücləndirmək idi.

***Enerji, investisiyalar və iqtisadi əlaqələrdə ikili ticarət.*** Enerji sahəsində əməkdaşlıq iki ölkə arasında iqtisadi münasibətlərin ən vacib aspektlərindən birini təşkil edir. İlkin danışıqlar Ayaz Mütəllibov dövründə, Əbülfəz Elçibəy dövründə TPAO-nun Azərbaycanda neft hasilatında əhəmiyyətli payla iştirak edəcəyi düşünülürdü. Lakin, TPAO sonda Heydər Əliyev hökuməti dövründə Azəri-Çıraq-Günəşli (AÇG) neft yataqlarının işlənməsi üçün imzalanmış Əsrin Müqaviləsində 6,75% pay aldı ki, 2017-ci ilin sonuna olan məlumata görə, TPAO Azərbaycanda üç kəşfiyyat, işlənmə-istehsal layihəsində və iki boru kəməri layihəsində tərəfdaş olmuşdur. Bunlar AÇG (TP 6,75%), Şahdəniz (TP 19%) və Alov (TP 10%) Kəşfiyyat Layihəsidir (TPAO). Həmçinin, şirkət Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Xam Neft Boru Kəməri Layihəsinin həyata keçirilməsi üçün yaradılmış BTC Co. şirkətində 6,53% və Şahdəniz qazını Gürcüstan-Türkiyə sərhədinə daşıyan Cənubi Qafqaz Təbii Qaz Boru Kəməri Layihəsində 19% hissəyə malikdir. Bundan əvvəl, şirkət həmçinin Kürdəsi layihəsində 5% hissəyə malik idi. Bununla bağlı, 10 iyul 2017-ci ildə XXII Dünya Neft Konqresi çərçivəsində prezidentlərin tədbirindəki nitqinə toxunmaq lazımdır. O demişdir: "Türkiyə və Azərbaycan bütün məsələlərdə bir-birinin yanındadır. Bizim əməkdaşlığımız çoxşaxəlidir və bütün sahələri əhatə edir. O cümlədən, enerji sahəsində Türkiyə-Azərbaycan əməkdaşlığı, işbirliyi bir çox önəmli strateji layihələrin icrasına imkan verdi. Onların arasında Bakı-Tbilisi-Ceyhan neft kəmərini, Bakı-Tbilisi-Ərzurum qaz kəmərini və TANAP layihəsini xüsusi qeyd etmək istərdim. Bu layihələr nəinki regionumuzun, dünyanın enerji xəritəsini yenidən tərtib etdi" [9].

Xəzər dənizinin şərq sahillərində yerləşən ölkələrdən Azərbaycan neftinin və təbii qazının, eləcə də Azərbaycan vasitəsilə Türkiyəyə, oradan III ölkələrə nəqli böyük iqtisadi əhəmiyyət kəsb edir. Bu kontekstdə çoxtərəfli əməkdaşlıq Bakı-Tbilisi-Ceyhan Neft Boru Kəməri, Bakı-Tbilisi-Ərzurum Cə-

nubi Qafqaz Təbii Qaz Boru Kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu layihələri uğurla davam edir. Əvvəlcə çox vacib hesab edilən Nabukko layihəsi həyata keçirilməsə də, Azərbaycan və Türkiyənin birgə həyata keçirdiyi TANAP layihəsi enerji əməkdaşlığına əhəmiyyətli dərəcədə yeni bir rəng qatmışdır. Türkiyə Respublikası Xarici İşlər Nazirliyinin məlumatına görə, Türkiyənin Azərbaycana investisiyaları 9 milyard dolları keçib. Lakin Anadolu Agentliyinin Türkiyə Statistika İnstitutuna əsaslanaraq hazırladığı hesabatda göstərilir ki, 2001-2014-cü illər arasında Türkiyə hökuməti və Türkiyə şirkətlərinin Azərbaycanın neft və qeyri-neft sektorlarına qoyduğu investisiyaların ümumi həcmi 45 milyard dolları keçib.

Türkiyə Azərbaycanın ən böyük xarici ticarət tərəfdaşlarından biridir. İki ölkə arasında ticarət həcmi ümumilikdə artaraq 1992-ci ildə təxminən iki yüz milyon dollardan 2016-cı ilin sonuna qədər iki yarım milyard dollara çatsa da, ikitərəfli ticarətin artdığı dövrlərdə Türkiyə və Azərbaycanda devalvasiyalar ticarət həcminin ABŞ dolları ifadəsində azalmasına səbəb olmuşdur. 2015-ci il üçün ümumi ticarət həcmi Türkiyə İqtisadiyyat Nazirliyinin məlumatlarında 5,1 milyard dollar, Türkiyə Statistika İnstitutunun məlumatlarında 2,13 milyard dollar və Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarında 2,65 milyard dollar olaraq göstərilmişdir [7, s.29]. Mövcud ikitərəfli ticarət həcminə ehtiyac potensialından aşağıdır və hər iki ölkənin rəsmiləri daha da genişlənməyə ehtiyac olduğunu vurğulayırlar.

Ölkənin sərbəst bazar qaydalarını tətbiq etməsinə baxmayaraq, bəzi sektorlarda inhisarçılıq ticarəti məhdudlaşdıra bilər ki, 0,5-15% gömrük tariflərinə baxmayaraq, gömrükdə qeyri-tarif rüsumlarının toplanması başqa bir problem yaradır.

Türkiyə-Azərbaycan Ali Şurasının Bakıda keçirilən beşinci iclası 2 dəfə ləğv edilmişdir. Bu baxımdan, 17 fevral 2016-cı il və 13 mart 2016-cı il tarixlərində Ankarada baş verən terror aktlarından sonra Tükiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ilk olaraq 2016-cı il fevralın 18-də, daha sonra isə 15 mart 2016-cı ildə ictimaiyyətə açıqlanan Azərbaycana səfərləri davam etdirib. Şuranın VI sessiyası 31 oktyabr 2017-ci ildə Bakıda, VII sessiyası isə 24 aprel 2018-ci ildə Ankarada keçirilib. Son illər Azərbaycandan Türkiyəyə investisiyalar kəskin şəkildə artıb, lakin bu investisiyaların böyük həcmdə kapital tələb edən sahələrdə cəmlənməsi ikitərəfli iqtisadi əlaqələrin strateji mövqedə olduğunu göstərir. İki ölkə arasında ən mühüm iqtisadi əlaqələr enerji sahəsində əməkdaşlıqlar hesab olunur. Türkiyə-Azərbaycan güc əlaqələrinin əsası Azərbaycan müstəqillik əldə edəndə qoyulub.

Azərbaycan Türkiyəyə 17 milyarddan çox sərmayə qoyub və 2019-cu ildə isə 12 milyarddan çox sərmayəyə çatmışdır. Nəticədə, siyasi və hərbi əlaqələrin mədəni aspektləri Azərbaycanın indiki durumuna və Azərbaycan-Türkiyə münasibətlərinin vəziyyətinə daha yaxındır.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 15-16 iyun 2021-ci il tarixlərində Azərbaycana səfəri zamanı o, Prezident İlham Əliyevlə Şuşada olmuşdur. "Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq əlaqələri"nin imzalanması xüsusi simvolik xarakter daşıyır. Müharibə 44 gün davam etdi və Şuşaya səfərlər də daxil olmaqla, regionun gələcəyi ilə bağlı konstruktiv ideyalar təqdim edildi. Əslində, Azərbaycan-Türkiyə münasibətləri hər zaman dərin və praqmatik, özünəməxsus keyfiyyəti ilə seçilib. Azərbaycan-Türkiyə münasibətlərində adətən tarixi, mədəni, sosial və digər amillər diqqət mərkəzində olur, xüsusən də Türkiyənin son 15 ildə gördüyü işlər təqdirə layiqdir. Eyni zamanda, daha fəal regional və qlobal xarici siyasət, Azərbaycanın balans siyasətində analoji strategiyanı həyata keçirmək addımları iki ölkə arasında hərbi əlaqələrin keyfiyyətini kifayət qədər artırmışdır. Şuşa bəyannaməsi və səfər zamanı qaldırılan məsələlər təkcə Türkiyə-Azərbaycan münasibətləri üçün deyil, həm də bütövlükdə regionun gələcəyi üçün önəmli hesab edilmişdir. KİV-in məlumatına görə, tərəflər Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi, siyasi, nəqliyyat əlaqələrinin bərpası və region ölkələri arasında münasibətlərin normallaşdırılması, ikitərəfli əlaqələri gücləndirmək üçün səylərini davam etdirilir. Şuşa Türk dünyanın tarixi və mədəni beşiyi olaraq təyin olunur. Türkdilli Ölkələrin Əməkdaşlıq Şurası (Türk Şurası), Beynəlxalq Türk Təhsili, Türk Mədəniyyəti və İrsi Fondu, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (Türk Cəmiyyəti) və Türkdilli Ölkələrin Konqresi təşəbbüslə öz fəaliyyətinin davam etdirir. Şuşa Bəyannaməsi Zəngəzur dəhlizindən

bəhs edilirərək bu baxımdan birinci sənəd hesab olunur. Dəhlizin açılması isə ümumən Türkiyə ilə Azərbaycan arasında regional əməkdaşlıq üçün strateji əhəmiyyət kəsb etməkdədir.



***Nəticə***. Azərbaycanın mövcud vəziyyəti və Azərbaycan-Türkiyə münasibətlərinin təbiəti (tarixi, mədəni, milli və dini əlaqələrin önəmi) səbəbindən münasibətlərin siyasi, hərbi və mədəni aspektlərinin getdikcə daha çox diqqət mərkəzində olduğu məlumdur. Beynəlxalq münasibətlər sistemində getdikcə daha çox yer tutan iqtisadi amil Azərbaycan-Türkiyə münasibətlərinin də ən vacib aspektlərindən birini təşkil edir. Türkiyə ilə Azərbaycan arasında ticarət həcmi ümumilikdə artaraq 1992-ci ildə olan təxminən iki yüz milyon dollardan 2016-cı ilin sonuna qədər təxminən iki yarım milyard dollara çatıb.

Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım Sazişinin imzalanması və Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması iqtisadi münasibətlərin inkişafına, eləcə də münasibətlərin digər aspektlərinə töhfə verir. Bu, hər iki ölkənin rəsmiləri arasında rəsmi təmasların artmasına və vacib məsələlər üzrə çoxsaylı sənədlərin imzalanmasına səbəb olmuşdur.

## ƏDƏBİYYAT

1. Aras O.N. Azerbaycan'ın Hazar Ekonomisi ve Stratejisi, Der Yayınları, İstanbul, 2001, 298 s.
2. Aslan Y. Elçibey, Aliyev ve Azerbaycan Fenomeni // Avrasya Etüdleri, İlkbahar 1994, Sayı 1, s.57-65.
3. Aydın Ü. Türkiye Ve Azerbaycan Arasında Ulaştırma İşbirliği: Çağdaş İpek Yolu Üzerine Bölgesel Ve Küresel Bir Analiz // Kafkas Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Bahar 2017, Sayı 19, s.207-223.
4. Sinan Oğan. Azerbaycanın Tamamlanamayan Ekonomisi ve Türkiye ile Ekonomik İlişkileri // Avrasya Dosyası Dergisi, Azerbaycan Özel Sayısı, Cilt 7, Sayı 1, Yıl: 2001, s.56-85.
5. Büşra Ersanlı Behar. Bağımsızlığın ilk yılları: Azerbaycan, Kazakistan, Kırgızistan, Özbekistan, Türkmenistan. Kültür Bakanlığı Yayınları, 1994, 298 s.
6. Kabasakal Öner. Türkiye'nin Türk Cumhuriyetleri ile Ekonomik ve Ticari İlişkileri // Avrasya Etüdleri, Bağımsızlığın 10 Yılında Türk Cumhuriyetleri Özel Sayısı, Yaz 2001, Sayı: 20, s.37-60.
7. Keskin Köylü M. Türkiye'nin Güney Kafkasya Ülkeleri İle Finansal Bağları ve Bölgedeki Ticari Varlığı // Toros Üniversitesi İİSBF Sosyal Bilimler Dergisi, Cilt 4, Sayı 7 Aralık 2017, ss.20-32.

8. Suleymanov E., Bulut C., and Rahmanov F. (2017) Economic and Political Analysis of Azerbaijan Turkey Energy Relations // Journal of Management, Economics and Industrial Organization (JOMEINO). Vol.:1, No:2, p.24-44.
9. İlham Əliyev 22-ci Dünya Neft Konqresində prezidentlərin tədbirində iştirak edib / Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı, 10 iyul 2017. - https://president.az/az/articles/view/24513 [19.11.2025].

**NARMIN HASANOVA**
*2nd year master student of Baku State University*

**AZERBAIJAN-TURKISH RELATIONS IN THE MODERN PERIOD IN THE ECONOMIC LEVEL**

The article reflects the economic, geostrategic and strategic relations established in the oil and gas sector of Turkish-Azerbaijani relations. It is noted that economic relations, which developed with rapid development dynamics at the end of the 20th and beginning of the 21st centuries, are increasing day by day, and this development is also spreading to other areas. In the 21st century, the growing demand for oil at the crossroads of modern processes has increased the importance of bilateral cooperation by allowing Azerbaijan to export oil to Europe via Turkey. Also, the direct impact of the Baku-Tbilisi-Ceyhan Main Export Crude Oil Pipeline Project on this partnership is undeniable. Investments made within the project create conditions for the advancement of trade relations not only in the Caucasus, but also throughout Europe. In particular, the fact that the high level of relations has paved the way for the beneficial development of the military industry and military trade for both states is also among the issues mentioned in the article.

*Keywords:* Turkey-Azerbaijan relations, gas, economic development, oil projects, bilateral trade, TANAP.

*Daxil olma tarixi*: 19.11.2025-ci il.
*Çapa imzalanma tarixi*: 30.01.2026-cı il.

*Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları*
*Studies of the Turkic World Young Researchers Association*
*№1(13) 2026, 60-68*

**UOT 94; UOT 327**

**PƏNAH XANLAYEV**
*Bakı Dövlət Universiteti*
*Tarix ixtisası üzrə IV kurs tələbəsi*
ORCID ID: 0009-0001-7167-653X
**penahxanlayev@gmail.com**

**VÜSAL HÜSEYNOV**
*Bakı Dövlət Universiteti*
*Tarix ixtisası IV kurs tələbəsi*
**Vusalhusain@gmail.com**

# OSMANLININ ÇOXMƏDƏNİYYƏTLİ BİRGƏYAŞAYIŞ TƏCRÜBƏSİ – PAX OTTOMANA

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən

*Məqalədə Pax Ottomana anlayışı Osmanlı İmperiyasında sülh və sabitliyin formalaşması çərçivəsində araşdırılır. Osmanlı tarixində Pax Ottomana modeli, yalnız hərbi gücə əsaslanmayan, eyni zamanda hüquqi, iqtisadi və inzibati mexanizmlərin qarşılıqlı fəaliyyəti ilə formalaşmış kompleks bir sistem kimi xüsusi yerə malikdir. Araşdırmada imperiyanın geniş coğrafiyada müxtəlif etnik və dini icmalar arasında hüquqi sabitliyin təmin edilməsi, vahid iqtisadi məkanın yaradılması və regional və beynəlxalq ticarət yollarının qorunması kimi əsas elementlər ilkin qaynaqların müqayisəli təhlili və müasir tarixşünaslıq kontekstində qiymətləndirilmişdir. Məqalədə həmçinin Osmanlı dövlətinin beynəlxalq iqtisadi mövqeyi, xüsusilə İpək yolu və Şərqi Aralıq dənizi hövzəsində strateji ticarət marşrutlarına nəzarəti, ticarət yollarının qorunması üçün görülən inzibati tədbirlər və dövlətin iqtisadi inteqrasiyanı təmin edən bazar və nəqliyyat şəbəkələri təhlil edilmişdir. Bu yanaşma, Pax Ottomananın iqtisadi-inzibati əsaslarını möhkəmləndirən, müxtəlif etnik və dini icmalar arasında əməkdaşlığı mümkün edən mexanizmlərin necə işlədiyini göstərir.*

*Açar sözlər:* Pax Ottomana, Pax Romana, Millət sistemi, Nizam-ı Aləm, Üçüncü Roma, Qeyri-müsəlman.

***Giriş.*** Tarix boyunca qurulan imperiyalar idarə etdikləri geniş ərazilərdə davamlı sülh və inkişaf mühitini təmin etməyə çalışmış, bu vasitə ilə öz siyasi hakimiyyətlərini legitimləşdirməyə cəhd göstərmişlər. Bu tip idarəçilik modeli tarixşünaslıqda ümumiləşdirilmiş şəkildə "Pax" anlayışı ilə ifadə olunur. "Pax" sözü latın dilində "sülh" mənasını verir. Müasir tarixşünaslıqda imperiya miqyasında daxili sülh və sabitlik dövrünün ilk klassik nümunəsi Roma İmperiyası ilə əlaqələndirilir. Təxminən, iki əsrlik bir zaman kəsiyini əhatə edən "Pax Romana" anlayışı, Roma imperiya sisteminin siyasi, hüquqi və inzibati strukturları vasitəsilə təmin edilən nizam və sabitlik dövrünü ifadə edir [26, s.15]. Edvard Gibbon qeyd edirdi ki, əgər dünya tarixində insanlığın ən xoşbəxt və firavan olduğu dövrü müəyyən etmək tələb olunsaydı, bu dövr Antoninlər sülaləsinin hakimiyyəti altında formalaşan və Pax Romananın kulminasiya nöqtəsi hesab edilən zaman kəsiyi olardı [10, s.120]. Bununla belə, bu baxışın müəyyən dərəcədə idealist və mükəmməliyyətçi xarakter daşıdığını da qeyd etmək lazımdır. Cəmiyyətin bütün sosial təbəqələrini və coğrafiyasını tam əhatə edən ümumi bir sülh dövrünün mövcud olub-olmaması mübahisəli olsa da, "Pax" anlayışının imperiyalar kontekstində ideoloji və legitimləşdirici bir vasitə kimi dəyərləndirilməsi daha məqsədəuyğundur. İdeoloji baxımdan Pax Romana, Romanın siyasi və hərbi hakimiyyətinin universallığına, onun hüquqi normalarına, institutlarına, adət-ənənələrinə və mədəni dəyərlərinə əsaslanırdı. Bu çərçivədə Roma sivilizasiyasının yayılması və dünyanın fəthi ilahi iradənin (providentia) romalılara həvalə etdiyi bir missiya kimi təqdim edilirdi. Beləliklə,

Roma İmperiyası özünü yalnız fəth edən deyil, eyni zamanda fəth etdiyi toplumları "sivilləşdirən" tarixi və mənəvi bir güc kimi qavrayır və təqdim edirdi [26, s.26].

Osmanlı barışı (Pax Ottomana) isə tarixdə Roma barışının (Pax Romana) son və fərqli bir modeli kimi qiymətləndirilir. Bu, xüsusilə, qərb tarixçiləri tərəfindən Osmanlı idarəsi altında yaşayan müxtəlif xalqların uzunmüddətli uyğunlaşma və nisbi sabitliyini izah etmək məqsədilə istifadə olunan anlayışdır. Romada olduğu kimi Osmanlı İmperiyasında da dünyanı idarə etmək, dünyaya sülh və ədalət gətirmək kimi universal bir hakimiyyət konsepsiyası mövcud idi. Bu konsepsiya Osmanlı tarixşünaslığında "Nizam-ı Aləm" məfkurəsi ilə ifadə olunurdu [23, s.11]. "Nizam-ı Aləm" anlayışı Osmanlı dövlətinin öz cəmiyyətinə münasibətdə formalaşdırdığı siyasəti ehtiva edir və sistemin əsasını ədalət praktikasının təşkili təşkil edir. İctimai nizam anlayışını da özündə birləşdirən bu məfkurə, Osmanlının beynəlxalq münasibətlər sistemində mərkəzi mövqedə olduğu düşüncəsi ilə qovuşduqda, yalnız daxili sərhədlərlə məhdudlaşmayan, xarici məkanlara da təsir göstərən imperial bir xarakter qazanırdı [19, s.196].

Bu baxımdan Nizam-ı Aləm həm daxili, həm də xarici aləmi ilahi ədalət çərçivəsində idarə etməyi və sülhü yaymağı hədəfləyən imperial-ideoloji bir anlayış kimi çıxış edirdi. Osmanlı fəthlərinin legitimliyi probleminin əsasını da məhz bu məfkurə təşkil edirdi. Osmanlı İmperiyası bu ideoloji çərçivədə fəth etdiyi ərazilərdə klassik mənada müstəmləkəçilik siyasəti yürütməmişdir. Bununla belə, müstəmləkəçilik anlayışının tarixi imperiyalar üçün qaçılmaz olduğu fikri də nəzərə alınmalıdır. Osmanlı nümunəsində bu proses əsasən devşirmə sistemi ilə məhdudlaşmışdır. XIX əsrin Avropa müstəmləkəçi imperiyaları ilə eyni kateqoriyada dəyərləndirilməsi metodoloji baxımdan doğru hesab edilə bilməz. Fikrimizcə, devşirmə sistemini müxtəlif etnik mənşəyə sahib dövlət təbəələrinin dövlət struktur və hərbi sistemdə iştirakını təmin edən imperial bir institut kimi dəyərləndirmək olar.

İslam hüququnda dünyanın Darül-İslam və Darül-hərb kimi iki əsas kateqoriyaya bölünməsi də Nizam-ı Aləm anlayışının normativ əsaslarını formalaşdırırdı. Darül-İslam müsəlmanların hakimiyyəti altında olan və sülhün təmin edildiyi əraziləri ifadə etdiyi halda, Darül-hərb müsəlman idarəçiliyində olmayan və sülh müqaviləsi mövcud olmayan məkanlar kimi qəbul edilirdi. Bu çərçivədə Nizam-ı Aləm məfkurəsinin əsas məqsədi Darül-İslam daxilində əmin-amanlığı qorumaq və Darül-hərbi İslam siyasi-hüquqi məkanına daxil etmək idi [8, s.16]

***Millət sistemi.*** Osmanlı İmperiyasında fərqli dini və etnik icmaların uzunmüddətli birgəyaşayışını mümkün edən əsas institusional mexanizmlərdən biri millət sistemi olmuşdur. Bu sistem imperiya idarəçiliyində yalnız inzibati zərurətdən doğan praktik bir model deyil, eyni zamanda İslam hüququnun qeyri-müsəlmanlarla münasibətləri tənzimləyən prinsipləri ilə formalaşmış normativ çərçivəyə söykənirdi. Qurani-Kərimdə və İslam hüquq ənənəsində "əhli-kitab" anlayışı çərçivəsində qeyri-müsəlman icmaların can, mal və inanc təhlükəsizliyinin qorunması prinsipi, Osmanlı dövlət təcrübəsində institusional forma alaraq millət sistemi vasitəsilə tətbiq edilmişdir.

Millətlər sisteminin nə olduğuna keçməzdən öncə millət məfhumunun Osmanlıda hansı mənada işləndiyini aydınlaşdırmaq lazımdır. Osmanlının ən böyük lüğəti olan "Kâmûs-ı Türkî"yə görə millət termini dini anlam daşımaqla, bir dinə və ya məzhəbə mənsub olan toplumu ifadə edir [27, s.1082]. Bu baxımdan, Osmanlı dövlətinin hakimiyyəti altında olan toplumların din və məzhəb müxtəlifliyi əsasında təşkil olunub idarə olunmasına "millət sistemi" deyilir [18, s.59]. Osmanlı idarəçiliyi müxtəlif inanclara sahib toplumların muxtar şəkildə təşkil olunmalarına və öz qayda-qanunları ilə idarə olunmalarına şərait yaratmışdır. Millət sisteminin əsası yuxarıda qeyd etdiyimiz kimi zimmət hüququna dayanır [18, s.59].

Osmanlı Millət sistemi çoxqatlı hüquqi nizam üzərində qurulmuşdu. Dövlət idarəçiliyində şəriət hüququ, örfi hüquq və fərqli dini icmaların özünəməxsus hüquq normaları paralel şəkildə tətbiq edilirdi. Bu da müxtəlif etnik-dini qrupların öz daxili işlərini nizamla idarə etməsini mümkün edirdi. Bu cür sistemin köklərini İslam siyasi düşüncəsində dini və etnik müxtəlifliyə göstərilən tolerantlığın ideoloji əsaslarının yer aldığı Qurani-Kərimdə tapa bilərik. Məsələn, "Hucurat" surəsində belə buyurulur: "Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Bir-birinizi tanıyasınız deyə xalqlara və qəbilələrə

ayırdıq”[1]. Bu ayə çərçivəsində etnik müxtəliflik İlahi iradənin təcəllisi kimi qəbul edilir və sosial-siyasi strukturda müxtəlif xalqların mövcudluğu təbii sayılır. Eyni şəkildə, “Ənkəbut” surəsində Kitab əhlinə münasibətdə tolerantlığın dini əsasını formalaşdırır: "Kitab əhlinin zülm edənləri (cizyə verməyənləri, sizinlə vuruşmaq istəyənləri) istisna olmaqla, onlarla ən gözəl tərzdə mücadilə edin! (Onlarla xoş rəftar edib ürəklərini ələ alın və özünüzdən incitməyin. Onların kobudluğuna nəzakətlə, qəzəblərinə soyuqqanlıqla cavab verin"[2]. Bu ayələrdən çıxan hüquqi-siyasi nəticə Zimmət hüququdur. Zimmilər İslam dövləti çərçivəsində yaşayan, müsəlmanlığı qəbul etməyən, lakin dövlətin müdafiəsi və asayişi qarşılığında müəyyən vergi (cizyə) ödəyən qeyri-müsəlman təbəələr idi. Osmanlı imperiyasında da bu prinsip davam etdirilmişdi: qeyri-müsəlman icmalar öz dini liderləri vasitəsilə daxili işlərini idarə edir, ailə hüququ, miras, nikah kimi məsələləri öz dini qanunlarına uyğun şəkildə həll edirdilər. Dövlət isə onların təhlükəsizliyini təmin edir və ümumi hüquqi çərçivəni qoruyurdu. Beləcə, Millət sistemi müxtəlif dini-etnik qrupların həm hüquqi muxtariyyətini, həm də imperiya daxilində siyasi-ictimai inteqrasiyasını təmin edən sabit bir mexanizmə çevrilmişdi. Osmanlının çoxmillətli sistemə keçməsi və bununla da çoxqatlı hüquq sisteminin formalaşması Osmanlının XIV əsrdən başlayan Balkan fəthlərindən sonradır. Bu prosesin zirvə nöqtəsi isə 1453-cü ildə Konstantinopolun fəth olunmasıdır. Osmanlıda millət sistemi Fateh Sultan Mehmetin İstanbul fəth etməsindən sonra Ortodoks Patriki təyin etməsi və Ortodokslara daxili işlərdə və öz dini işlərində geniş muxtariyyət və azadlıq verməsi ilə başlamışdır. Həmçinin, Musəvilərə də öz rəhbərlərini seçmək hüququ verilmiş, Yahudi hamambaşı ilə Erməni, Rum və Ortodoks Patriklərin İstanbulda bərabər şəkildə mövcud olmaları təmin edilərək millətlər arasında bərabərlik yaradılmışdır [18, s.60; 28, s.189-192]. Fateh dövründə qeyri-müsəlman toplumların millət sistemi daxilində yaşamalarının hüquqi əsasları formalaşmışdır.

Osmanlı Dövlətində müxtəliflik və çoxmədəniyyətlilik Millət sisteminin əsasını təşkil edir. Say etibarilə ən çox olan millətlər Müsəlman, Rum, Yəhudi və Erməni milləti idi (bax: cədvəl №1).

*Cədvəl 1.*

**Osmanlıda yaşayam qeyri-müsəlmanlar**

| *Etnik kimliyə görə* | | | | | | | *Dini kimliyə görə* | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| *Hellen* | *Slavyan* | *Sami* | *Erməni* | *Uqor* | *Kartvel* | *Digər* | *Xritianlar* | | *Musəvilər* |
| Yunanlar | Xorvatlar | Ərəblər | Ermənilər | Macarlar | Gürcülər | Çingənələr | Katoliklər | Katolik olmayanlar | Rəbbanilər |
| Rumlar | Bolqarlar | Yəhudilər | | | | Rumınlar | Latınlar | Ortodokslar | Qərailər |
| | Serblər | Suryanilər | | | | | Gildanilər | Qriqoryanlar | Samirilər |
| | Polyaklar | Həbəşlər | | | | | Marunilər | Nəstunilər | |
| | Albanlar | Qiptilər | | | | | Qiptilər | Yəqubilər | |
| | | | | | | | | Melkitlər | |
| | | | | | | | | Mandeilər | |

*Mənbə: Ercan, Y. Osmanlı yönetiminde Gayrimüslimler. Kuruluştan Tanizmat'a kadar sosyal, ekonomik ve hukuki durumları. Ankara, Turan Kitabevi Yayınları, 2001, s.52-53.*

Müsəlmanlar "millət-i hakimə", yəni hakim millət adlanırdı. Bu mənada Millət sisteminin əsasına belə tərif vermək olar: Darül-İslam daxilində yaşayan qeyri-müsəlmanlar Türk-müsəlman hakimiyyətini qəbul edir, əvəzində isə özlərinin daxili həyatları, örf-adətləri, dini ehkamlarını azad şəkildə yaşamaq və mühafizə etmək imkanı qazandırdı. Osmanlı millət sistemində fərqli etnik və dini toplumların qorunması əsas olduğu üçün dövlət heç bir zaman mədəni və inzibati cəhətdən assimilyasiya prosesi aparmamışdır. Bu barədə əsas siyasət: zimmət hüququna əsasən qeyri-müsəlmanların dövlət

[1] *Hucurat surəsi, 13*
[2] *Ənkəbut surəsi, 46*

hakimiyyətini tanıması və qayda-qanuna tabe olmasıdır [18, s.61]. Bunu hakim millət və tabe millətlər arasında olan bir "İctimai müqavilə" kimi də dəyərləndirmək mümkündür[3].

***Pax Ottomananın qurulmasında hüququn rolu.*** Pax Ottomananın təsis olunmasına hüquq sisteminin böyük rolu vardır. Hüquq sisteminin bütün imperiya ərazisində sabit və müəyyən olması və kadı və digər inzibati-məhkəmə işçilərinin Müsəlman, qeyri-müsəlman ayırmadan hüququ təsis etmələri çox mühüm təsir gücünə malik olmuşdur [3, s.82]. Osmanlı hüquq sisteminin şər'i və örfi olaraq 2 hissəyə ayırmaq lazımdır. Şər'i hüquq sırf Qurani-Kərim və fiqh elmi ilə bağlı olmuşdur. Örfi hüquq isə ehtiyac yarandığı halda hökmdar tərəfindən verilən fərman, qanunnamələr və yerli-məhəlli hüququn əsasında formalaşmışdır [3, s.84]. Osmanlıda bu iki hüquq sisteminin maraqlı cəhəti şər'i və örfi hüququn eyni müəssisə - Kadılar tərəfindən tətbiq olunması idi. Bu nümunədə Osmanlıda Şər'i və Örfi hüquq bir-birini tamamlamışdır [3, s.87]. Zimmət hüququna görə qeyri-müsəlman əhali dövlətin hakimiyyət və hüquq sisteminin tanıyır və vergi verir, əvəzində dövlət də onun hüquq və azadlıqlarını təmin edir. Bu mənada İslam dövlətlərində, o cümlədən Osmanlıda Müsəlman və qeyri-müsəlman əhali hüquq qarşısında bərabər hesab olunurdu [7, s.316]. Bir Zimmini öldürən müsəlman eynən müsəlmanı öldürmüş kimi cəza alırdı. Əgər müsəlman zimminin malını qarət edirsə dövlət zərərçəkənin dəymiş zərərini ödəyir, hətta müsəlman hüququnda haram sayılan donuz və şərab kimi mallar qarət olunsa belə bunun əvəzi ödənilirdi [7, s.317]. "Dində məcburiyyət yoxdur"[4] ayəsi ilə zimmilər heç vaxt öz inanclarına görə təzyiqə məruz qalmırdı. Zimmilər aralarında yaranmış hər hansı mübahisə ilə bağlı şəriət məhkəməsinə, və ya öz dini rəislərinə, kilsə və ya dini müəssisələrinə müraciət edə bilirdilər [7, s.318]. Zimmilərin şəriət hüquqda qadağan olan davranışları - müxtəlif evlənmə adətləri, şərab içmələri və s. əgər öz dini qaydalarına görə caiz hesab olunurdusa onda şəriət məhkəməsi onlara hər hansı cəza tətbiq etmirdi [7, s.319]. Zimmilərdən başqa Osmanlıda Müstəmənlər və ya Əcnəbilər adlanan ticarət, ziyarət və s. məqsədlərlə ölkəyə gəlmiş xaricilər qrupu da var idi ki, onların da hüquqi vəziyyətləri zimmilərlə demək olar ki, eyni idi. 1535-ci ildə Sultan Süleyman dövründə Fransaya verilmiş kapitulyasiyada Osmanlıda olan fransızların öz aralarındakı hüquqi məsələləri ilə bağlı öz konsulluq və ya səfarətxanalarına müraciət etmələrinə icazə verilirdi. Əgər tərəflərdən biri müsəlman olardısa məsələyə şəriət məhkəməsində digər tərəfin iştirakı ilə tərcüməçilərle həyata keçirilirdi. 4000 axçadan çox dəyərə malik məsələlərə Divan-ı Humayünda konsulluğun əməkdaşının iştirakı ilə baxılırdı [7, s.327].

Qeyri-Müsəlmanların dövlət ərazisində hərəkət hüququ tanınmış, onların yalnız müqəddəs Məkkə və Mədinə şəhərlərinə girmələri qadağan olunmuşdu. Buna paralel olaraq da müsəlmanların qeyri-müsəlman dini abidələri - kilsə, monastr, xüsusilə Qüdsdəki müqəddəs yerlərə girmələri qadağan olunmuşdu [8, s.173]. Qeyri-müsəlmanlardan müsəlmanlara kəsilən cəzadan az cəza kəsilməsi və az vergi alınması barədə Fateh qanunnaməsində bir sıra qeydlər vardır. Evlənmə-boşanma və miras kimi məsələlərdə qeyri-müsəlman əhali olduqda sərbəst buraxılmış, rəsmi məhkəmə dairələri bu məsələlərə demək olar ki, müdaxilə etməmişlər. Bu məsələlər zimmilərin öz dini-örfi qaydaları ilə yoluna qoyulmuşdu [8, s.296]. Qeyri-müsəlmanların vergiyə cəlb edilməsi məsələsində də Osmanlı dövlətinin xeyli yumşaq davrandığını qeyd etmək lazımdır. Dövrün Şeyxülislamı Əbusuud Əfəndinin fətvalarına əsasən qeyri-müsəlmanlardan cizyə vergisi Maddi vəziyyət və gəlirinə görə alınır, gəliri 200 dirhəmdən az olanlardan vergi alınmırdı [6, s.97] (bax: cədvəl №2). Pax Ottomana"nın mahiyyəti imperiyanın xristianlara qarşı olan münasibətində daha aydın anlaşılır. 1204-1261-ci illərdə Konstantinopolun katoliklərin işğalında olduğu dönəmdən sonra Konstantinopol rumlarının katoliklər yerinə türkləri üstün tutduğu açıqdır. Bizansın son grandükü Notaras və Gennadius kimi ruhani liderlərin katoliklərdən yardım istənməsi xüsusunda "Bu məmləkətdə Frenk'in çörəyindənsə Türkün qılıncını üstün tuturuq" demələri buna bir sübutdur [22, s.159]. Fatih Sultan Mehmet dövründə Dunay çayına qədər Belqrad şəhəri istisna olmaqla bütün Balkan ərazi fəth olunmuşdu. Balkan xristianların Osmanlı təbəliyindən

---

[3] *İctimai müqavilə - insanların təbii halda sahib olduqları hüquq və azadlıqların bir hissəsinin təhlükəsizlik və nizamın təsisi üçün dövlətə güzəştə getmələrini bildirən siyasi-ictimai anlayışdır. Əsasən, Fransız filosofu Jan Jak Russonun "İctimai müqavilə (Du contrat social)" əsərindən sonra yayılmışdır.*

[4] *Bəqərə surəsi, 256*

dini cəhətdən daha azad olduqları açıqdır. Məsələn, XV əsrin I yarısında Bosniya və Bolqarıstan ərazisində kilsə feodalizminə və İsaya ilahi sifətlər aid edilməsinə etiraz edən Boqomilizm hərəkatı yayılmışdı. Boqomillərə qarşı Macar Kralı IV Bela tərəfindən başlayan təzyiqlər bölgənin Osmanlı fəthiylə sona çatdı [22, s.184-85]. Bu mənada 1463-cü ildə Bosniyanın fəthindən sonra Fateh Katolik rahiblərə tam dini azadlıq və dinlərini qoruma hüquq verən əhdnaməsi vardır [22, s.186].

***İnzibati idarəetmə və iqtisadi sistem.*** Pax Ottomananın təsisini mümkün edən səbəbləri təkcə ideoloji prizmada yox, dövlətin iqtisadi-inzibati strukturunda da axtarmaq lazımdır. İqtisadi-inzibati quruluşda ilk qeyd edilməsi vacib olan məqam torpaq quruluşudur. Klassik dövr Osmanlı topraq sistemi Timar sisteminə əsaslanır. Timar bir bölgəyə aid vergilərin bir vəzifəli şəxsə - əksər hallarda sipahiyə verilməsi, əvəzində ondan bir sıra xidmətlərin həvalə olunduğu, iqtisadi, inzibati və hərbi sistemdir [25, s.124]. Timar sistemi islam dövlətlərində xilafətin əvvəlki dövrlərindən bəri tətbiq olunan İqta torpaq sahibliyi formasının bir təkamül variantı kimi dəyərləndirmək vacibdir. Timarın eyni dövrdə İqtanın digər inkişaf varinatı olan Soyurqaldan fərqi torpağın verildiyi şəxsə çox geniş hüquqlar verilməmiş olmasıdır. Soyurqalın tətbiq olunduğu Ağqoyunlu dövlətində soyurqal sahibləri hərbi aristokratiya sinfini təmsil edirdi. Lakin Osmanlı dövlətində hərbi aristokratiya, hakim düşüncəyə görə ümumilikdə aristokratiya olmamışdır [5, s.14-15; 17, s.217]. Həmçinin Timarın paylanmasında etnik və dini mənsubiyyət nəzərə alınmamış, Timar həm müsəlman, həm də xristian sipahilərə paylanmışdır [25, s.127]. Osmanlı dövlətinin vergi sistemi Şəriət vergiləri və Örfi vergilər olmaqla 2 hissəyə ayrılır. Şəriət vergilərinə Üşr, Zəkat, Xərac, Cizyə aiddir. Örfi vergi sistemi hər bir ərazinin və sosial qrupun özünəməxsus xüsusiyyətləri və örf adəti qaydalarına əsasən tətbiq olunan vergilər idi. Örfi vergilərin əsasını Çift-resmi və İspence sistemi təşkil etmişdir. Bir birinə paralel olan vergilərin sadəcə tətbiq subyekti fərqlənir [25, s.137]. Çift-resmi müsəlmanlardan şəxsi və ya ailədən alınan torpaqla bağlı vergi sistemidir [16, s.48]. Fateh qanunnaməsinə əsasən dövlətdə qeyri-müsəlman əhalinin vergiləndirilməsi üçün ayrıca vergi sistemi tətbiq edilmişdir. Mənbələrdə bu sistem İspence sistemi olaraq keçir [16, s.66]. Mövzu baxımından vergi məsələsində qeyd edilməsi mühüm məqam əhalinin vergidən azad olan təbəqəsidir. Hərbi təbəqə, hökumət məmurları, Müslüman ruhani təbəqəsi və qeyri-müsəlman ruhani sinfi vergilərdən azad tutulmuşlar [25, s.141]. Bundan əlavə xərac vergisi ödəyən xristianlar bəzi bolgələrdə vergilərdən azad edilmişdir. Ömer Lütfü Barkanın tədqiq etdiyi "Defter-i müfredat ve mahsulat-ı Vikayet-i Erzincan" adlı sənədə görə bu ərazidə əkinçiliklə məşğul olan əkin sahəsinə malik hər müsəlmandan 50 axça "resm-i çift" vergisi alınmış, eyni vəziyyətdə olan xristian əkinçilərdən bəzilərindən vergi alınmamış, bəzilərindən isə sadəcə 25 axça İspənc vergisi alınmışdır [2, s.178; 4. s.561]. Sultan Süleyman dövrünün məşhur Şeyxülislamı Ebusuud Əfəndinin fətvalarından aydın olur ki, qeyri-müsəlmanların ödədiyi Cizyə vergisi hər şəxsin gəlirinə və Maddi durumuna görə dəyişirdi. Gəliri 200 dirhəmdən az olanlardan vergi alınmırdı [2, s.179; 6, s.97].

***Cədvəl 2.***

| *Maddi vəziyyət* | *Gəlir (dirhəmlə)* | *Cizyə miqdarı (dirhəmlə)* |
|---|---|---|
| Yoxsul | 200 | 12 |
| Orta | 21-10.000 | 24 |
| Varlı | 10.000-dən yuxarı | 48 |

*Mənbə: Aybet, G.Ü. Avrupalı seyyahların gözünden Osmanlı dünyası ve insanları 1530-1699. İstanbul, İletişim Yayınları, 2010, s.179.*

***Üçüncü Roma konsepsiyası.*** Pax Ottomana barədə danışarkən Osmanlının Roma mirasına iddiası barədə danışmaq lazımdır. Bir çox etnik və dini fərqlilikləri vahid toplum kimi özündə ehtiva edən Roma İmperiyasının bu kosmopolit cəmiyyət modeli "Pax Romana (Roma barışı)" adlanır. Fateh Sultan Mehmet Konstantinopolun fəthindən sonra bir çox dini-etnik qrupların birgəyaşayış forması olan Pax Ottomananı "Üçüncü Roma - Müsəlman Roma" ideoloji konsepsiyası üzərinə inşa etməyə çalışmışdı. Şərqi Roma - Bizansın süqutundan sonra Roma mirasına iddiası olan təkcə Osmanlı deyildi. Moskva Rus knyazlığı da Roma mirasına iddia edirdi. XVI əsr rus baş rahibi Filofey Pskovskiy deyirdi:

"İki Roma süqut etdi, üçüncü yaşayır, dördüncü olmayacaq! (два Рима пали, третий стоит, а четвёртый не бывает!)" [22, s.231]. Rus çarı III İvan iddiasını gücləndirmək üçün Bizans prenslərindən Sofia Paleoloq ilə evlənmişdi. Türk tarixçi İlber Ortaylı Moskvanın iddiasını quru iddia hesab etməklə bildirir: "Birinci Roma Paqan, İkinci Roma Xristian, Üçüncü Roma Müslümandır" [22, s.226]. Rusiyanın bu məsələdə əldə etdiyi yeganə üstünlük 1774-cü ildə Kiçik Qaynarca müqaviləsi ilə Osmanlının Ortodoks əhalisi üzərində Diplomatik himayə haqqıdır. Paralel olaraq eyni hüquq Rusiyanın Müsəlman təbələri üstündə Osmanlıya da verilmişdir [24, s.207]. Rusların bu iddiası müasir dövrlərədək davam edir. Məsələn, Moskvanın Üçünü Roma olması ilə bağlı göndərmələr Sovet rejissoru Sergey Eyzenşteynin "Qorxunc İvan" filmində ideoloji konsepsiya olaraq öz əksini tapır [12, s.233]. Konstantinopolun fəthindən sonra Fateh Sultan Mehmetin Dünya ağalığı (Arbiter Mundi) fikri yaranmağa başladı. Fəth zamanı onun yanında olan J. Langustchi Sultanın "Dünyada tək bir imperiya, tək imperator olmalıdır, bu birliyi qurmaq üçün İstanbuldan daha layiq bir yer yoxdur" dediyini yazır [15, s.227-28]. Şair G. Trapezuntios Fatehə müraciətlə yazırdı: "Kimsə şübhə etməz ki sən Romalıların imperatorusan" [15, s.228]. Halil İnalcık bu barədə yazır: "O, bu sifəti siyasi bir vasitə, öz fəthləri üçün legitim bir çıxış nöqtəsi hesab edirdi. O, xanlıqda, qazilikdə və kayserlikdə - hər üçündə də - ümumdünya hakimiyyətinin yolunu görürdü. Çağdaşı Kemal Paşazadə "tedbîri cihangîrlik zikrində idi" deyərək Fətihin gerçək məqsədini açıqlayır. Fətih eyni məqsədlə Rum Ortodoks Patriyını və Erməni Patrikini İstanbulda, öz paytaxtında yerləşdirir, 1456-cı ildə isə Amurutzesə bir dünya xəritəsi hazırlatdırırdı. Xülasə, Fətih öz şəxsində türk, islam və Bizans ənənələrini birləşdirərək klassik Osmanlı padşahını yaradırdı" [14, s.84].

Osmanlı toplumu prizmasından "Üçüncü Roma" və Pax Ottomana anlayışlarını paralel şəkildə müqayisə etmək lazımdır. Əvvəla, ona demək lazımdır ki, Osmanlı cəmiyyəti imperiya toplumuna xas, etnik düşüncələrdən azadə, kosmopolit quruluşa malik bir toplumdur. Ölkənin türkləri özlərini türk yox, cəm şəkildə "müsəlmanlar", Ellinlər isə "Rum"lar adlandırırlar. Müsəlman təbəələr Osmanlı hökmdarını daha çox padşah və 1517-ci ildən sonra xəlifə olaraq görsələr də Rum əhali öz sultanlarının "Vasilikos" adlandırırdı [22, s.228-37]. Fatehin "Kayzer-i Rum" titulunu qəbul etməsi ilə Üçüncü Roma ideyası reallaşır. Kayzerlik konsepsiyası Sultan I Səlim dövründə Məkkə və Mədinənin fəthi ilə qəbul edilən İslam xəlifəliyi ünvanın kölgəsində qalmışdır [22, s.164]. Sonrakı dövrdə Fatehin başlatdığı Kayzerlik və imperatorluq ideyası davam etdirilmişdir. Sultan Süleyman rəsmi yazışmalarda bu titulan istifadə etməklə təkcə islam dünyanın xəlifəsi olmadığını, eləcə də bütün dünyanın hökmdarı olduğunu bəyan etmişdir. Bunun ən bariz sübutlarından biri olaraq diplomatik mətnlərdə "feman-ı cihan muta" (əmrinə bütün dünyanın tabe olduğu hökmdar (فرمانِ جهانمطاع)ifadəsidir [11, s.185]. Sultan Süleyman dövründə Osmanlının Avropa ilə müqavilələrində Kayzer titulu işlənmişdi. Qanuninin imperatorluq iddiasının ən məşhur və möhtəşəm təzahürü onun tacıdır. Sədriəzəm Parqalı İbrahim Paşanın da təşviqi ilə Venesiyanın məşhur zərgərlərindən birinə 1532-ci ildə 50 almaz, 44 yaqut, 27 zümrüd, 49 inci və bir böyük yaqutla bəzənmiş 4 qatlı, dəbilqə formasında bir tac hazırlatdırılmış və gətirilmişdi. Qanuni bu tacı 1532-ci il Alman səfərində istifadə etmişdi [1, s.77-79]. İncəsənət tarixçisi Gülru Necipoğlunun fikrincə bu dördqatlı tac Sultan Süleymanın Roma İmperatorluğu, Trabzon İmperatorluğunu, Misir Sultanlığı və Asiya Xaqanlığına iddiasını təmsil edir [20, s.412]. Osmanlının təkbaşına imperatorluq iddiası 1606-cı ildə Avstriya ilə bağlanmış Zitvatorok müqaviləsi ilə başa çatır. Bu müqavilədə Osmanlı, Avstriya hökmdarının Osmanlı sultanı ilə eyni səviyyədə olmasını qəbul edir [11, s.188].

***Pax Ottomananın fəlsəfəsi təməlləri.*** "Pax Ottomana" İslam siyasi-fəlsəfi fikrində dövlət və toplumla əlaqəli bir sıra fikir və anlayışların təcəssümü kimi ortaya çıxır. "Pax Ottomana" anlayışının konkret olaraq hər hansısa fəlsəfi cərəyəndan bəhrələndiyini demək doğru olmasa da bunu müxtəlif siyasi fikirlərdə olan elementlərin sintezi kimi görə bilərik. Millətlər, toplumlar arasında həmrəyliyə dayanan daxili sülh anlayışına söykənən ideal dövlət və ya toplum fikirlərinə bir çox İslam alimlərinin əsərlərində rast gələ bilərik. Osmanlı elm və düşüncəsinə Fərabi, Nizamülmülk, İbn Xəldin kimi bir sıra islam filosoflarının əsərlərindəki siyasət doktrinaları təsir etmişdir. IX-X əsrlərdə yaşamış islam filosofu əl-Fərabi ideal toplum və şəhərin – "əl-mədinətül fəzilə" necə formalaşa biləciyini belə izah

edir: *"Ən uca yaxşılıq və ən böyük kamilliyə yalnız şəhərdə çatmaq mümkündür; daha kiçik icmalarda bu mümkün deyil. Lakin həqiqi yaxşılıq seçmə və iradə vasitəsilə əldə edildiyindən, pisliklər də yalnız seçmə və iradənin nəticəsində ortaya çıxır. Buna görə də, xoşbəxtliyin hər şəhərdə əldə olunmaması mümkündür. Deməli, insanların həqiqi xoşbəxtliyi əldə etmək üçün bir-birilərinə yardım etməyi məqsəd seçdikləri bir şəhər - fəzilətli və kamil bir şəhərdir. Xoşbəxtliyə çatmaq üçün bir-birilərinə yardım edən bir toplum da fəzilətli və kamil bir toplumdur. Bütün şəhərlərin xoşbəxtliyi əldə etmək üçün bir-birilərinə yardım etdiyi bir millət - fəzilətli və kamil bir millətdir. Eyni şəkildə, içindəki bütün millətlər xoşbəxtliyə çatmaq üçün bir-birilərinə yardım etdikdə fəzilətli və kamil bir dünya dövləti (ümumdünya dövləti) meydana gəlir"* [9, s.98].

Dövlətdə nizamın və ədalətin təmin edilməsi ilə bağlı Səlcuqlar dövlətində vəzir olmuş məşhur Nizamülmülkün siyasətnamə əsərində mühüm məlumatlar vardır. Nizamülmülkə görə hakimiyyət Allah tərəfindən verilir, hakimiyyətə sahib hökmdar dunya nizamının təsis olunması, fitnə-fəsadın qarşısının alınması, cəmiyyətin təhlükəsiz və ədalətli mühitdə yaşaması kimi ilahi missiyaları yerinə yetirir [21, s.11]. Nizamülmülkün ədalət anlayışı konkret institusional mexanizmlərlə tamamlanır. Hökmdarın həftədə iki gün divan-ı məzalimə şəxsən başçılıq etməsi, məzlumun haqqını birbaşa zalımdan alması və şikayətləri vasitəsiz şəkildə dinləməsi siyasi nizamın qorunması baxımından həlledici hesab edilir. Bu praktikanın cəmiyyətə yayılması zalımlar üzərində çəkindirici təsir yaradır və hüquqsuzluğun qarşısını alır [21, s.17]. Əsərdə iqtisadi və sosial ədalətin qorunması xüsusi yer tutur. İqta sahiblərinin reayadan yalnız qanunla müəyyən edilmiş vergini toplamaq hüququna malik olduqları, bunun xaricində hər hansı tələb və zorakılığın qadağan edildiyi açıq şəkildə vurğulanır. Reayanın canı, malı, ailəsi və torpağı dövlətin himayəsi altında təqdim olunur. Bu çərçivədə iqta sahibləri və valilər dövlətin mütləq sahibi deyil, sultanın adından hərəkət edən müvəqqəti nümayəndələr kimi dəyərləndirilir. Onların əsas vəzifəsi xalqın padşahın ədalətindən razı qalmasını təmin etməkdir [21, s.41]. Osmanlı yüksək düşüncəsinə təsir edən, Millət Sistemi və Osmanlı barışı anlayışının fəlsəfi istinadı kimi göstərə biləcəyimiz digər mühüm əsər XIV əsrdə yaşamış böyük islam sosioloq və tarixçisi İbn Xəldunun "Müqəddimə" əsəridir. İbn Xəldun Müqəddimə əsərində dövlətin meydana gəlməsi və davamlılığını "əsəbiyyət" anlayışı ilə izah edir. Onun fikrincə, dövlət yalnız güclü əsəbiyyətə - yəni toplum üzvləri arasında mövcud olan həmrəylik, qarşılıqlı sədaqət və kollektiv məsuliyyət hissinə əsaslanaraq qurula və yaşaya bilər. Əsəbiyyət dövlətin siyasi hakimiyyət qazanmasının əsas şərti olmaqla yanaşı, onun ərazi baxımından genişlənməsini və tarixi ömrünün uzunluğunu müəyyən edən başlıca amildir. İbn Xəldun hesab edir ki, əsəbiyyət zəiflədikdə dövlətin mərkəzi hakimiyyəti sarsılır, idarəetmə qabiliyyəti azalır və nəticədə dövlət tənəzzül mərhələsinə daxil olur. Bu baxımdan, əsəbiyyət anlayışı İbn Xəldunun dövlət nəzəriyyəsində sadəcə sosial bağlılıq deyil, siyasi gücün və tarixi dinamikanın əsasını təşkil edən fundamental bir kateqoriyadır [13, s.414].

***Nəticə.*** Aparılan araşdırma göstərir ki, Pax Ottomana Osmanlı İmperiyasında sülh və sabitliyin təmin edilməsini yalnız hərbi üstünlük və güc balansı ilə izah edən dar çərçivəli bir model kimi deyil, hüquqi, iqtisadi və inzibati mexanizmlərin qarşılıqlı və sistemli fəaliyyəti nəticəsində formalaşmış kompleks bir idarəetmə strukturu kimi dəyərləndirmək zəruridir. İmperiyanın geniş və heterogen coğrafiyasında hüquqi nizamın qorunması, iqtisadi dövriyyənin mərkəzləşdirilmiş şəkildə təşkili və dövlət nəzarəti altında ticarət yollarının təhlükəsizliyinin təmin edilməsi, müxtəlif etnik və dini icmalar arasında uzunmüddətli nisbi sabitliyin yaranmasına imkan vermişdir. Bu baxımdan Pax Ottomana təsadüfi tarixi şəraitin məhsulu deyil, mərkəzi hakimiyyət tərəfindən planlı şəkildə həyata keçirilən davamlı idarəetmə siyasətinin nəticəsi kimi çıxış etmişdir.

Osmanlı dövlətinin daxili iqtisadi inteqrasiya siyasəti ilə beynəlxalq ticarət sistemində tutduğu mövqe arasında mövcud olan sıx əlaqə Pax Ottomananın iqtisadi əsaslarını daha aydın şəkildə ortaya qoyur. Tarixi İpək yolu üzərində nəzarətin saxlanılması, Şərqi Aralıq dənizi hövzəsində siyasi və iqtisadi sabitliyin təmin edilməsi imperiya daxilində iqtisadi rifahın qorunmasına xidmət etməklə yanaşı, regional və beynəlxalq ticarət axınlarının davamlılığını da mümkün etmişdir. Ticarət yollarının qorunmasına yönəlmiş bu siyasət yalnız iqtisadi maraqlarla məhdudlaşmamış, inzibati nəzarət və hüquqi

mexanizmlərlə dəstəklənərək ümumi sülh mühitinin qorunmasını hədəfləmişdir. Beləliklə, Pax Ottomana modeli iqtisadi və inzibati elementlərin bir-birini tamamladığı çoxsəviyyəli bir sabitlik sistemi kimi formalaşmışdır. Müasir dövrdə Pax Ottomana anlayışının yenidən gündəmə gətirilməsi və elmi müzakirə predmetinə çevrilməsi, Osmanlı keçmişinin Türkiyənin daxili və xarici siyasət diskursunda ideoloji və tarixi istinad nöqtəsi kimi qəbul edildiyini göstərir. Bununla belə, imperial idarəetmə məntiqinə əsaslanan bu modelin müasir milli dövlətlər sisteminə birbaşa tətbiqi mümkün deyildir. Lakin Pax Ottomananın regional sabitlik, iqtisadi əməkdaşlıq və çoxmədəniyyətli birgəyaşayış sahəsində ortaya qoyduğu idarəetmə təcrübəsi, tarixi müqayisəli analizlər və müasir siyasi nəzəriyyələr baxımından əhəmiyyətli konseptual çərçivə təqdim edir. Bu səbəbdən Pax Ottomana həm Osmanlı idarəçilik təcrübəsinin daha dərindən anlaşılması, həm də regional sülh və sabitlik modellərinin tarixi köklərinin araşdırılması baxımından aktual elmi dəyərini qorumaqdadır.

## ƏDƏBİYYAT

1. Afyoncu, E. Muhteşem Süleyman. Kanuni Sultan Süleyman ve Hürrem Sultan. İstanbul, Yeditepe Yayınları, 2011, 260 s.
2. Aybet, G.Ü. Avrupalı seyyahların gözünden Osmanlı dünyası ve insanları 1530-1699. İstanbul, İletişim Yayınları, 2010, 672 s.
3. Aydın, M.A. Osmanlı sulhunun (Pax Ottomana" kurulmasında hukukun rölü. Kitaplara vakfedilen bir ömre tuhfe: İsmail E. Erünsal'a armağan, cilt 1, İstanbul, Ülke yayınları, s.81-100.
4. Barkan, Ö.L. Türkiye'de toprak meselesi. Toplu eserler 1, İstanbul, Gözlem yayınları, 1980, 965 s.
5. Dinler, V. Osmanlı devleti'nin klasik dönem idari yapısı ve işleyişi. Telakki Sosyal Bilimler Dergisi, 1(1), 2023, s.11-44.
6. Düzdağ, E. Şeyhülislam Ebussuud Efendi fetvaları ışığında 16. asır Türk hayatı. İstanbul, Enderun Kitabevi, 2000, 245 s.
7. Ekinci, E.B. Osmanlı hukuku. Adalet ve mülk. İstanbul, Arı Sanat Yayınları, 2008, 600 s.
8. Ercan, Y. Osmanlı yönetiminde Gayrimüslimler. Kuruluştan Tanizmat'a kadar sosyal, ekonomik ve hukuki durumları. Ankara, Turan Kitabevi Yayınları, 2001, 435 s.
9. Farabî. İdeal devlet. Çeviri Ahmet Arslan, İstanbul, Türkiye İş Bankası Kültür Yayınları, 2017, 154s.
10. Gibbon, E. Roma İmparatorluğu'nun gerileyiş ve çöküş tarihi. Çev. Asım Baltacıgil, 1. cilt, İstanbul, İndie Yayınları, 2019, 732 s.
11. Gürcan, F. (2021). Osmanlı-Avusturya Rekabetinde Çasarlık İmgesi ve Zitvatorok Antlaşması. Mavi Atlas, 9(2), 182-190.
12. Halperin, J.C. The Atheist director and the Orthodox Tsar Sergei Eisenetein's Ivan the Terrible. Revue des études slaves, LXXXVIII-3, 2017, p 515-526.
13. İbn Haldun. Mukaddime. 1. cilt, çeviri Z.K. Ugan, İstanbul, Millî Eğitim Basımevi, 1997, 684 s.
14. İnalcık, H. Devlet-i Aliyye. Osmanlı İmparatorluğu üzerine araştırmalar. Klasik Dönem (1302-1606). 1. cilt, İstanbul, Türkiye İş Bankası Kültür Yayınları, 2009, 377 s.
15. İnalcık, Halil. Fâtih Sultan Mehemmed Han. İki karanın sultanı, iki denizin hakanı, Kayzer-i Rum. Seçme eserleri XIV, İstanbul, Türkiye İş Bankası Kültür Yayınları, 2019, 793 s.
16. İnalcık, Halil. Osmanlı İmparatorluğu. Toplum ve Ekonomi. 1. cilt, İstanbul, Kronik Kitap, 2018, 458 s.
17. Karadoğan, Umut. Osmanlı hanedanının Aile yapısı ve Güncel yaşamı. 21. Yüzyılda eğitim ve toplum, 1(1), 2014, s.213-225.
18. Kurtaran, U. Osmanli imparatorluğu'nda Millet sistemi. Kafkas Üniversitesi Sosyal Bilimler Enstitü Dergisi 1, sy. 8 (Aralık 2011): 57-71.
19. Mağat, M. Modernizmin Türk devlet algısına etkisinde bir köken tasavvuru olarak Nizam-ı Âlem ülküsü. Asya Araştırmaları Uluslararası Bilimler Dergisi, 2020, 4(2), s.193-202.

20. Necipoğlu, G. Süleyman the Magnificent and the representation of power in the context of Ottoman-Hapsburg-Papal rivalry. The Art Bulletin, Vol. 71, №3, 1989, pp. 401-427.
21. Nizamü'l-Mülk. Siyasetname. Çev. M.T. Ayar, İstanbul, Türkiye İş Bankası Kültür Yayınları, 2009, 365 s.
22. Ortaylı, İ. Fâtih Sultan Mehmed. Doğu'nun ve Batı'nın efendisi. İstanbul, Kronik Kitap, 2025, 446s.
23. Ortaylı, İ. Osmanlı barışı. İstanbul, Timaş Yayınları, 2010, 240 s.
24. Ortaylı, İ. Süleyman and Ivan: Two Autocrats of Eastern Europe. Süleyman the Second and his time. İsis Press, 1993, s.203-211.
25. Ortaylı, İ. Türkiye Teşkilat ve İdare tarihi. Ankara, Cedit Neşriyat, 2010, 592 s.
26. Parchami, A. Hegemonic Peace and Empire. The Pax Romana, Britannica and Americana. Abingdon, Routledge, 2009, 272 p.
27. Sami, Ş. Kâmûs-ı Türkî. İstanbul, İdeal Kültür Yayıncılık, 2012, 1312 s.
28. Turan, O. Türk cihan hakimiyeti mefkuresi tarihi. Türk dünya nizamının milli İslâmi ve İnsânî esasları. 2. cilt, İstanbul, İstanbul Matbaası, 1969, 347 s.

**PENAH KHANLAYEV**
*Baku State University*
*4th year student of Faculty of History*

**VUSAL HUSEYNOV**
*Baku State University*
*4th year student of Faculty of History*

## THE OTTOMAN EXPERIENCE OF MULTICULTURAL COEXISTENCE – PAX OTTOMANA

The article examines the concept of Pax Ottomana within the framework of the formation of peace and stability in the Ottoman Empire. In Ottoman history, the Pax Ottomana model holds a distinctive position as a complex system shaped not solely by military power but also through the interrelated functioning of legal, economic, and administrative mechanisms. The study evaluates, in the context of both primary sources and modern historiography, key elements such as the provision of legal stability among diverse ethnic and religious communities across the empire's vast territory, the creation of a unified economic space, and the protection of regional and international trade routes. The article also analyzes the Ottoman state's international economic position, particularly its control over strategic trade routes along the Silk Road and in the Eastern Mediterranean, the administrative measures implemented to safeguard these trade routes, and the markets and transportation networks that facilitated economic integration. This approach demonstrates how the economic-administrative foundations of Pax Ottomana reinforced interethnic and interreligious cooperation and the mechanisms through which this system functioned.

*Keywords:* Pax Ottomana, Pax Romana, Millet System, Nizam-ı Alem, Third Rome, Non-Muslims.

*Daxil olma tarixi*: 30.12.2025-ci il.
*Çapa imzalanma tarixi*: 30.01.2026-cı il.

*Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları*
*Studies of the Turkic World Young Researchers Association*

*№1(13) 2026, 69-77*

**UOT 94(479.24)**

**RƏMZİ SƏFƏRLİ**
*Bakı Dövlət Universitetinin magistrantı*
**ramzisafarli0@gmail.com**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN XARİCİ SİYASƏTİ VƏ BEYNƏLXALQ ALƏMDƏ ROLU

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Mətanət Məmmədova

*Azərbaycan xalqının gələcəkdə dövlət olaraq formalaşmasına zəmin yaradan Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətləri sadəcə daxili siyasəti ilə seçilmirdi. Mövcud olduğu ilk günlərdən etibarən beynəlxalq cəbhəyə atılmış bu dövlətimiz özünün bir çox qərarları ilə tariximizin əsas səhifələrinə yazılmağı bacarmışdır. Bu addımların böyük bir qismi Batum konfransının nəticələri ilə bağlı idi. İlk günlərindən etibarən nümayəndə heyəti ilə konfransda iştirak etmiş cümhuriyyət qurucuları müstəqilliyimizi elan etdikdən sonra bu siyasi prosesləri uğurla davam etdirməyə çalışmışlar. Bizlərə dəstək olan Osmanlı dövləti bu dövrdə də öz qardaşlıq yardımını bizlərdən əsirgəməmişdir. Cümhuriyyət qurucularının qarşısında duran əsas məsələlərdən biri qonşu ölkələr arasında müstəqilliyimizin təmin edilməsinə çalışmaq idi. Bununla bağlı ilk addımlardan biri İrəvanın Ermənistan hökumətinə verilməsi ilə bağlı idi. Həmçinin İran və Gürcüstanla olan münasibətlərin nizama salınması xüsusi ilə Denikinə qarşı baş qaldıran mübarizədə dövlətlərin birləşməsi cümhuriyyətimizin diplomatik sahədə atdığı addımların böyük bir qismini əhatə edirdi. Bununla yanaşı Avropa dövlətləri arasında nüfuza sahib olmaq üçün atılmış addımlar nəticəsində qısa müddət ərzində fəaliyyət göstərmiş cümhuriyyətimiz faktiki olaraq tanınmağı əldə edə bilmişdir. Bütün bu uğurlu və keşməkeşli günləri özündə əks etdirən cümhuriyyətimizin tarixi haqqında məqalənin yazılmasında məqsəd mövcud olduğu zaman kəsiyi ərzində atdığı diplomatik addımları xırdalıqları ilə əks etdirərərək çatdırmaqdan ibarətdir.*

*Açar sözlər:* Azərbaycan Xalq Cümhuriyyəti, Fətəli Xan Xoyski, Batum konfransı, Batum Sülhü, Paris Sülh konfransı, Aprel işğalı.

***Giriş***. Azərbaycan tarixinə qızıl qələmlə yazılmış səhifələrdən biri də məhz Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətəri ilə bağlıdır. Mövcud olduğu 23 ay ərzində yaddaşlara həkk olan izlər buraxmış Cümhuriyyətimiz bu qısa fəaliyyəti ərzində dövlətin daxili siyasətini dirçəltməklə yanaşı, xarici aləmdə də tanınması üçün mühüm addımlar atmışdır. Şərqin ilk demokratik respublikasının yaradılması ilə öz müqəddəratını dəyişmiş Azərbaycan xalqının bu günlərdə göstərdiyi fədakarlıqlar heç zaman tariximizin yaddaşından silinməyəcəkdir.

***Müstəqilliyimizin xarici dövlətlərə bəyan edilməsi***. Hələ 1918-ci ilin may aylarından etibarən müstəqilləşmək meyilləri güclənən Azərbaycan ziyalıları bu addımın həyata keçirilməsi fonunda dəfələrlə görüşlər təşkil etmiş, mövcud siyasi quruluşun yarada biləcəyi vəziyyəti dərk edərək bu sahədə önəmli qərarlar almışdırlar. 1918-ci il mövcud Zaqafqaziya Federativ Respublikasının süqutu nəticəsində bir araya toplanan Azərbaycan ziyalıları may ayının 27-də fövqəladə bir iclas həyata keçirərək Müvəqqəti Milli Şuranın yaradılmasını qarşılarına məqsəd qoymuşdular. Mayın 28-də keçirilən iclasda "İstiqlal bəyannaməsi"nin qəbul edilməsi ilə müstəqilliyini vurğulamış ilk respublikamızın beynəlxalq aləmdə də tanınması üçün ilk günlərdən səylə çalışan cümhuriyyət başçıları çətinliklə də olsa öz istəklərinə nail olmuşdular. Beləliklə, 1918-ci il mayın 30-da Nazirlər Şurasının sədri Fətəli Xan Xoyski Türkiyə, Almaniya, Avstriya-Macarıstan, Fransa, Böyük Britaniya, İtaliya, ABŞ, Bolqarıstan, Rumıniya, İran, İspaniya, Hollandiya, Rusiya, İsveç, Ukrayna, Danimarka və Yaponiya Xarici İşlər Nazirliklərinə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması barədə məlumat göndərildi [8]. Məlumatda deyilirdi: *"Gürcüstanın ittihaddan çıxması üzərinə "Mavərayi-Qafqaz müttəhid cümhuriyyəti" inhalal ey-*

*ləmişdir. Şəhri halın 28-ci günü əqdi-ictimai edən "Azərbaycan Şurayi-Millisi" Mavərayi-Qafqazın Cənubi-Şərqisində vaqe olan Azərbaycan Cümhuriyyətini təşkil eyləmişdir. Keyfiyyətdən hökuməti-mətbuənizin xəbərdar edilməsini surəti məxsusda rica eylər və ehtiramati faiqəmi təqdim ilə kəsbi şərəf edərəm. Hökumətin şimdilik məqəri müvəqqəti Elizavetpoldur. 30 mayis 1918. Azərbaycan Cümhuriyyəti məclisi nüzzar rəisi Xoyski"* [4, s.94]. Buradan da göründüyü kimi, Xoyski yeni hökumətin yarandığını elan etməklə yanaşı, mərkəzin Gəncə şəhəri olduğunu da bildirmiş, həmçinin öz rütbəsini də açıqlayaraq digər dövlətlərin Azərbaycan Cümhuriyyətini tanımasına qarşı ilk addımlarını atmışdır. Sözsüz ki, məlumatların çatdırılması onlara heç də asanlıqla başa gəlməmişdir. Belə bir dövrdə cümhuriyyətin Xarici İşlər naziri vəzifəsində çalışan M.Hacınskinin də üzərinə böyük bir vəzifə düşürdü. Fətəli Xan Xoyski mövcud çətinliklə bağlı Hacınskiyə məlumat verərək onu təlimatlandırmış, qeyd etmişdir: *"Teleqramın rus və fransız dillərində olan mətnlərini sizə göndərirəm ki, siz oradan onu birbaşa radio vasitəsi ilə İstanbula çatdırasınız və oradan da radio vasitəsi ilə yayasınız. Teleqramı Xarici İşlər naziri kimi özünüz də imzalaya bilərsiniz. Fransızca mətnin axırına əlavə edin ki, hökumətin müvəqqəti olaraq yerləşdiyi yer Elizavetpol şəhəri olacaqdır"* [4, s.94]. Buradan da bir daha onların teleqrafları göndərməklə bağlı problem yaşadıqları bizlərə aydın olur. Bütün bunlara baxmayaraq fəaliyyətlərini səylə davam etdirən qurucular bir gün belə geri çəkilmədən müstəqilliyimizi dövlətlərə tanıtmaq naminə böyük addımlar atmışlar.

Belə bir dövrdə də öz dostluğunu və qardaşlığını əsirgəməyən dövlət olaraq Osmanlı bizlərin köməyinə yetişdi. Müstəqilliyimizi tanıyan ilk dövlətlərdən birincisi oldu. Təbii ki, müstəqilliyin tanınması iki dövlətin birgə yeni addımlar atmasına da öz növbəsində gətirib çıxarırdı. Hələ Trabzon və Batum konfransları zamanı yaranan bu diplomatik əlaqələr Azərbaycan Xalq Cümhuriyyətinin hökm sürdüyü bu illər ərzində də özünün qüdrətli dövrünü yaşadı. Atdığımız addımlar zamanı bizlərə dəstək olan din qardaşlarımızın tariximizdəki rolu həqiqətən danılmazdır. Onların bizlərə olan dəstəyi yeni diplomatik əlaqələrin qurulmasına şərait yaratmaqla yanaşı daxildən dövlətimizin inkişafına və mənfur qüvvələrdən təmizlənməsinə də səbəb olmuşdur. Belə ki, Osmanlı dövlətinin Xarici İşlər naziri ilə əlaqə saxlayan M. Hacınski Osmanlı dövləti vasitəsilə Avropa ölkələri ilə də əlaqələr qura biləcəyimizi bildirirdi. Bu xüsusda yazdığı teleqramlardan birində o deyir: *"Belə bir şəraitdə Osmanlı dövləti beynəlxalq qaydalar əsasında Avropa paytaxtlarında, o cümlədən Moskvada olan türk səfirlikləri vasitəsilə Azərbaycanla Avropa dövlətləri arasında vasitəçi olmağa razıdırmı?"* Bu məsələ ilə bağlı qeyd etmək lazımdır ki, müxtəlif ölkələrin paytaxtlarında olan türk səfirlikləri sonralar Azərbaycan Respublikasının yaradılması haqqında məlumatla çıxış etmişdilər [4, s.95].

***İrəvanın ermənilərə verilməsi və Qarabağ problemi.*** Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsindən sonra meydana çıxmış əsas məsələrdən biri də İrəvanla bağlı idi. Hansı ki, bu məsələ müstəqilliyimizi elan etdiyimiz ilk anlardan etibarən özünü göstərmişdir. Belə ki, mayın 29-da keçirilmiş iclasda Azərbaycan və Ermənistan milli şurası ilə aparılan danışıqlar zamanı İrəvanın güzəştə gedilməsi fikrini irəli sürən M.Y. Cəfərov, Ə. Şeyxülislamov və M. Məhərrəmov, bu addımın bizləri yaralayacaq bir addım olsa da başqa çarəmizin olmadığını dəfələrlə vurğulamışdırlar. Problemlə bağlı keçirilən səsvermə nəticəsində Milli Şuranın 28 üzvündən 16-ı güzəşt edilməsinin tərəfdarı kimi iştirak etmiş, nəticədə 1 əleyhinə 3 bitərəf səslərin qeydə alınması ilə İrəvanın güzəşt edilməsi qərarı təsdiqlənmişdir. Məsələ ilə bağlı Fətəli Xan Xoyski M.Hacinskiyə yazırdı: *"Biz ermənilərlə bütün mübahisələrə son qoyduq. Onlar ultimatumu qəbul edəcək və müharibəni qurtaracaqlar. Biz İrəvanı güzəştə getdik"* [9]. Həmçinin onu da qeyd etməliyik ki, İrəvanın güzəşt edilməsi məsələsi təsdiqini tapmış olsa belə, Cümhuriyyətimizin fəaliyyəti boyu daim narazılığa səbəb olan məsələlərdən biri kimi qalmışdır. Daha sonra Milli Şura İrəvan şəhərinin güzəşt edilməsi ilə bağlı meydana çıxan problemləri həll etməkdən ötrü İrəvana M.Seyidov, B.Rzayev, M.Y.Cəfərovdan ibarət nümayəndə heyəti göndərməyi lazım bildi. Sonra iclas Yelizavetpol quberniyasındakı məsələni müzakirə etdi. Bu barədə Gəncədən qayıdan N.Usubbəyov və Ş.Rüstəmbəyov məlumat verdilər. İclas qərara aldı ki, Batumdakı Azərbaycan nümayəndələrini respublikadakı vəziyyətlə yaxından tanış etmək üçün N.Usubbəyovu Batuma ezam etsin. Batumda olan Azərbaycan və Ermənistan nümayəndələri arasında da sərhəd məsələləri ilə bağlı danışıqlar aparıldı və razılıq əldə edildi ki, Azərbaycan "Aleksandropol quberniyası" hüdudlarında Erməni dövlətinin yaradılmasına razıdır, bu şərtlə ermənilərə güzəştə gedilir ki, ermə-

nilər Yelizavetpol quberniyasının bir hissəsinə (Qarabağa) olan iddialarından imtina edirlər" [1, s.78-79]. Ərazilərimizin güzəşt edilməsinə baxmayaraq mənfur qüvvələrin torpaqlarımıza qarşı qaldırdığı yeni ərazi iddiaları daha sonrakı dövrlərdə də mövcud olmuşdur. Belə ki, 1918-ci ilin yay aylarından etibarən Zəngəzur, Qarabağ, Naxçıvan kimi bölgələrimizdə fəallaşan düşmən qüvvələr Andranikin başçılığı ilə bir sıra ərazilərimizdə dinc əhaliyə qarşı qırğınlar törətməyə başladılar. Xüsusilə qoyulmuş qaydalara məhəl qoymayan bu qüvvələr Qarabağda fəallaşaraq soyqırımları törətməkdə idilər. Qarabağda bu kimi fəaliyyətlərin qarşısının alınması üçün Ermənilərlə danışıqlar aparılmasının nəticə verməyəcəyini anlayan hökümət qurucuları 1919-cu ilin yanvarında Qarabağda general – qubernatorluq yaradır, həmçinin Xosrov bəy Sultanovu buraya general kimi təyin edirlər. General – qubernatorluğun əsas məqsədi hakimiyyətdə separatçı fəaliyyəti ilə ajotaj yaradan erməni – daşnak qüvvələrinin qarşısını almaq idi. Eyni zamanda bu dövrlərdə müxtəlif dövlətlərlə diplomatik əlaqələr yaradan qurucular ermənilərin törətdikləri bu hadisələrin qarşısını almaq üçün də addımlar atırdılar. Beləliklə, 1919-cu il iyunun 5-də Qarabağ da pozuculuq fəaliyyəti aparan erməni Milli Şurasının üzvləri general Tomsonun yardımı ilə Azərbaycan hüdudlarından çıxarıldılar. Daha sonra isə Xosrov bəy Sultanov və onun silahdaşlarının birgə fəaliyyəti nəticəsində Qarabağın erməni əhalisi ilə danışıqlar aparıldı. Nəticə etibarı ilə qısa müddətlik də olsa bölgə də sabitlik formalaşdı. Lakin onu da qeyd etməliyik ki, bu gün də bizim anlaşma edərək bağışladığımız torpaqlar hesabına özlərinə paytaxt edən bir ölkə onlara vermiş olduğumuz bu imkanlardan savayısını əldə etməyə çalışaraq özlərinin olmayan torpaqlara yiyələnməyə çalışır. Bunların hər biri öz növbəsində acınacaqlı faktdır ki, tarix boyu davam etmiş bu mübarizənin kəskin izləri məhz Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətləri zamanı meydana çıxmışdır.

***Batum konfransı və Osmanlı ilə münasibətlər.*** Zaqafqaziya Federativ Respublikasının süqutu nəticəsində yeni yaranan respublikaların qarşısında duran əsas məsələlərdən biri də Batum konfransı ilə bağlı idi. Hələ 1918-ci il aprelin 26-da Çxenkelinin başçılığı ilə yaradılmış nümayəndə heyəti may ayının 11-i konfransla bağlı olaraq Batuma yola düşür. Onların arasında Azərbaycandan 5 nümayəndə - F.Xoyski – Ədliyyə naziri, X.Məlikaslanov – Məlumat Vasitələri naziri, N.Yusifbəyli – Maarif naziri, M.H.Hacinski – Ticarət və Sənaye naziri, Y.Heydərov – Dövlət Nəzarəti naziri kimi yer alırdılar. Bayaq da qeyd etdiyimiz kimi İrəvanla bağlı yaşanan bu problemlər Batum Konfransı boyunca da müzakirə olunurdu. Batumda olan Xəlil bəy Ənvər paşaya ərazi güzəştləri barədə məlumat verdikdə Ənvər paşa buna qarşı çıxdı. Ənvər paşa ermənilər tərəfindən işğal edilmiş ərazilərin ilk növbədə isə müsəlmanların yaşadıqları İrəvan quberniyasının ermənilərdən azad edilməsinə üstünlük verirdi. O, yazırdı: *"Mənafeyimizə ən çox uyğun olan bu şəkil gerçəkləşməzsə onda ermənilərə də bir mövcudiyyət verilməsi qaçılmaz olar"* [1, s.79]. Məhz bu kimi yaranan çətinliklərdən sonra Ənvər paşanın da məsləhəti ilə müqavilənin imzalanması nəzərdə tutulur. Beləliklə, 1918-ci il iyunun 4 - də Osmanı ilə digər 3 respublika arasında "Sülh və Dostluq" adlanan müqavilə imzalanır. "Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasında dostluq» müqaviləsinin imzalanması nəticəsində isə bu iki ölkənin arasındakı bağlar daha da gücləndirilir. Batum konfransının nəticəsi olaraq imzalanmış bu müqavilə özündə bir çox şərtləri ehtiva edirdi. Əldə edilmiş anlaşmanın bir sıra maddələrini nəzərinizə çatdırırıq:

Birinci maddə: sülh və möhkəm dostluğun yaradılacağını təsdiq edir;

İkinci maddə: Osmanlı imperiyası və Azərbaycan, Gürcüstan, Ermənistan arasında dövlət sərhəd xəttinin müəyyənləşdirilməsinə aid olunur; burada həmçinin Azərbaycan və Türkiyə arasında geniş dövlət sərhədi zolağı olması nəzərdə tutulurdu;

Üçüncü maddə: Azərbaycan, Gürcüstan və Ermənistan dərhal öz aralarında sərhədləri müəyyənləşdirən və həmin müqavilənin bir hissəsini təşkil edən protokollar imzalamalı və bu barədə Osmanlı hökumətinə məlumat verməli idilər;

Dördüncü maddə: Osmanlı hökuməti, əgər zəruri olarsa sülh və əmin-amanlığın möhkəmləndirilməsi, ölkənin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan Cümhuriyyətinə hərbi kömək göstərməyi öz üzərinə götürür.

Bu və ya digər maddələrin ümumi məzmununa bir daha nəzər salsaq deyə bilərik ki, müqavilə Azərbaycan Xalq Cümhuriyyətinin təhlükəsizliyini təmin etməklə yanaşı baş verəcək fövqəladə hallar zamanı Osmanlı dövlətinin bizlərin yanında olacağına işarə edir. Hətta məsələ ilə bağlı F.Kazımzadənin

fikrincə isə 4 iyun müqaviləsi nəticəsində: *"Azərbaycan heç nə itirmirdi, əksinə Osmanlı yardımına arxalanaraq Bakını tutmaq ümidində idi"* [1, s.81]. Bu məsələ ilə bağlı faktlardan biri isə İstanbuldan Xarici İşlər naziri M.Hacınskiyə ünvanlanan məktubda öz əksini tapır. Məktubda deyilir: *"Lakin nə olursa olsun siz Bakını almalısınız. Qoy hər kəs fakt qarşısında qalsın"* [7, s.30]. Bütün bunlar bir daha onu deməyə əsas verir ki, Osmanlı dövləti ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında imzalanmış bu müqavilə bizlərə böyük üstünlüklər vəd edirdi. Digər dövlətlərlə imzalanmış müqavilə "dostluq" adlansa da bizlərlə imzalanan bu sülh sözün əsl mənasında dost kimi Osmanlı dövlətinin yanımızda olduğunu əks etdirirdi.

Batum müqaviləsinin imzalanmasından sonra iki saziş daha bağlandı: "Birinci müqavilə əsasında sərhədyanı zonada ticarət, gediş-gəliş və gömrük məsələləri əhatə edilirdi. İkinci müvəqqəti əlavə müqavilə isə, 4 iyun müqaviləsində ümumi şəkildə təsbit edilmiş bəzi maddələri dəqiqləşdirirdi. Altı maddədən ibarət olan müqavilənin birinci maddəsinə əsasən, Azərbaycan hökuməti Osmanlı imperiyası və onun müttəfiqləri ilə müharibə edən ölkələrin zabit və mülki çinovniklərini təcili şəkildə respublikanın hüdudlarından çıxardacağını öz üzərinə götürürdü. Bundan əlavə, müharibənin davam etdiyi dövrdə Azərbaycan hökuməti Dördlər İttifaqına qarşı vuruşan ölkələrin zabitlərini hərbi xidmətə qəbul etməməli idi. Müqavilənin ikinci maddəsi Azərbaycan dəmir yolundan istifadə qaydasını müəyyənləşdirirdi. Bu maddəyə əsasən, Osmanlı hərbi komendantlığı hərbi məqsədlərlə Azərbaycan dəmir yolundan istifadə etmək hüququ alırdı. Osmanlı və Azərbaycan birgə komissiyası dəmir yoluna aid meydana çıxan problemləri birgə həll etməli idilər. Azərbaycan Respublikası dəmir yolunu öz qüvvələri ilə mühafizə etməli idi" [1, s.83]. Beləliklə, Batum konfransında əldə edilmiş müqavilələr həmçinin daha sonradan əlavə edilmiş iki müqavilə AXC-in beynəlxalq aləmdə atdığı ilk addımları hesab edilir. Hansı ki bu addımların nəticəsi olaraq, Bakının azad edilməsində Türk ordusunun böyük rolu olmuşdur. Müqavilənin şərtlərindən birində də qeyd edildiyi kimi çətin günlərində Azərbaycandan dəstəyini əsirgəməyən türk dəstələri "Sentrokaspi"diktaturasını məhv edərək, sentyabr ayının 15-i Bakının azad olunmasına nail olmuşlar. Qurulmuş güclü dostluq əlaqələrinin Nazim Mustafa öz əsərində belə ifadə edirdi: "Azərbaycan ziyalıları hesab edirlər ki, Türkiyənin yardımı olmadan Azərbaycanın müstəqilliyinə nail olmaq və onu qoruyub saxlamaq mümkün olmayacaq" [6]. Və bu cümlə bir daha Türkiyənin şanlı tariximizdə oynadığı rolu əks etdirməklə yanaşı cümhuriyyət qurucularının xarici siyasətdə uğurlu addım atmış olduğunu bizlərə sübut edir.

Daha öncə də qeyd etdiyimiz kimi Türkiyə ilə qurulmuş bu əlaqələrin Avropa ilə olan münasibətlərimizə də böyük təsiri oldu. Sentyabrın 15-dən sonra Almaniyanın hərbi və ticarət nümayəndəsi baron Fon der Qolds, eləcə də Avstriya Macarıstanın diplomatik nümayəndə heyəti Bakıya gəldi. Məhz milli hökumətin fəallığı və Tələt Paşanın dəstəyi nəticəsində Almaniya hökuməti 27 avqust müqaviləsinin hüquqi qüvvəsini itirdiyini bildirdi, Azərbaycan respublikasını müstəqil dövlət kimi tanıyacağına və tezliklə Bakıda konsulluq açacağına söz verdi [5].

Bütün bunlara baxmayaraq Osmanlı dövlətinin Birinci Dünya müharibəsində məğlubiyyətə uğraması və müqavilələr nəticəsində ağır şərtlərə məruz qalması, Azərbaycandakı ordularını geri çəkməsi ilə nəticələndi. Bütün bunlar isə öz növbəsində Bakıya, Azərbaycanı işğal ediləcək torpaqlar kimi görən dövlətlərin siyasətinin başlıca amalına çevrildi. Bakının tarix boyu diqqət mərkəzində olması, xarici siyasətimizdə bu baxımdan özünə məxsus izlər qoymuşdur.

***Paris Sülh konfransı digər dövlətlərlə münasibətlər.*** Erməni mənfurlarının tələbi ilə 1918-ci ilin noyabrın 17-də general Tomsonun başçılığı ilə ingilis qoşunu Bakıya daxil oldu. General Tomson əvvəlcə Cümhuriyyəti tanımayacağını bildirmişdi. Amma Parlamentin və III Hökumətin demokratik prinsiplər əsasında təşkilini gördükdən sonra mövqeyini dəyişdi. Nəticədə ingilis komandanlığı Cümhuriyyət hökumətini Azərbaycanda yeganə səlahiyyətli hökumət kimi qəbul etdi. 1919-cu ilin yayında ingilis qoşunları Azərbaycanı tərk etdikdə Xəzər hərbi donanmasının bir neçə gəmisini də Milli Hökumətə verdi. Bu da Azərbaycan diplomatiyasının uğuru idi [5]. Bununla da, 1918-ci ilin noyabr ayından etibarən AXC-inin qərb yönümlü siyasəti dövrü başlamış oldu. Bu zaman qarşıda duran əsas məqsədlərdən biri Paris Sülh konfransında Azərbaycan nümayəndə heyətinin iştirak etməsi ilə bağlı idi. Belə ki, Birinci dünya müharibəsindən sonra qalib dövlətlər müharibədən sonrakı dünyanın vacib məsələ-

lərini həll etmək üçün Parisdə sülh konfransının çağrılmasına qərar verdilər. Dekabrın 7-də Azərbaycan parlamentində Parisə getmək üçün seçilən nümayəndə heyəti 1919-cu il yanvarın 20-də İstanbula gəldi. Lakin burada Parisə yola düşmək üçün Fransa hökumətindən üç ay yarım icazə gözləməli oldu. Yalnız aprelin 22-ə ingilislərin köməyi ilə Parisə yola düşə bildilər və may ayında Parisə çatdılar. Azərbaycan nümayəndə heyətinin Parisdə Vudro Vilsonla görüşü isə 1919-cu il may ayının 28-ə təsadüf edirdi. Görüş zamanı nümayəndələr Azərbaycanın iqtisadi siyasi vəziyyəti ilə yanaşı etnoqrafik tərkibi, əhalinin demoqrafik göstəriciləri, xəritəmiz və sərhədlərimiz kimi məsələləri ön plana çıxardılar. Həmçinin Vilson prinsiplərinin Azərbaycana aid edilməsi, Azərbaycanın Millətlər Liqasına qəbul olunması, ABŞ-la Azərbaycan arasında diplomatik və iqtisadi əlaqələrin bərqərar edilməsi də xahiş edilirdi. Lakin Vilsonla olan bu görüş dərhal öz nəticəsini vermədi. Bütün bunların nəticəsi olaraq, 1920-ci il yanvarın 11-də Paris konfransının Ali Şurası tərəfindən(Kenzonun qərarı ilə) Azərbaycanın istiqlalının defakto tanınması həyata keçirildi.Daha sonra isə Ali şura 4 maddəlik qərar qəbul etdi. Burada qeyd olunan əsas məsələlərdən biri də müttəfiq dövlətlərin Qafqaza qoşun yürütməsi ilə bağlı olan qadağa idi. Həmçinin kənar müdaxilələr zamanı müttəfiq dövlətlər ərzaq və silah yardımı etməyi öz üzərilərinə götürmüş oldular. Bununla bağlı hərbi materialların hazırlanması Foş və Vilsona tapşırıldı. AXC-in Avropa həmçinin Amerika ilə bu dövrlərdə qurduğu münasibətlərin nəticəsi olaraq digər ölkələrin ərazisində diplomatik nümayəndəliklərin açılması nəzərdə tutuldu. Hansı ki bu ölkələr arasında Belçika, İsveçrə, Holandiya, Çexiya, Slovakiya, İtaliya kimi ölkələr yer alırdı. Eyni zamanda bu dövlətlərin Bakıda da nümayəndəliklərininin açılması ilə bağlı qərarlar verildi. Belə ki, qeyd olunan məsələlərdən əlavə bu dövrlərdə Azərbaycan və İtaliya arasında dostluq mübasibətlərinin formalaşması da meydana gəldi. Paris sülh konfransında AXC nümayəndə heyəti Qərb dövlətlərinin Qafqazda himayəçiliyi məsələsinin müzakirəsində Böyük Britaniyaya üstünlük versə də, İtaliyaya AXC üzərində himayəçilik təklif edildi. İtaliyanın AXC-də böyük iqtisadi maraqları olsa da onu xarici təcavüzdən qorumaq üçün burada kifayət qədər hərbi qüvvəsi yox idi. AXC İtaliya ilə iqtisadi-siyasi əlaqələri gücləndirmək üçün 1919-cu ilin sonu 1920-ci ilin əvvəllərində İbrahim ağa Usubovun başçılığı ilə Romaya nümayəndə heyətini göndərdi. 1920-ci ilin fevralında Bakıya gəlmiş İtaliya hökumətinin nümayəndələri ilə AXC hökuməti arasında imzalanan sazişə əldə edildi. Bu sazişə, əsasən, İtaliya hökumətinin Azərbaycana göstərdiyi dəstək qarşılığında Azərbaycan da onları neftlə təmin etməli idi.

Azərbaycan Xalq Cümhuriyyətinin qonşu dövlətlərlə əlaqəsini möhkəmləndirməsi bu sahədə atılan addımların ən önəmlisi hesab edilirdi. Xarici dövlətlərə qarşı birlik nümayiş etdirmək hər iki qonşu dövlətin müstəqillik və suverenliyinin qorunub-saxlanmasına şərait yaradırdı. Belə dövlətlərdən biri də məhz Gürcüstan Respublikası idi. Belə ki, yenicə müstəqillik əldə etmiş respublikalar içərisində, Gürcüstan da özünü müdafiə etmək sahəsində digər dövlətlərlə əməkdaşlıq etməyə çalışırdı. Məhz bunun nəticəsidir ki, Azərbaycanla da 1919-cu il iyunun 16 da hərbi saziş imzalandı. Hərbi sazişin imzalanmasını əsas şərtləndirən amil məhz yaxınlaşan təhlükə ilə bağlı idi. Mövcud dövrlərdə Çar generalı Denikinin ordusu ilə Qafqaz ölkələrinə yürüş etməsi, beynəlxalq aləmdə Azərbaycanla Gürcüstan aləqələrininin formalaşmasına səbəb oldu. Hətta bütün bunlar Rusiyaya göndərilmiş müraciətlərdən birində belə əksini tapır: *"Hazırda Şimali Qafqaz. Respublikasının ərazisinin general Denikin ordusu tərəfindən işğalı, Azərbaycan və Gürcüstan respublikaları üçün təhlükənin yaranmasından xəbər verir və bununla Rusiyanın mürtəce qüvvələri keçmiş çar Rusiyası ərazisində yaranmış gənc müstəqil respublikaları öz əsarətinə qaytarmağa cəhd göstərirlər..."* [1, s.238]. Yaranmış vəziyyətlə əlaqədar may ayının axırlarından başlayaraq, Azərbaycan, Gürcüstan və Dağlılar Respublikasının nümayəndələri arasında siyasi və iqtisadi ittifaq bağlamaq haqqında danışıqlar başlandı. May ayının 30-da Versalda A.Çermoyevin mənzilində Azərbaycan və Dağlı nümayəndələrinin birgə iclası keçirildi. İclasda dövlətlər arası komissiyanın Qafqaz konfederasiyası yaratmaq barədə təklifləri müzakirə edildi. Gürcülərin mübahisəli ərazi məsələlərini beynəlxalq arbitraja çıxartmaq təklifləri ilə bağlı göstərildi ki, bu respublikalar arasında ziddiyyətlər o qədər də dərin deyildir və bunları yerlərdə həll etmək olar. Bundan əlavə, Azərbaycan nümayəndələri bu fikirdə idi ki, konfederasiya yaranacağı təqdirdə hər respublika öz siyasi müstəqilliyini saxlamalıdır. Bu məsələ hər üç nümayəndəliyin 15 iyun tarixli iclasında da müzakirə edildi. Konfederasiya haqqında tam razılıq əldə edilməsə də, hər üç nümayəndəliyin vahid siyasi fəaliyyəti haqqında qərar qəbul edildi [1, s.240]. Sözsüz ki, bütün bunlar sazişin imzalan-

masını daha da sürətləndirirdi. Üç il müddətinə imzalanmış hərbi müdafiə xarakterli müqaviləyə görə, Azərbaycan və Gürcüstanın istiqlaliyyəti və ərazi bütövlüyünə hər hansı dövlət tərəfindən təcavüz olunduğu təqdirdə müqavilədə olan tərəflər bir-birinə hərbi yardım göstərməyə borclu idilər. Müqavilədə göstərilirdi: 1. Müqavilədə olan dövlətlər öz üzərlərinə götürürlər ki, bir və ya hər iki tərəfin ərazi bütövlüyü və müstəqilliyinə hər hansı hücum və təhlükə olarsa, özlərinin bütün silahlı qüvvələri vasitələri ilə buna qarşı çıxarlar; 2. Qonşu dövlətlərdən hər hansı biri əvvəlki bəndə uyğun olaraq başlanmış hərbi əməliyyatlar zamanı sərhəd mübahisələrini silah gücünə həll etmək üçün müqavilədə olan tərəflərin birinə, yaxud hər ikisinə hücum edərsə, həmin dövlət vuruşan tərəf kimi tanınır; 3. Müqavilə ciddi müdafiə xarakteri daşıyır, əgər tərəflərdən biri öz xüsusi təşəbbüsü ilə qabaqcadan razılaşdırılmadan müharibə elan edir yaxud hərbi əməliyyatlara başlayırsa müqavilədə olan digər tərəf həmin hərbi əməliyyatlarda iştirak etməyə borclu deyildir; 4. Müqavilədə olan tərəflər, onlar arasında baş verən bütün sərhəd münaqişələrini sazişlər və arbitraj yolu ilə həll etməyi öhdələrinə götürürlər. Belə halda qəbul edilmiş qərar hər iki tərəf üçün sonuncu və məcburi qərar hesab edilir; 5. Müqavilə üç il müddətinə bağlanır. Bu müddətin başa çatmasına bir il qalmış tərəflərə hüquq verilir ki, onun müddətinin uzadılması, yaxud ləğv edilməsi barədə öz arzusunu bildirsin; 6. Müqavilədə olan tərəflər, hər iki dövlətin suveren hüquqlarının və müstəqilliyinin qorunmasına yönəlmiş diplomatik danışıqlar aparmağı və həmrəy çıxış etməyi öz üzərinə götürürlər; 7. Müqavilədə olan tərəflər, separat sülh bağlamamağı öhdələrinə götürürlər; 8. Müqavilədə olan tərəflər, öz müttəfiqinə qabaqcadan xəbərdarlıq etmədən digər dövlətlə hərbi saziş bağlamamağı öz üzərinə götürür; 9. Əgər 5-ci bənddə göstərilən müddət başa çatmamış bütün dövlətlərin sərhədlərinin toxunulmazlığına təminat verən xalqlar liqası yaranarsa və müqavilədə olan tərəflər ora daxil olarsa, onda bu müqavilə öz qüvvəsini itirir; 10. Bu müqavilə barədə rəsmi surətdə məlumat verdikdən sonra Ermənistan 2 həftə ərzində bu müqaviləyə qoşula bilər. Müqavilə barəsində Azərbaycan və gürcü nümayəndələrinin Paris Sülh konfransına təqdim etdikləri məlumatda göstərilirdi ki, "bu sazişdə yalnız müdafiə məqsədləri güdülür" [1, s.246-247].

Belə ki, saziş imzalandıqdan sonra yerinə yetirilməsi üçün Hərbi Şura yaradıldı. Şurada Azərbaycanı Ə.Şxlinski, AXC ordusunun baş qərargah rəisi M.Sulkeviç təmsil edirdi. Müqavilədən sonra Gürcüstan Azərbaycana hərbi texnika və silah-sursat, Azərbaycan isə Gürcüstana neft və neft məhsulları göndərdi.Beləliklə, iki dövlət arasında diplomatik əlaqələr uğurla davam etdirildi.

Bayaq da qeyd etdiyimiz kimi, qonşu ölkələrlə münasibətlərin nizama salınması cümhuriyyət qurucularının qarşısında duran əsas vəzifələrdən biri idi. Bu sahədə atılmış addımlardan biri də məhz Dağlı Respublikaları ilə bağlıdır. Qeyd edək ki, Dağlı xalqları Şimali Qafqaz bölgəsinin sakinləri olmuş, uzun illər boyu çar hökumətinin təsiri nəticəsində Azərbaycanla da yaxınlıq göstərmişdilər. Ancaq Azərbaycan Xalq Cümhuriyyəti quruluqdan sonra onların ərazi iddialarının baş qaldırması mövcud meydanda yeni təhlükənin yaranmasının göstəricisi idi. Bunun nəticəsi olaraq 1918-ci ilin sonlarında Dağlı Respublikasının hərbi dəstələri ölkədən çıxarılmış oldu. Ancaq daha öncə də qeyd etdiyimiz kimi, 1919-cu illərin yaz aylarından etibarən iki respublika arasında münasibətlər yaxşılaşdırılmış, şimaldan gələ biləcək təhlükəyə qarşı birlikdə mübarizə aparılmasına dair müqavilələr imzalanmışdır. Bu sayədə Azərbaycan öz şimal sərhədlərinində qorunması üçün layiqli bir tərəfdaş əldə etmiş oldu. Lakin bütün bunlar heç də uzun çəkmədi. 1919-cu ilin yay aylarında Dağıstan ağqvardiyaçılar tərəfindən işğal edildi. İstər Azərbaycan hökuməti ilə danışıqlarda, istərsə də müxtəlif yazışmalarda və bəyanatlarda ingilislər vəd verirdilər ki, Könüllü Ordu Dağıstana girməyəcəkdir. Lakin Denikinin Dərbəndə doğru hərəkəti bu vədlərin etibarsız olduğunu sübut etdi [1, s.242]. Dağıstanın işğal edilməsi həm də şimal sərhədlərimizin təhlükə altında qalmasına işarə edirdi. Bu hadisənin gedişatı zamanı Denikinin qərargahında olan ingilis generalı Briks Azərbaycan hökuməti ilə Könüllü Ordu arasında əlaqə yaratmağa cəhd göstərirdi. O, Azərbaycan hökumətinin Kubanda olan diplomatik nümayəndəsi C.Rüstəmbəyovu A.Denikinlə görüşdürmüşdü. General Briks təklif edirdi ki, Denikinlə Azərbaycan arasında ixtilafi aradan götürmək üçün diplomatik nümayəndəliklər təsis edilsin. Denikin buna razı olsa da, Azərbaycan hökuməti bu təklifi rədd etdi [1, s.244].

Bütün bunlar həm də Rusiyanın apardığı mənfur siyasətin bir hissəsini özündə əks etdirirdi. Hələ cümhuriyyət elan edildiyi andan etibarən müstəqilliyimizi özünə sığışdırmayan sovet Rusiyası öz separatçılıq fəaliyyətlərini 23 ay hökm sürmüş milli istiqlal tariximiz zamanı da nümayiş etdirmiş oldu.

Bunun əsas göstəricilərindən biri Lənkəranda yaradılmış Muğan Sovet Respublikası idi. Belə ki, 1919-cu ilin may ayında Sovet Rusiyasından alınan hərbi və pul yardımı vasitəsi ilə belə bir respublikanın yaradılması azərbaycanlıları hiddətləndirməyə bilməzdi. Bunun nəticəsi olaraq 1919-cu ilin avqust aylarında Milli Ordu qüvvələri separatçı Muğan Respublikasının ləğv edilməsinə nail oldular. Həmçinin parlamentimizin təsis edilməsi zamanı, parlamentdə təmsil edilməsi üçün rus nümayəndələrin cəlb edilməsi də cümhuriyyət qurucularına heç də asanlıqla başa gəlməmişdir. Mövcud olduğu dövr ərzində Sovet Rusiyasının Azərbaycanın müstəqilliyini qəbul edə bilməməsi düzgün münasibətlərin qurulmasını çətinləşdirirdi. Bunların hər biri 1920-ci ilin əvvəllərindən Rusiyanın Azərbaycana göndərdiyi notalarda bir daha əks olunurdu. Bu notalar zamanı qoyulmuş məqsədin Denikinə qarşı mübarizə aparmaq cəhdi olduğunu bildirən Sovet Rusiyasının əsas məqsədləri tamamilə başqa idi. Hansı ki, bunların hər biri daha sonra öz nəticəsini göstərmiş oldu.

Azərbaycanın müstəqilliyini qəbul etmək istəməyən qonşu dövlətlərdən biri də məhz Qacarlar idi. Müstəqilliyimizi elan etdiyimiz ilk andan etibarən Qacarlar hökumətini də razı sala bilmək üçün mühüm addımlar atılmışdır. Qacar hökumətini bu baxımdan narahat edən əsas məsələlərdən biri də ərazilərində yaşamış olan Cənubi Azərbaycanlılarla bağlı idi. Cənubda yaşayan soydaşlarımız Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsini müsbət qiymətləndirmiş, gələcəkdə də bu baxımdan Cənubda yaşayan azərbaycanlılar üçün müəyyən qərarlar alacaqlarını düşünmüşdülər. Məhz buna görə də Azərbaycanın müstəqilliyini tanımaq istəməyən Qacar hökuməti ilə danışıqlıqlar çox uzun zaman almışdır. Bunun nəticəsi olaraq, 1919-cu ilin avqustunda Böyük Britaniya ilə İran müqavilə bağladıqdan sonra İran AXC -yə ərazi iddiasına son qoydu və daha sonra iki dövlət arasında 1920-ci ilin mart ayında "Dostluq müqaviləsi" imzalandı. Bu müqavilənin imzalanmasından etibarən Qacar hökuməti Azərbaycanın müstəqilliyini de-yure olaraq tanımış oldu. Həmçinin Tehranda səfirlik, Təbrizdə isə baş konsulluq fəaliyyət göstərməyə başladı.

Azərbaycan Xalq Cümhuriyyətinin diplomatik sahədə həyata keçirdiyi fəaliyyətlərin ən çətin qismi aprel işğalının yaxınlaşması ilə bağlı idi. Qarabağda yenidən fəallaşmış erməni qüvvələri eyni zamanda şimaldan artan təhlükə hökumət qurucularını narahat edirdi. Belə ki, Aprel ayının 21-də Qafqaz cəbhəsi komandanlığının XI Ordu rəhbərliyi və Volqa Xəzər donanmasına göndərdiyi 490 nömrəli direktivdə göstərilirdi ki, Azərbaycanın əsas qüvvəsi öz dövlətinin qərb cəbhəsində məşğuldur. Ona görə XI Orduya və Volqa Xəzər donanmasına Tuxaçevski, Orconikidze və Zaxarovun imzası ilə göndərilən direktivdə əmr edilirdi ki, aprel ayının 27-də Azərbaycan sərhədini keçib, beş gün ərzində Yalama-Bakı əməliyyatını yerinə yetirsinlər [1, s.407]. Respublikanın Sovet Rusiyası tərəfindən təcavüzə məruz qaldığı, sərhədlərinin pozulduğu barədə Azərbaycan hökuməti aprelin 27-də müttəfiqlərin Tiflisdəki nümayəndələri Qraf de Martelə, polkovnik Qabbaya və H.Luko təcili məlumat göndərdi. Azərbaycan hökuməti müttəfiqlərin nümayəndələrindən xahiş edirdi ki, Ermənistanın Azərbaycana yenidən hücum etməməsi üçün Ermənistan Hökumətinə təsir göstərsinlər. Çünki, baş vermiş təcavüz aktı ilə əlaqədar hökumət öz qoşunlarını Qarabağdan və Ermənistanla sərhəd rayonlarından çıxarmağı planlaşdırırdı. Müttəfiqlərin nümayəndələri elə həmin gün Ermənistan hökuməti ilə əlaqəyə girdilər. Aprel ayının 28-də Ermənistan hökuməti bildirdi ki, onların orduları dayandıqları mövqelərdən irəliləməyəcək və Azərbaycana hücum etməyəcəklər [1, s.408]. Lakin qeyd etmək lazımdır ki, artıq Sovet Rusiyası tərəfindən lazımi addımlar atılmış- ordu Bakı istiqamətindən çoxdan hərəkətə düşmüşdü. Bütün bunlar parlamentdə yenidən iclasın keçirilməsinə zərurət yaradırdı. Beləliklə,parlamentin 145-ci, sonuncu iclasını M.Ə.Rəsulzadə açıq elan etdi. Diskussiyaların gedişində sosialist fraksiyası və onlara yaxın olan fraksiyalar hakimiyyəti bolşeviklərə vermək tələbini müdafiə etdilər. Onların bu çıxışlarına etiraz bildirən M.Ə.Rəsulzadə deyirdi: *"Qardaşlar! Qarşımızda bir ultimatum durur. Burada təslimdən bəhs edilir. Fəqət qardaşlar, təslim nə deməkdir..."* [3, s.417]. Bütün bunlara baxmayaraq 1920-ci il axşam saat 11 radələrində "Hakimiyyətin Kommunistlərə Təhvil Verilməsi Haqqında" başlığı ilə parlament qərar qəbul etdi. Parlamentin bu qərarında deyilirdi:

1. Sovet hökuməti tərəfindən idarə olunan Azərbaycanın tam istiqlaliyyəti mühafizə edilir;
2. Azərbaycan Kommunist Firqəsinin yaratdığı hökumət müvəqqəti orqan olacaqdır;

3. Azərbaycanın son idarə formasını hər hansı bir xarici təzyiqdən asılı olmayan Fəhlə, Kəndli və Əsgər Deputatları Sovetləri şəxsində Azərbaycanın ali qanunverici orqanı müəyyənləşdirir;

4. Hökumət idarəsinin bütün xidmətçiləri öz yerlərində qalır, ancaq məsul vəzifə tutanlar dəyişdirilir;

5. Yeni yaradılan Müvəqqəti Kommunist Hökuməti Parlamentin və hökumət üzvlərinin həyatının və əmlakının toxunulmazlığına təminat verir;

6. Qızıl Ordunun Bakı şəhərinə döyüşlə daxil olmasına yol verməmək üçün tədbir görüləcək;

7. Yeni hökumət haradan baş verməsindən asılı olmayaraq Azərbaycanın istiqlalını sarsıtmaq məqsədi güdən bütün xarici qüvvələrə qarşı qəti tədbirlər görəcək və öz sərəncamında olan bütün vasitələrlə mübarizə aparacaqdır. Azərbaycan Parlamentinin özünün fövqəladə iclasında bu şərtləri səs çoxluğu ilə qəbul etdiyini sizin nəzərinizə çatdırıram [3, s.420].

***Nəticə.*** Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq aləmdə müstəqilliyini tanıtmaq və möhkəmləndirmək istiqamətində mühüm addımlar atmışdır. 1920-ci ilin əvvəlinə qədər 20-dən çox dövlətlə diplomatik əlaqələr qurulması və Paris Sülh Konfransında iştirak Azərbaycan Cümhuriyyətinin beynəlxalq arenada tanınmasına dəlalət etmiş bununla belə, Qərb dövlətlərinin bölgədəki maraqlarının ziddiyyəti, Sovet Rusiyasının təcavüzkar siyasəti və beynəlxalq aləmin Cümhuriyyətə yetərincə dəstək verməməsi onun süqutunu qaçılmaz etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti qısa ömrünə baxmayaraq müstəqil dövlətçilik ənənələrini və diplomatik fəaliyyətini formalaşdıraraq xalqın milli iradəsinin və beynəlxalq əməkdaşlıq ruhunun göstəricisi kimi tarixdə iz buraxmışdır. Sonuncu iclasın qərarlarından da bir daha aydın olur ki, müstəqilliyimizin ləğv edilməsinə baxmayaraq Rusiya qarşısına bu cür tələblərin qoyulması ilə hökumət başçıları gələcəkdə də Azərbaycan xalqının müstəqil və rahat həyatını təmin etməyə çalışırdılar. Lakin çox təəssüflə qeyd etməliyik ki, Sovet hökuməti qoyulmuş tələblərə məhəl qoymayaraq ərazidə öz siyasətini yeritməyə başladı. Cümhuriyyətin qısa müddətdə olan bu fəaliyyətləri diplomatik sahədə həyata keçirilmiş ən böyük addımlardan biri idi. Beləliklə, bütün bunların hər biri Sovet Rusiyasının süqut etməsindən sonra Ümumilli Lider Heydər Əliyevin siyasətinin də bir parçasına çevrildi. Qoyulmuş dövlətçilik ənənələrinin davam etdirilməsi və bu sahədə uğurlu addımların atılması isə bu gün respublikamızın prezidenti cənab İlham Əliyevin xarici siyasətinin əsas prinsipini təşkil edir. Məhz bu səbəbdən bu gün bir çox ölkələrlə uğurlu diplomatik əlaqələrin həyata keçirilməsi baş tutur. Hansı ki, bu münasibətlər müstəqil və milli maraqlara əsaslanaraq regional və beynəlxalq əlaqələri balanslaşdırmağa yönəlmişdir. Bunun nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti dövründə özünün yeni dövrünü yaşayan diplomatiyamız bu gün daha da inkişaf edir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının diplomatiya tarixi. I cild. Bakı, "GARISMA" MMC, 2009, 576 s.
2. Azərbaycan Xalq Cümhuriyyətinin ensiklopediyası. I cild. Bakı, Lider nəşriyyatı, 2004, 471 s.
3. Azərbaycan Xalq Cümhuriyyəti. 1918-1920. Parlament. Stenoqrafik hesabatlar. II cild. Bakı, 1998, 435 s.
4. Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti. 1918-1920. Bakı, "GARISMA" MMC, 2009, 576 s.
5. Kərimova K. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti / Ədalət, 2018, 19 may, №89, s.4.
6. Mustafa N. Azərbaycan Xalq Cümhuriyyətinin işığında. 1918-1920. Bakı, ULU İKF, 2018, 268 s.
7. Yaqublu N. Bakının qurtuluşu. Qafqaz İslam Ordusu. Bakı, Qanun nəşriyyatı, 2021, 209 s.
8. Nurlan Qələndərli. Azərbaycan Xalq Cümhuriyyəti dövlətçilik tariximizin şanlı qürur səhifəsidir / Yeni Azərbaycan, 2018, 26 may, s.2. - https://www.anl.az/down/meqale/yeni_az/2018/may/593090.htm [27.12.2025].
9. Hacı Qulu. İrəvan ermənilərə niyə verildi? / Axar.az Operativ xəbər portalı, 2016.06.01. - https://axar.az/news/gundem/96158.html [27.12.2025].

**RAMZI SAFARLI**
*Master student of Baku State University*

## FOREIGN POLICY AND INTERNATIONAL ROLE OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC

The activities of the Azerbaijan Democratic Republic, which laid the foundation for the nation's future statehood, were not limited to its domestic policies. From its very first days, this young state actively engaged in the international arena, leaving a significant mark on the history of Azerbaijan with many pivotal decisions. A substantial part of these efforts was connected to the outcomes of the Batum Conference. Having participated in the conference with a delegation from the outset, the founders of the republic aimed to continue these political processes successfully after declaring independence. As always, the Ottoman Empire extended its unwavering support to Azerbaijan during this period. One of the key challenges faced by the republic's leaders was ensuring the recognition of independence among neighboring countries. An initial step in this direction was the transfer of Yerevan to the Armenian government. Additionally, the normalization of relations with Iran and Georgia, especially the unification of states in the fight against Denikin, constituted a significant portion of the republic's diplomatic efforts. Furthermore, steps taken to gain influence among European countries resulted in the de facto recognition of the republic within a short period. This article aims to highlight the diplomatic achievements and challenges of the Azerbaijan Democratic Republic during its brief existence, reflecting on its rich and complex history.

*Keywords:* Azerbaijan Democratic Republic, Fatali Khan Khoyski, Batum Conference, Batum Peace, Paris Peace Conference, April occupation.

*Daxil olma tarixi*: 27.12.2025-ci il.
*Çapa imzalanma tarixi*: 30.01.2026-cı il.

UOT 371.3

SÜLEYMAN RƏHİMLİ
*Bakı Dövlət Universitetinin II kurs magistrantı*
**suleyman.rhml05@gmail.com**

# ALİ TƏHSİL SİSTEMİNDƏ TARİXİN TƏDRİSİNDƏ MÜƏLLİMİN KOMMUNİKATİV BACARIQLARININ ƏHƏMİYYƏTİ

*Elmi rəhbər:*
tarix elmləri doktoru Tahirə Həsənzadə

*Məqalədə ali təhsil sistemində müəllimin kommunikativ bacarıqlarının formalaşması və onların tədris prosesində tətbiq yolları araşdırılır. Tədqiqatda göstərilir ki, müəllimlərin pedaqoji ünsiyyət bacarıqlarının inkişafı tələbələrdə idraki fəallığın, tənqidi və yaradıcı düşünmənin formalaşmasına şərait yaradır, təlimin keyfiyyətini yüksəldir və müəllim-tələbə münasibətlərinin səmərəli təşkilinə xidmət edir. Məqalədə kommunikativ bacarığın pedaqoji fəaliyyətin əsas komponenti kimi rolu, onun psixoloji və didaktik aspektləri elmi-nəzəri baxımdan təhlil olunur. Həmçinin müəllimin ünsiyyət mədəniyyətinin ali təhsildə interaktiv və şəxsiyyətyönümlü tədris mühitinin formalaşmasındakı əhəmiyyəti vurğulanır.*

*Açar sözlər:* kommunikasiya, ali təhsil sistemi, müəllimin kommunikativ bacarıqları, pedaqoji ustalıq, tələbə-müəllim münasibətləri, interaktiv tədris metodları.

***Giriş.*** Müasir dövrdə ali təhsil sistemində qarşıya qoyulan əsas məqsəd yalnız ixtisaslı mütəxəssislər yetişdirmək deyil, eyni zamanda milli-mənəvi dəyərlərə sadiq, yaradıcı düşüncə tərzinə malik və kommunikativ cəhətdən inkişaf etmiş gənclərin formalaşdırılmasıdır. Mənim fikrimcə, bu məqsədə çatmaq üçün müəllimin rolu xüsusilə vacibdir. Çünki tədris prosesində müəllimin peşəkar fəaliyyətini müəyyən edən ən mühüm komponentlərdən biri onun kommunikativ bacarıqlarıdır. Müəllimin kommunikativ potensialı pedaqoji prosesin təşkilində, tələbə ilə qarşılıqlı ünsiyyətdə və təlimin formalaşmasında əsas rol oynayır.

Tarix fənninin tədrisi prosesində müəllimin kommunikativ bacarıqları xüsusi əhəmiyyət daşıyır. Öz təcrübəmdə də müşahidə etmişəm ki, tarix dərslərində kommunikativ yanaşma tələbələrdə həm elmi marağı, həm də vətənpərvərlik hissini artırır. Tarix fənni tələbələrdə milli kimlik, vətənpərvərlik, tənqidi düşünmə və hadisələrə obyektiv yanaşma kimi dəyərləri formalaşdırır. Mənim fikrimcə, bu məqsədlərə çatmaq üçün müəllim yalnız elmi biliklərlə deyil, həm də pedaqoji-psixoloji ünsiyyət mədəniyyəti ilə silahlanmalıdır.

Ali təhsil müəssisələrində tarix fənninin tədrisi təkcə bilik ötürmək prosesi deyil, həm də şəxsiyyətlərarası qarşılıqlı təsir, dəyərlərin paylaşılması və milli kimlik şüurunun formalaşdırılması prosesidir. Bu baxımdan müəllimin kommunikativ bacarıqları tələbənin dərsə marağını, idraki fəallığını və emosional iştirakını artırır. Babanjski bu barədə qeyd edir ki, "tədris prosesinin effektivliyi müəllimin kommunikativ fəaliyyətinin psixoloji iqlim yaratmaq bacarığından asılıdır" [2, s.97].

Azərbaycan Respublikasında təhsil islahatları çərçivəsində müəllimlərin kommunikativ bacarıqlarının inkişafı strateji prioritet kimi müəyyən edilmişdir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qeyd olunur ki, "müəllimin kommunikativ və sosial bacarıqlarının inkişafı təhsilin keyfiyyət göstəricilərinə birbaşa təsir edən amildir" [3]. Bu fikir mənim tədqiqat mövzumla birbaşa əlaqəlidir, çünki mənim məqsədim də məhz bu bacarıqların tarix fənninin tədrisində necə təzahür etdiyini araşdırmaqdır.

Mövzu həm nəzəri, həm də praktik əhəmiyyət kəsb edir: nəzəri baxımdan pedaqoji ünsiyyətin struktur və funksional əsaslarını təhlil etməyə imkan verir, praktik baxımdan isə ali məktəblərdə

tədrisin keyfiyyətinin yüksəldilməsinə və tələbə-müəllim münasibətlərinin humanistləşdirilməsinə xidmət edir.

Tədqiqatın məqsədi ali təhsil sistemində tarix fənninin tədrisində müəllimin kommunikativ bacarıqlarının rolunu və əhəmiyyətini elmi-nəzəri və praktik aspektlərdə araşdırmaq, onların tədris keyfiyyətinə və tələbə-müəllim münasibətlərinə təsir mexanizmlərini müəyyənləşdirməkdir.

Tədqiqatda bu məqsədlərə çatmaq üçün aşağıdakı vəzifələri müəyyən etmişəm:

1. Kommunikativ bacarıq anlayışının pedaqoji və psixoloji mahiyyətini elmi ədəbiyyat əsasında təhlil etmək;
2. Ali təhsil sistemində tarix fənninin tədrisinin kommunikativ aspektlərini müəyyənləşdirmək;
3. Müəllimin kommunikativ bacarıqlarının pedaqoji ustalıq və tədris səmərəliliyi ilə qarşılıqlı əlaqəsini izah etmək;
4. Tələbə-müəllim münasibətlərində kommunikativ mühitin formalaşmasına təsir edən amilləri araşdırmaq;
5. Tarix fənninin tədrisində müəllimin kommunikativ bacarıqlarının inkişafını stimullaşdıran pedaqoji şərtləri müəyyənləşdirmək;
6. Ali təhsil müəssisələrində kommunikativ bacarıqların inkişafı üçün metodik tövsiyələr və təkmilləşdirmə istiqamətləri təklif etmək.

Tədqiqatın obyekti ali təhsil müəssisələrində tarix fənninin tədris prosesi, onun elmi-pedaqoji mahiyyəti və müəllim-tələbə münasibətlərinin kommunikativ aspektləridir. Obyektin seçilməsi zərurəti ondan irəli gəlir ki, müasir dövrdə tədris prosesinin səmərəliliyi yalnız biliklərin ötürülməsi ilə deyil, həm də kommunikativ mühitin formalaşması, psixoloji iqlimin yaradılması və qarşılıqlı anlaşmanın səviyyəsi ilə müəyyən olunur.

*Tədqiqatın predmeti* – ali təhsil sistemində tarix fənninin tədrisində müəllimin kommunikativ bacarıqlarının formalaşması, inkişafı və pedaqoji prosesdə onların tətbiq mexanizmləridir. Predmetin əsas məqsədi müəllimin kommunikativ fəaliyyətinin təlimin keyfiyyətinə, tələbələrin fəallığına və emosional iştirakına təsirini elmi-nəzəri və praktik baxımdan əsaslandırmaqdır.

*Tədqiqatın metodları* – elmi-nəzəri və empirik yanaşmaların vəhdətinə əsaslanır. Araşdırma prosesində aşağıdakı metodlardan istifadə edilmişdir:

1. Elmi-nəzəri təhlil – pedaqogika, psixologiya və kommunikasiya nəzəriyyəsi sahəsində mövcud elmi ədəbiyyatın və tədqiqatların sistemləşdirilməsi;
2. Müqayisəli təhlil – kommunikativ bacarıqların müxtəlif pedaqoji modellərdə və ali təhsil praktikalarında tətbiq xüsusiyyətlərinin müqayisəsi;
3. Sosioloji müşahidə və sorğu – tarix fənninin tədrisi zamanı müəllim və tələbələr arasında kommunikativ əlaqələrin səviyyəsinin empirik qiymətləndirilməsi;
4. Təhlil və ümumiləşdirmə – əldə olunan məlumatların pedaqoji və psixoloji baxımdan ümumiləşdirilməsi, nəticələrin sistemləşdirilməsi;
5. Deskriptiv metod – müəllimin kommunikativ bacarıqlarının struktur və funksional xüsusiyyətlərinin təhlili və təsviri.

Bu metodların birgə tətbiqi tədqiqatın obyektivliyini və elmi nəticələrin əsaslılığını təmin etmişdir. Araşdırma prosesi zamanı əldə olunan məlumatlar müəllimin kommunikativ fəaliyyətinin tədris keyfiyyətinə təsir mexanizmini açmağa, ali təhsil sistemində bu bacarıqların formalaşdırılması istiqamətində praktik təkliflər irəli sürməyə imkan verir.

Müəllim kommunikativ bacarıqlarının pedaqoji prosesdəki funksional əhəmiyyəti bir çox tədqiqatçılar tərəfindən vurğulanır. Məsələn, Ə.Ə.Əlizadə qeyd edir ki, "müəllimin pedaqoji fəaliyyətinin effektivliyi onun kommunikativ qabiliyyətlərinin inkişaf səviyyəsindən və ünsiyyət mədəniyyətindən asılıdır" [1, s.135]. Bu fikir göstərir ki, pedaqoji kommunikasiya təkcə informasiyanın ötürülməsi prosesi deyil, həm də təlimin mənəvi və sosial dəyərlərlə zənginləşdirilməsinə xidmət edən çoxşaxəli fəaliyyət sahəsidir.

***Kommunikativ bacarıqların nəzəri əsasları.*** Müasir təhsil sistemində kommunikativ bacarıqlar müəllimin pedaqoji fəaliyyətinin əsas struktur komponentlərindən biri hesab olunur. Bu bacarıqlar təlim prosesinin səmərəliliyini, tələbələrin idraki fəallığını və dərsdə sosial-psixoloji mühiti müəyyənləşdirən mühüm amillərdəndir. Pedaqoji prosesin effektivliyi müəllimin yalnız bilik daşıyıcısı olması ilə deyil, həm də kommunikasiya mədəniyyəti, empatiya qabiliyyəti və emosional təsir gücü ilə sıx bağlıdır.

"Kommunikasiya" termini elmi ədəbiyyatda latın mənşəli "communicare" sözündən olub, "əlaqə qurmaq", "paylaşmaq" mənaları ifadə edir. İnsan cəmiyyəti formalaşdıqca, kommunikasiya da insanların bir-biri ilə fikir, duyğu və məlumat mübadiləsini təmin edən əsas vasitə kimi inkişaf edib. Dil, jestlər və simvollar vasitəsilə yaranan bu əlaqələr insan həyatının ayrılmaz hissəsinə çevrilib. Müasir pedaqoji nəzəriyyələrdə kommunikasiya təkcə bilik mübadiləsi deyil, həm də müəllim-tələbə münasibətlərinin formalaşması və tədris prosesinin effektivliyini təmin edən sosial-psixoloji proses kimi qiymətləndirilir [2, s.72].

XX əsrdə pedaqogika, psixologiya, fəlsəfə kimi sosial elmlərin araşdırma sahəsinə çevrilir. Məlumat ötürülməsi nəzəriyyəsinin baniləri sayılan **Shannon** və **Weaver** (1949) kommunikasiya prosesini "mənbə – mesaj – kanal – qəbuledici" zəncirinə əsaslanan struktur kimi təsvir etmişlər [7]. Bu model sonradan müxtəlif sahələrdə, o cümlədən pedaqoji proseslərin tədqiqində də tətbiq olunmuşdur.

Ali təhsil sistemində tarix fənninin tədrisi zamanı müəllimin kommunikativ bacarıqları bir neçə səviyyədə - Təlim-tərbiyə prosesinin idarə olunmasında, Emosional və sosial əlaqə, Pedaqoji ustalığın inkişafında əhəmiyyət kəsb edir.

1. *Təlim-tərbiyə prosesinin idarə olunması* – müəllimin şagirdlərin idraki fəaliyyətini və dərs prosesinə marağını stimullaşdırır;

2. *Emosional və sosial əlaqə* – müəllimin tələbələrlə qarşılıqlı inam və əməkdaşlıq mühiti yaradır;

3. *Pedaqoji ustalığın inkişafı* – kommunikativ bacarıqların formalaşması müəllimin həm şəxsi, həm də peşəkar inkişafına töhfə verir.

Pedaqoji baxımdan kommunikativ bacarıqlar müəllimin tələbələrlə qarşılıqlı təsir mühitində səmərəli ünsiyyət qurmaq, emosional əlaqə yaratmaq və psixoloji sabitlik təmin etmək bacarığı kimi xarakterizə olunur.

V.A. Slastenin müəllimin peşəkar fəaliyyətini dörd əsas bacarıqla - didaktik, qnostik, təşkilati və kommunikativ bacarıqlarla izah etmiş və kommunikativ bacarıqları pedaqoji prosesin "emosional və sosial harmoniyasını təmin edən baza elementi" kimi dəyərləndirmişdir [4, s.145]. Bu yanaşma göstərir ki, kommunikativ bacarıq yalnız informasiya mübadiləsi deyil, həm də qarşılıqlı hörmət, inam və əməkdaşlıq mühitinin yaradılması vasitəsidir.

Psixoloji ədəbiyyatda isə kommunikativ bacarıqlar şəxsiyyətin sosial təcrübə qazanmasında və mənəvi inkişafında mühüm rol oynayır. S.L. Rubinşteynin fikrincə, "şəxsiyyətin formalaşması insanın digər insanlarla qarşılıqlı əlaqəsi prosesində reallaşır" [8, s.217]. Bu baxımdan, müəllimin kommunikativ fəaliyyəti yalnız informasiya ötürmək deyil, həm də tələbənin şəxsiyyətinə təsir göstərmək, onun sosial davranışını formalaşdırmaq funksiyasını daşıyır.

Azərbaycan pedaqoji fikrində də kommunikativ bacarıqlar müəllimin peşəkar ustalığının və şəxsiyyətinin mühüm göstəricisi kimi dəyərləndirilir. Ə.Ə.Əlizadə yazır ki, "müəllimin pedaqoji fəaliyyətinin effektivliyi onun tələbələr ilə psixoloji ünsiyyət mədəniyyətindən və emosional təmas yarada bilmə bacarığından asılıdır" [1, s.215].

Beləliklə, kommunikativ bacarıqların elmi əsasları pedaqogika, psixologiya və fəlsəfə elmlərinin kəsişməsində formalaşan çoxşaxəli bir anlayış kimi çıxış edir. Bu bacarıqlar müəllimin həm peşəkar, həm də insani keyfiyyətlərinin sintezini ifadə edir və ali təhsildə tarix fənninin səmərəli tədrisi üçün zəruri şərtlərdən biri kimi qiymətləndirilir.

***Tarix fənninin tədrisində müəllimin rolu.*** Tarix fənninin tədrisi yalnız faktların və tarixi hadisələrin ötürülməsi ilə məhdudlaşmır; müəllimin əsas rolu tələbələrin analitik düşüncəsini, tarixi təfək-

kürünü və tənqidi yanaşmasını inkişaf etdirməkdir. Bu baxımdan müəllimin kommunikativ bacarıqları tarixi məlumatların anlaşılmasını və yadda saxlanmasını asanlaşdıran əsas amil kimi çıxış edir. Müəllim yalnız məlumatın ötürülməsində yox, həm də tələbələrin idraki fəaliyyətini stimullaşdırmasında və onların öyrənməyə marağının artmasında böyük rol oynayır.

Tarix dərslərində müəllimin rolu bir neçə əsas funksiyaya bölünə bilər:

1. *Məlumatın çatdırılması və izahı:* Müəllim tarixi faktları, hadisələri və anlayışları tələbələrin səviyyəsinə uyğun şəkildə izah etməli, onların mənimsənilməsini təmin etməlidir. Bu, yalnız didaktik bacarıqlarla deyil, eyni zamanda kommunikativ bacarıqlar vasitəsilə tələbələrin diqqətini cəlb etməyi və dərs prosesinə aktiv qatılmalarını təmin etməyi tələb edir.

2. *Tələbələrin fəal iştirakının təşviqi:* Müasir tədris metodları tələbələri dərs prosesinə yalnız passiv şəkildə deyil, aktiv iştirak etməyə sövq edir. Müəllim diskussiya, sual-cavab, problem həll etmə və layihə üsullarından istifadə etməklə tələbələrin tarixi anlayışını dərinləşdirir və onların tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir.

3. *Empatiya və emosional əlaqənin qurulması:* Tarix dərslərində hadisələrin və proseslərin tələbələr tərəfindən düzgün qavranılması müəllimin empatiya və emosional intellekt bacarıqlarından asılıdır. Müəllim tələbələrin duyğularını anlamaq, onların narahatlıqlarını nəzərə almaq və dərs prosesində etimad mühiti yaratmaqla tarixi materialın daha dərin mənimsənilməsini təmin edir.

4. *Pedaqoji vəziyyətin idarə olunması:* Tarix dərslərində müəllim müxtəlif pedaqoji situasiyaları effektiv şəkildə idarə etməli, tələbələrin reaksiyalarını və davranışlarını düzgün qiymətləndirməlidir. Bu isə kommunikativ bacarıqların praktik tətbiqi ilə birbaşa bağlıdır və dərs prosesinin səmərəliliyini artırır.

Psixoloji tədqiqatlar da müəllimin kommunikativ bacarıqlarının tarixi tədrisdə rolunu təsdiqləyir. B.F.Lomov vurğulayır ki, "tarixi dərs prosesində müəllimin kommunikativ bacarıqları onun tələbələrlə emosional-intellektual əlaqəsini formalaşdırmaq və qarşılıqlı anlaşmanı təmin etmək imkanını müəyyən edir" [5, s.28]. Bu baxımdan müəllim yalnız bilik verən deyil, həm də tələbələrin tarixi düşüncə bacarıqlarını inkişaf etdirən və onları fəal iştirak etməyə təşviq edən şəxs kimi çıxış edir.

Azərbaycan pedaqoji ənənəsində də müəllimin tarixi dərslərdə rolu xüsusi vurğulanır. Ə.Ə.Əlizadə müəllimin fəaliyyətini qiymətləndirərkən bildirir ki, "tarixin tədrisində müəllimin effektivliyi onun tələbələrlə psixoloji ünsiyyət mədəniyyətindən, onların suallarına cavab vermək bacarığından və tarixi məlumatları anlaşılır formada təqdim etmə qabiliyyətindən asılıdır" [1, s.112]. Müəllimin bu keyfiyyətləri tələbələrin dərs prosesinə aktiv qatılmasını, mövzuya marağını və tarixi analitik bacarıqlarını artırır.

Təcrübələrimə əsasən onu deyə bilərəm ki, pedaqoji praktikada müəllim interaktiv metodlardan istifadə etməklə tarixin tədrisini daha effektli edə bilər. Diskussiya, debat, layihə və rol oyunları kimi üsullar müəllimin kommunikativ bacarıqlarını tələbələrə yönəltməsini tələb edir. Bu yanaşma yalnız bilik ötürülməsini deyil, həm də tələbələrin tarixi düşüncəsini, kritik analiz qabiliyyətini və problem həll etmə bacarıqlarını inkişaf etdirir. Tarixin tədrisində müəllimin kommunikativ bacarıqlarının inkişafı tələbələrin dərs prosesinə fəal cəlb olunmasını, öyrənmə motivasiyasının artırılmasını və tarixi biliklərin mənimsənilməsini birbaşa təmin edir.

***Müəllimin kommunikativ bacarıqlarının formalaşdırması.*** Müasir pedaqoji tədqiqatlar göstərir ki, müəllimin kommunikativ bacarıqları onun peşəkar və şəxsi inkişafının ayrılmaz hissəsidir. Bu bacarıqların məqsədyönlü formalaşdırılması tarixin tədrisində müəllimin uğurlu fəaliyyətinin əsas şərtlərindən biridir. Kommunikativ bacarıqların inkişafı yalnız nəzəri biliklərə əsaslanmaqla deyil, həm də praktik təcrübə, pedaqoji situasiyalarda interaktiv fəaliyyət və refleksiya vasitəsilə baş verir.

Müəllim kommunikativ bacarıqlarını bir sıra əsas istiqamətlər üzrə formalaşdıra bilər. Müəllimin fikirlərini aydın, məntiqli və düzgün şəkildə çatdırması tələbələrin dərs materialını mənimsəməsi və tarixi anlayışlarının formalaşması üçün müəllim nitq mədəniyyəti və ifadə qabiliyyətini inkişaf etdirməlidir. Müəllim tələbələrin fikirlərini diqqətlə dinləməli, onların ehtiyac və maraqlarına uyğun cavab verməlidir. Bunun üçün müəllimin dinləmə bacarığını inkişaf etdirməlidir Bu, dərs prosesində qarşı-

lıqlı anlaşmanı və tələbələrin fəal iştirakını təmin edir. Bundan başqa tələbələrin emosional vəziyyətini anlamaq, onlarla səmimi münasibət qurmaq və motivasiya yaratmaq üçün müəllim emosional intellect bacarıqlarını inkişaf etdirməlidir.

Təcrübələrimə görə, müəllimlərin kommunikativ bacarıqlarının formalaşdırılması müxtəlif yollarla həyata keçirilir. Bunlar arasında professional təlimlər, seminarlar, seminarlar, pedaqoji məsləhətlər, təcrübə mübadiləsi və interaktiv təlim proqramları kommunikativ bacarıqlarının formalaşdırılmasında önəmli rol oynayır.

Müəllim kommunikativ bacarıqlarını inkişaf etdirərkən həm də interaktiv tədris metodlarından istifadə etməlidir. Diskussiya, debat, rol oyunları və layihə üsulları müəllimin tələbələrə yönəlmiş ünsiyyət bacarıqlarını gücləndirir, onların tarixi anlayışını və analitik düşüncəsini inkişaf etdirir. Bunun nəticəsində dərs prosesi yalnız informasiya ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda tələbələrin tarixi hadisələri analiz etmə və problem həll etmə bacarıqları formalaşır.

Müəllimin kommunikativ bacarıqlarının məqsədyönlü formalaşdırılması tarixin tədrisində tələbələrin bilik və bacarıqlarının inkişafına, dərs prosesinin effektivliyinə və motivasiyanın artırılmasına birbaşa təsir göstərir. Bu, müəllimin həm peşəkar, həm də şəxsi inkişafının mühüm komponenti kimi qiymətləndirilir.

***Tarix dərslərində kommunikativ bacarıqların tədbiqi yolları.*** Tarix dərslərində müəllimin kommunikativ bacarıqları tələbələrin dərs prosesinə fəal qatılmasını, tarixi təfəkkürünü və analitik düşüncə qabiliyyətini inkişaf etdirmək məqsədi ilə tətbiq olunur. Bu baxımdan müəllimin ünsiyyət bacarıqları tarixi dərslərin səmərəliyini artıran əsas amillərdən biridir.

Müəllim kommunikativ bacarıqlarını müxtəlif tədris metodları vasitəsilə tətbiq edə bilər. Bunlara interaktiv üsullar, diskussiya, debat, rol oyunları, layihə tapşırıqları və qrup işləri daxildir. Belə metodlar tələbələrin yalnız tarixi məlumatı əzbərləməsini deyil, həm də faktları təhlil etməsini, səbəb-nəticə əlaqələrini müəyyən etməsini və tarixi hadisələr arasında müqayisələr aparmasını təmin edir. V.A. Slastenin qeyd edir ki, "təlim prosesində müəllimin kommunikativ çevikliyi tələbələrin fəallığını artırır və dərs situasiyasına uyğun ünsiyyət forması seçmək bacarığı ilə birbaşa bağlıdır" [4, s.145].

Məsələn müəllim interaktiv tədris metodlarından istifadə edərək tələbələrin aktiv iştirakını təmin edə bilər. Diskussiya və debat üsulları tələbələri mövzular üzərində müzakirələr aparmağa, müxtəlif baxış bucaqlarını qiymətləndirməyə və tarixi hadisələri müqayisəli təhlil etməyə sövq edir. Məsələn, "Azərbaycan Xalq Cümhuriyyəti dövrü" mövzusunda müəllim tələbələri iki qrupa bölərək fərqli siyasi baxışları müdafiə etməyə təşviq edə bilər. Bu yanaşma tələbələr arasında qarşılıqlı ünsiyyəti artırır, onların tarixi analiz və arqument bacarıqlarını inkişaf etdirir.

Tarix dərslərində kommunikativ bacarıqların tətbiqi yollarından biri də rollu oyunlardır. Rollu oyunlar tarixi şəxsiyyətlərin və hadisələrin dərs prosesinə inteqrasiyasını təmin edir. Bu yolla tələbələr müxtəlif tarixi fiqurların mövqelərini təqlid edərək hadisələrin səbəb və nəticələrini daha dərindən anlaya bilirlər. Məsələn, Səfəvi dövlətinin tarixi məsələlərini müzakirə edən dərsdə tələbələr həmin dövrün şəxsiyyətlərinin, dövlət adamlarının rolunu oynayaraq o dövrün hadisə və proseslərini canlandırırlar. Bu üsul müəllimin kommunikativ bacarıqlarını tətbiq etməsini tələb edir, çünki o, tələbələrin fəaliyyətini idarə etməli, düzgün yönləndirməli və konstruktiv geribildirim verməlidir.

Layihə üsulu isə tələbələrin tədqiqat bacarıqlarını inkişaf etdirmək üçün əvəzsizdir. Müəllim layihə üsulundan istifadə etməklə tələbələrin tədqiqat bacarıqlarını gücləndirə bilər. Tarixi mövzular üzrə qrup layihələri tələbələrin birgə əməkdaşlıq etməsinə və qarşılıqlı ünsiyyət qurmasına imkan verir. Məsələn, "Şəki xanlığının iqtisadi və mədəni həyatı" mövzusunda qrup layihəsi zamanı tələbələr tarixi mənbələri araşdırır, məlumatları paylaşır və yekun təqdimat hazırlayırlar. Bu proses müəllimin kommunikativ bacarıqlarını dərs prosesinə inteqrasiya etməsi ilə dərs keyfiyyətini yüksəldir və tələbələrin tarixi təfəkkürünü dərinləşdirir.

Tarix dərslərində müəllim tələbələrlə qeyri-formal ünsiyyət bacarıqlarını tətbiq etməklə dərs prosesini maraqlı və motivasiyaedici edə bilər. Məsələn, müəllim tarixi faktları gündəlik həyatdan misallarla əlaqələndirərək, tələbələrə şəxsi təcrübələrini paylaşmaq imkanı verir. Bu yanaşma onların dərsə

marağını artırır və müəllimin empatiya, aktiv dinləmə və adaptiv ünsiyyət bacarıqlarını praktikada göstərməsinə şərait yaradır.

Müasir texnologiyalar müəllimin kommunikativ bacarıqlarını dərs prosesinə inteqrasiya etməyə imkan verir. Onlayn testlər, interaktiv xəritələr və s. müəllimə tələbələr ilə səmərəli ünsiyyət qurmağa, dərs materialını vizual şəkildə təqdim etməyə kömək edir. Bu da tələbələrin tarixi bilikləri daha yaxşı qavramasına və dərs prosesinə aktiv qatılmasına şərait yaradır.

Psixoloji aspektdən, müəllim tələbələrlə empatiya və emosional intellekt bacarıqlarını tətbiq etməlidir. D. Goleman bildirir ki, "Emosional intellekt müəllimə tələbələrin duyğularını anlamağa və onlarla səmərəli ünsiyyət qurmağa imkan verir" [6, s.78]. Tarix dərslərində müəllim tələbələrin suallarına həssaslıqla cavab verərək və onların mövzuya marağını artıraraq dərs prosesinə aktivlik gətirir.

Azərbaycan pedaqogikasında da müəllimin dərs zamanı kommunikativ bacarıqlarını tətbiqi xüsusi vurğulanır. Ə.Ə. Əlizadə qeyd edir ki, "tarix dərslərində müəllimin effektivliyi onun tələbələrlə psixoloji ünsiyyət mədəniyyətindən, qarşılıqlı anlaşma yaratmaq bacarığından və dərs prosesində empatiya nümayiş etdirməsindən asılıdır" [1, s.135]. Müəllim interaktiv tədris metodlarını istifadə edərək, tələbələrin tarixi məlumatları analiz etməsini, diskussiya aparmasını və fərdi mövqelərini ifadə etməsini təşviq edir.

Əlavə olaraq, müəllim layihə və tədqiqat üsullarından istifadə etməklə tələbələrin kritik düşünmə bacarıqlarını inkişaf etdirə bilər. Məsələn, tarixi hadisələrin səbəb və nəticələrini araşdıran qrup layihələri tələbələr arasında qarşılıqlı ünsiyyət və əməkdaşlığı artırır, həmçinin tarixi biliklərin praktik tətbiqini təmin edir. Bu yanaşma müəllimin kommunikativ bacarıqlarını dərs prosesinə inteqrasiya etməsi ilə dərs keyfiyyətini yüksəldir və tələbələrin tarixi təfəkkürünü dərinləşdirir.

***Nəticə.*** Apardığım təhlil göstərir ki, ali təhsil sistemində müəllimin kommunikativ bacarıqları təlim-tərbiyə prosesinin səmərəliliyinə və keyfiyyətinə birbaşa təsir edən əsas amillərdəndir. Tarix fənninin tədrisində bu bacarıqların inkişafı tələbələrin idraki fəallığının, tənqidi və yaradıcı düşünmə qabiliyyətinin, eyni zamanda sosial-mədəni adaptasiya səviyyəsinin yüksəldilməsinə bilavasitə təsir göstərir. Müəllimin kommunikativ səriştəsi pedaqoji prosesin humanist yönümünü gücləndirir, dərs mühitində qarşılıqlı anlaşma, inam və əməkdaşlıq atmosferi yaradır.

Kommunikativ bacarıqlar yalnız ünsiyyət vərdişlərinin məcmusu deyil, həm də müəllimin peşəkar şəxsiyyətinin əsas göstəricisidir. Bu bacarıqların formalaşması müəllimin empatiya, aktiv dinləmə, emosional sabitlik və refleksiya kimi şəxsi keyfiyyətləri ilə sıx bağlıdır. Mənim müşahidələrim göstərir ki, kommunikativ səriştə müəllimin pedaqoji ustalığının ayrılmaz komponentidir və onun fəaliyyəti zamanı idraki, emosional və sosial qarşılıqlı əlaqənin harmoniyasını təmin edir.

Tarix dərslərində kommunikativ bacarıqların tətbiqi tələbələrin dərs prosesində fəal iştirakını təmin etməklə yanaşı, onların milli-mənəvi dəyərlərə, vətənpərvərlik və şəxsiyyət yönümlü təlim prinsiplərinə marağını da artırır. Belə bacarıqlara malik müəllim tələbəni sadəcə bilik alan subyekt kimi deyil, həm də dialoq aparan, müzakirə edən və nəticə çıxaran düşünən fərd kimi formalaşdırır. Bu baxımdan, tarix dərslərində kommunikativ yanaşmaların tətbiqi təkcə bilik ötürülməsini deyil, həm də tələbələrin sosiallaşmasını dəstəkləyir.

Nəticə etibarilə, ali təhsil müəssisələrində tarix fənninin tədrisində müəllimin kommunikativ bacarıqlarının inkişafı tədris prosesinin müasir tələblərə uyğunlaşdırılmasının əsas şərtidir. Bu istiqamətdə müəllim hazırlığı proqramlarında ünsiyyət və pedaqoji psixologiya komponentlərinin gücləndirilməsi, kommunikativ təlim metodlarının (debat, diskussiya, layihə, problemli təlim və s.) geniş tətbiqi, həmçinin müəllimlərin davamlı peşəkar inkişaf sistemində kommunikativ səriştənin əsas istiqamət kimi müəyyənləşdirilməsi məqsədəuyğun hesab edilir.

## ƏDƏBİYYAT

1. Əlizadə Ə.Ə. Pedaqogika. Bakı, Maarif, 2004, 215 s.
2. Бабанский Ю.К. Оптимизация процесса обучения. Москва, Педагогика, 1982, 256 с.

3. Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli Fərmanı. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı, 2013.
4. Сластёнин В.А. Педагогика. Москва, Академия, 2012, 608 с.
5. Ломов Б.Ф. Проблема общения в психологии. Москва, Изд-во «Наука», 1981, 280 с.
6. Goleman D. Emotional Intelligence. New York: Bantam Books, 2006, 249 p.
7. Shannon C., Weaver W. The Mathematical Theory of Communication. Urbana, University of Illinois Press, 1949, 117 p.
8. Рубинштейн С.Л. Основы общей психологии. Москва, Педагогика, 1989, 217 с.

**SULEYMAN RAHIMLI**
*2nd Year Master's Student of Baku State University*

## THE IMPORTANCE OF TEACHER'S COMMUNICATIVE SKILLS IN TEACHING HISTORY WITHIN THE HIGHER EDUCATION SYSTEM

The article explores the formation of teachers' communicative skills in the higher education system and the ways these skills are applied in the teaching process. The study demonstrates that the development of teachers' pedagogical communication skills facilitates the formation of students' cognitive activity, critical and creative thinking, enhances the quality of instruction, and contributes to the effective organization of teacher-student interactions. The article analyzes, from a scientific-theoretical perspective, the role of communicative skills as a core component of pedagogical activity, including their psychological and didactic aspects. Additionally, it emphasizes the importance of the teacher's communication culture in shaping an interactive and student-centered learning environment in higher education.

*Keywords:* communication, higher education system, teacher's communicative skills, pedagogical mastery, teacher-student relations, interactive teaching methods.

*Daxil olma tarixi*: 13.12.2025-ci il.
*Çapa imzalanma tarixi*: 30.01.2026-cı il.

## Müəlliflər üçün qaydalar

- Məqalələr 3 dildə - Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Azərbaycan dilində yazılan məqalələrdə ingilis; ingilis dilində yazılan məqalələrdə Azərbaycan dilində xülasə və açar sözlər; rus dilində yazılan məqalələrdə Azərbaycan və ingilis dillərində xülasə və açar sözlər verilməlidir.
- Xülasə və açar sözlər məqalənin məzmununa uyğun olmalıdır. Xülasələr elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır.
- Məqalələrin mətnləri Times New Roman-14 şrifti ilə, 1,5 intervalla yığılmalıdır.
- Məqalə Giriş, Əsas hissə (yarımbaşlıqlar qeyd edilməklə), Nəticə və Ədəbiyyat hissələrindən ibarət olmalıdır.
- Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. İstinadlar kvadrat mötərizədə qeyd edilməlidir. Məsələn, [1] və ya [1, s.119].
- Ədəbiyyat siyahısı müəllifin seçiminə görə: əlifba sırası ilə, və ya istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla verilə bilər. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.
- Ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.
- Plagiatlıq faktı aşkar edilən məqalələr geri qaytarılacaq.

## Məqalənin tərtibi qaydaları

- Məqalədə vərəqin sağ küncündə böyük, tünd (Bold) hərflərlə müəllif(lər)in adı və familyası yazılmalıdır. Bir sətir aşağıda yenə sağ küncdə adi, sağa tərəf yaslanmış (İtalic) hərflərlə müəllif(lər)in təhsil aldığı müəssisə, ixtisas, kurs və müəllif(lər)in elektron poçt ünvanı göstərilməlidir.
- Bir sətir boşluqdan sonra ortada hamısı böyük, tünd (Bold) hərflərlə məqalənin adı yazılmalıdır.
- Bir sətir boşluqdan sonra vərəqin sağ küncündə tələbəyə araşdırma zamanı rəhbərlik etmiş, mövzunun aid olduğu elm sahəsi üzrə elmi rəhbərin elmi dərəcəsi, ad və familyası açıq şəkildə qeyd edilməlidir.
- Bir sətir boşluqdan sonra adi qaydada, iki tərəf yaslanmış formada məqalənin yazıldığı dildə Annotasiya və Açar sözlər verilməlidir.
- Bir sətir boşluqdan sonra məqalə yazılmalıdır (Giriş, yazımbaşlıqlar, Nəticə sözləri qeyd edilməklə).
- Bir sətir boşluqdan sonra Ədəbiyyat verilməlidir. Mənbə və ədəbiyyatların biblioqrafik təsviri tam olmalıdır (nəşr yeri, nəşriyyat, səhifələrin sayı mütləq qeyd edilməlidir).
- Bir sətir boşluqdan sonra vərəqin sağ küncündə Xülasənin yazılacağı dildə böyük, tünd (Bold) hərflərlə müəllif(lər)in adı və familyası; bir sətir aşağıda yenə sağ küncdə adi, sağa tərəf yaslanmış (İtalic) hərflərlə müəllif(lər)in təhsil aldığı müəssisə, ixtisas, kurs; bir sətir boşluqdan sonra ortada hamısı böyük, tünd (Bold) hərflərlə məqalənin adı; bir sətir boşluqdan sonra iki tərəf yaslanmış formada xülasə; yeni sətirdən açar sözlər yazılmalıdır.

## Правила для авторов

- Статьи принимаются на 3 языках: азербайджанском, русском и английском. Статьи на азербайджанском языке должны иметь резюме и ключевые слова на английском языке; статьи на английском языке - резюме и ключевые слова на азербайджанском языке; статьи на русском языке - резюме и ключевые слова на азербайджанском и английском языках.
- Резюме и ключевые слова должны соответствовать содержанию статьи. Резюме должны быть строго отредактированы с научной и грамматической точки зрения.
- Текст статьи должен быть набран шрифтом Times New Roman-14 с полуторным межстрочным интервалом.
- Статья должна состоять из Введения, основной части (с подзаголовками), Заключения и Списка литературы.
- Статья должна содержать ссылки на научные источники. Ссылки должны быть указаны в квадратных скобках. Например, [1] или [1, с.119].
- Список литературы может быть представлен по выбору автора: в алфавитном порядке или в порядке появления цитируемой литературы в тексте. Если та же самая литература цитируется повторно в другом месте текста, то цитируемая литература должна быть указана с предыдущим номером.
- В списке литературы приоритет следует отдавать научным статьям, монографиям и т.д. опубликованным за последние 5-10 лет.
- Статьи, которые не будут оформлены технически корректно и в которых будет обнаружен плагиат, будут возвращены.

## Правила оформления статьи

- Имя и фамилия автора (авторов) должны быть написаны в правом верхнем углу страницы заглавными жирными буквами. На одну строку ниже, в правом верхнем углу, обычным курсивом, должны быть указаны учреждение, специальность, курс и адрес электронной почты автора (авторов).
- После одной строки пробела, посередине, заглавными жирными буквами должна быть написана название статьи.
- После одной строки пробела, в правом верхнем углу страницы, следует четко указать научную степень, имя и фамилию научного руководителя, который руководил работой студента во время исследования, и область науки, к которой относится тема.
- После одной строки пробела следует привести аннотацию и ключевые слова на языке, на котором написана статья, обычным способом, двусторонним курсивом.
- После одной строки пробела следует написать саму статью (указанием слов: Введение, заголовки, Заключение).
- После одной строки пробела следует написать список литературы. Библиографическое описание источников и литературы должно быть полным (необходимо указать место публикации, издательство, количество страниц).
- Порядок оформления резюме: После одной строки после Литературы: в правом углу страницы, на языке, на котором будет написано резюме заглавными жирными буквами - имя и фамилия автора (авторов); на одну строку ниже, в правом углу, обычным курсивом - учреждение, специальность, направление обучения автора (авторов); после одной строки, посередине - заглавными жирными буквами название статьи; после одной строки, резюме; ключевые слова следует писать на новой строке.

## Instructions for Authors

- Articles may be published in three languages - Azerbaijani, Russian and English. Articles written in Azerbaijani must include an abstract and keywords in English; articles written in English must include an abstract and keywords in Azerbaijani; and articles written in Russian must include abstracts and keywords in both Azerbaijani and English.

- The abstract and keywords must correspond to the content of the article. Abstracts must be carefully edited in terms of both scientific accuracy and grammatical correctness.

- The text of the articles must be typed in Times New Roman, 14-point font, with 1.5 line spacing.

- The article must consist of an Introduction, Main Body (with subheadings), Conclusion and References.

- The article must include references to scholarly sources. References should be indicated in square brackets, for example, [1] or [1, p. 119].

- The list of references may be arranged at the author's discretion: either in alphabetical order or in the order in which the sources are cited in the text. If the same source is cited again elsewhere in the text, it should be indicated using its original reference number.

- Preference should be given to references to scientific articles, monographs and other sources published within the last 5–10 years in the list of references.

- Articles in which plagiarism is detected will be rejected.

## Manuscript Preparation Guidelines

- The author(s) name(s) and surname(s) must be written in uppercase (Bold) letters at the top right corner of the page. On the next line, also at the top right corner, the author(s)' affiliated institution, specialty, course and email address should be indicated in regular (İtalicized) letters, aligned to the right.

- After one line of spacing, the title of the article must be centered and written entirely in uppercase (Bold) letters..

- After one line of spacing, in the top right corner of the page, the scientific advisor who supervised the student's research must be clearly indicated, including their academic degree, first name and surname, in the field relevant to the topic.

- After one line of spacing, the abstract and keywords must be provided in the language in which the article is written, in regular font and justified alignment.

- After one line of spacing, the main text of the article should be written, (including the Introduction, subheadings and Conclusion).

- After one line of spacing, the References section should be provided. The bibliographic description of all sources must be complete, (the place of publication, publisher, and total number of pages must be specified).

- After one line of spacing, in the top right corner of the page, the author(s)' name(s) and surname(s) must be written in uppercase (Bold) letters. On the next line, also at the top right corner, the author(s)' affiliated institution, specialty, and course should be indicated in regular (Italicized) letters, aligned to the right. After one line of spacing, the title of the article must be centered and written entirely in uppercase (Bold) letters. After another line of spacing, the abstract should be written in justified alignment. On a new line, the keywords should be provided.

***Çapa hazırlayan:*** **Lamiyə Ruintən**

Çapa imzalanmışdır: 30.01.2026.
Kağız formatı: 60x84 1/8 Həcmi: 10 ç.v.
Sayı: 120 ədəd

“Elm və təhsil nəşriyyatı”nın mətbəəsində hazır pozitivlərdən çap olunmuşdur